


**ADİL ABDULLA ƏL-FƏLAH**

# HEYDƏR ƏLİYEV
# VƏ MİLLİ-MƏNƏVİ
# DƏYƏRLƏR

BAKI - QİSMƏT - 2007



**BBK**

F-43

**Elmi redaktor:**

**Şeyxülislam Allahşükür Paşazadə**,
Qafqaz Müsəlmanları İdarəsinin sədri,
tarix elmləri doktoru, professor

**Rəyçilər:**
**Vasim Məmmədəliyev,**
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü,

**Fuad Qasımzadə**,
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü,

**Bəkir Nəbiyev,**
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü,

**Anar İskəndərov,**
tarix elmləri doktoru, professor

**Dizayn:**
**Mübariz Xəlilov**

**F-43 Adil Abdulla Əl-Fəlah. HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR.**
Bakı, Qismət, 2007, 108 səh. (şəkilli)

$$F\frac{0403000000}{M-085-51-07}$$

**ISBN10 9952-8082-2-4**
**ISBN13 978-9952-8082-2-3**

**© Qismət, 2007**





***Bismillahir-Rəhmanir-Rəhim!***

Müasir Azərbaycan tarixinin yaradıcısı, dünya miqyaslı siyasətçi Heydər Əliyevin çoxşaxəli siyasi, ictimai və diplomatik fəaliyyəti istər ölkə daxilində, istərsə də xarici ölkələrdə bir çox tədqiqatların mövzusuna çevrilir, bu dahi şəxsiyyətlə ünsiyyətdə olanlar onunla görüşlərinin təəssüratlarını uzun illər unutmurlar.

Həmin insanların sırasında Azərbaycanın sadiq dostu, Küveyt dövlətinin İslam işləri və Vəqflər Nazirinin I müavini, Asiya Müsəlmanları Komitəsinin sədri, doktor Adil əl-Fəlahın da adını xüsusi çəkmək olar.

Onun H.Əliyev şəxsiyyətinə həsr etdiyi əsərinin ilk səhifələrindən bəlli olur ki, A. Əl-Fəlah Ulu Öndərimizi şəxsən tanımaqla bərabər, onun haqqında yazılmış əsərləri, müxtəlif səpkili çıxışlarını və nitqlərini də yaxından öyrənmişdir.

Əsərin əhəmiyyətini artıran cəhətlərdən biri də onun ərəbcə olmasıdır, çünki, çoxmilyonlu ərəb oxucusu məhz bu kitab vasitəsilə H.Əliyevin titanik fəaliyyəti ilə tanış olmaq imkanı əldə edir.

Bir neçə kəlmə müəllifin özü haqqında demək yerinə düşərdi. Doktor Adil əl-Fəlah ölkəmizin müstəqilliyinin ilk günlərindən Azərbaycanı dəstəkləmiş, üzləşdiyimiz Qarabağ problemi ilə bağlı doğma ölkəsi - Küveytin bizim haqq işimizi ədalətli şəkildə müdafiə etməsinə öz töhfəsini vermiş, qaçqın və məcburi köçkünlərimizə öz dövlətinin bu günədək davam edən təmənnasız yardımını təşkil etmişdir.

A.Əl-Fəlah Azərbaycanda və Gürcüstanda, habelə, müstəqil respublikalarda İslamın müasir problemləri ilə bağlı keçirilmiş bir neçə beynəlxalq konfrans və simpoziumların təşkilində bilavasitə yaxından iştirak etmiş, həmin konfranslardakı dərin məzmunlu çıxışları ilə də yadda qalmışdır.

Zəngin həyat təcrübəsinə malik olan, obyektiv fikir və mülahizələri ilə seçilən bu şəxsiyyətə, təkcə öz vətənində deyil, Azərbaycanda da böyük rəğbət və ehtiram bəslənilir.

Təqdim edilən bu əsərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyev Qurani-Kərimə və İslam elmlərinə dərin hörmət və ehtiramla yanaşan dahi siyasi xadim kimi təqdim olunur, onun müxtəlif münasibətlərlə çıxışlarında İslam dini, islam əxlaqı və dəyərləri ilə bağlı fikirlərini müəllif böyük məharətlə Qurani-Kərimin müvafiq ayələri ilə bağlayır və H.Əliyevin nadir düha sahibi olduğunu xüsusi vurğulayır.

Heydər Əliyevin çoxsaylı tədbirlərdə, o cümlədən, Bakıda keçirilmiş nüfuzlu beynəlxalq forumlarda, Beynəlxalq təşkilatların yığıncaqlarında, habelə dünya dövlətlərinin başçıları ilə görüşlərində söylədiyi fikirləri bir-bir araşdırıb, təhlil edən A. Əl-Fəlah, onun öz torpağına, xalqına, dininə olan misilsiz məhəbbətini xüsusi qeyd edir, bu dahi şəxsiyyətin, istər sovet dövründə, istərsə də müasir mərhələdə bəzi dövlətlərin mövcud problemlərə ikili standartlarla yanaşdıqlarını qətiyyətlə pislədiyini qələmə alır.

A.Əl-Fəlah bu kitabda Heydər Əliyevin daha çox dini-mənəvi, dini-fəlsəfi baxışlarına xüsusi yer ayırır, onun fikir və ideyalarını təhlil edərək belə qənaətə gəlir ki, Azərbaycan xalqının böyük oğlu, siyasi hakimiyyət zirvəsində yüksək məqamlara sahib olan, ömrünü ölkəsinin çiçəklənməsinə sərf edən bu böyük dövlət xadimi, təkcə İslam tarixinə, Azərbaycan xalqının islami dəyər və mənəviyyatına deyil, eyni zamanda səmavi dinlərin tarixinə, onların ehkamlarına və mənəvi dəyərlərinə də dərindən bələddir. O, başqa mövzularda olduğu kimi, dini mövzuda da, istər sadə insanlarla söhbətlərində, istərsə də rəsmi çıxışlarında dinşünas alim təsiri bağışlayır.

Müəllif xüsusi bir şövqlə H.Əliyevin İslama təmayülçü, terrorçu, ekstremist damğası vurmağa səy göstərənlərə İslamın və Qurani-Kərimin hər cür zora, zülmü və güc işlətməyi rədd etdiyinə dair bu müqəddəs Kitaba istinadən verdiyi cavablardan tutarlı misallar gətirərək, bu böyük dövlət xadiminin İslama olan məhəbbətinə və inamına öz heyranlığını ifadə edir.

A.Əl-Fəlahın Heydər Əliyev şəxsiyyətini yaxından tanımasına dəlalət edən cəhətlərdən biri də, kitabda onun müxtəlif dini bayram və tədbirlər münasibətilə möminlərlə görüşməsindən, "Təzəpir" və "Bibiheybət" məscidlərini ziyarət etməsindən, həmin görüşlərdə söylədiyi fikirlərdən nümunələr verməsidir.

Müəllifin qənaətinə görə, Azərbaycanı İslam aləminin ayrılmaz bir hissəsi, İslam sivilizasiyasını Yer üzündə sülhün, əmin-amanlığın və ədalətin carçısı hesab edən H.Əliyevin bu ideyası Azərbaycanda keçirilmiş bütün konfrans və simpoziumların əsas qayəsini təşkil etmişdir.

H.Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar prinsipial mövqeyinə böyük yer ayıran, Qərbin siyasi dairələrinin münaqişənin həlli ilə bağlı ikili standartlarla yanaşmaları haqda onun müxtəlif beynəlxalq forumlarda

səsləndirdiyi cəsarətli fikirlərindən iqtibaslar gətirərək kitab müəllifi bu siyasət nəhənginin istedadına heyran qaldığını gizlətmir. A. Əl-Fəlah Heydər Əliyevin demokratiya və insan hüquqlarından dəm vuran bəzi qərb siyasətçilərinə Dağlıq Qarabağ və onun ətraf rayonlarının Ermənistan tərəfindən işğalı nəticəsində bir milyondan artıq azərbaycanlının hüquq və azadlıqlarının pozulmasına göz yummalarına sərt iradlarını və belə məqamlarda onların bu dahi insanın məntiqi qarşısında aciz qaldıqlarını ayrıca qeyd edir, onun hələ sovet dövründə müsəlman Azərbaycan xalqının nümayəndəsi olaraq, siyasi hakimiyyətin yüksək vəzifələrində çalışdığından qürur duyduğunu bildirir.

İslamın tərbiyəedici, səfərbəredici və birləşdirici mahiyyətinə toxunan müəllif, Heydər Əliyev dühasının İslamın bu dəyərlərinə də xüsusi önəm verdiyini xatırladır və onun 1993-cü ildə Peyğəmbər əleyhissəlamın mövludu münasibətilə "Təzəpir" məscidində dediyi: "İslam Azərbaycan xalqının Peyğəmbər əleyhissəlamın və İslam aləminə mənsub olan bütün insanların ən ali əxlaq mənbəyidir" fikrini böyük həssaslıqla önə çəkir. Həqiqətən, H.Əliyev İslamı və İslam əxlaqını, təkcə azərbaycanlılar üçün deyil, İslam aləmində yaşayanların vasitəsilə bütün bəşəriyyət üçün misilsiz örnək hesab edirdi.

Müəllifin fikrincə, H.Əliyev İslam elmləri sahəsində zəngin məlumatlı olmaqla yanaşı, İslamın dərin psixoloji təsirlərini də çox gözəl bilirdi. Məhz bu keyfiyyətləri sayəsində o, dünyada baş verən hadisələri bacarıqla təhlil edir, əxlaqi və mənəvi sapmaların səbəblərini özünəməxsus sərrast məntiqlə izah edirdi.

H.Əliyev keçmiş SSRİ məkanında və Qərb aləmində İslamın daim artan nüfuzundan qorxan, bu dinin qılınc gücünə insanlara qəbul etdirildiyini iddia edənlərə həmin mülahizələrin İslamın ruhu ilə bir araya sığmadığını bildirməklə öz qəti mövqeyini bəyan edirdi.

A.Əl-Fəlah "Dində məcburiyyət (zorakılıq) yoxdur" (Əl-Bəqərə; 256) Quran ayəsini misal gətirməklə, H.Əliyevin öz fikirlərində nə qədər haqlı olduğunu bir daha vurğulayır. Daha sonra müəllif H.Əliyevin aşağıdakı fikrini xatırladır: "Müsəlmanlar dinlərini qəlblərində saxlamış və din hər bir ailədə, hər bir evdə yaşamışdır. Dinin insanlara bəxş etdiyi adət və ənənələr, qayda və qanunlar illər ötdükcə yaşamış və hətta sovet dövründə tətbiq olunmuş yeni qanunlar, adət və ənənələrdən daha güclü olmuşdur". Bununla Azərbaycan xalqının Ümummilli Lideri məhz kommunist ideyalarının zorla qəbul etdirilməsini və bu səbəbdən də 70 ildən sonra iflasa uğradığını təsdiq edir, İslam ideyalarının isə 1400 ildən artıq bir dövrdə Azərbaycanda bərqərar olduğuna və bütün məhrumiyyətlərə baxmayaraq, azərbaycanlı möminlərin həmin ideyaları yüz illərlə qoruyub bu günə qədər çatdırdıqlarına dəyər vermiş olur. A. Əl-Fəlah H.Əliyevin "İnsanların öz kökünə və dininə qayıtmasına heç bir qüvvə mane ola bilməz" fikrinə şərik çıxaraq, son dövrlərdə minlərlə insanın İslama üz tutması faktını qeyd edir.

A. Əl-Fəlah din sahəsində, fiqh və şəriət məsələlərində tədqiqatçı olduğundan o, müasir Azərbaycan dövlətinin qurucusu H. Əliyev şəxsiyyətinin məhz bu məziyyətlərindən daha çoxbəhsedir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, A.Əl-Fəlah bu kitabında Qurani-Kərimin mübarək ayələrini, Peyğəmbər əleyhissəlamın sünnələrini misal gətirməklə, İslam dininin ehkamlarını şərh edir, bu dinin üstünlüklərindən bəhs edir və böyük bir ustalıqla əldə etdiyi nəticələri Ulu Öndər H.Əliyevin Azərbaycanda İslam dininin və İslam əxlaqının bərqərar olması ilə bağlı fəaliyyəti ilə əlaqələndirir.

Müəllif Heydər Əliyevin dahiliyini, onun qloballaşma ilə bağlı fikirlərində də görür. Belə ki, bu böyük insan beynəlxalq miqyaslı düşüncələrində müasirləşməyə xüsusi önəm versə də, bunun milli-mənəvi dəyərlərin, tarixi adət və ənənələrin zəifləməsi hesabına olmasının əleyhinə olmuşdur. H.Əliyevin "Təzə Pir" məscidindəki çıxışında söylədiyi "Dinimiz-mütərəqqi dindir və İslam bunu əsrlər boyu sübut etmişdir; bu dinin ümumbəşəri əhəmiyyəti vardır" fikrini A.Əl-Fəlah, İslamın, guya gerilik əlaməti olduğunu və demokratik ideyalara yol açmadığını deyənlərə dahi rəhbərin qətiyyətli cavabı kimi dəyərləndirir.

Müəllifin fikrincə, H.Əliyev böyük siyasi xadim olmaqla bərabər, həm də güclü analitik təfəkkürə malik olan alim idi; həqiqi demokratiyanı, insan azadlıqlarını və hüquqlarını, bu məfhumlar altında gedən siyasi oyunlardan bacarıqla ayırd edir və yeri gəldikcə, bəzi neqativ təzahürlərlə bağlı narahatlığını da gizlətmirdi. Buna görə də H.Əliyev İslamla müasirlik arasında heç bir ziddiyyət görmür, əksinə müasir dünyanın problemlərini, haqq-ədalət, bərabərlik, insan ləyaqətinə ehtiram kimi islami prinsiplər əsasında həll etməyin mümkünlüyünü hər dəfə vurğulayırdı.

H.Əliyevin öz çıxışlarında Quran ayələrindən və Allah Rəsulunun (s) hədislərindən də misallar gətirməsini yüksək qiymətləndirən A. Əl-Fəlah bu dahi insanın həmişə mütaliə etdiyinin və heyrətamiz hafizəyə malik olduğunun şəxsən şahidi olduğunu qürurla qeyd edir. Müəllif onu da qeyd edir ki, H.Əliyev hansı ixtisas sahibi ilə söhbət edirdisə, həm-söhbəti onun məhz həmin ixtisas sahibi olduğuna inanırdı. Belə ki, nadir istedada malik olan bu şəxsiyyət dərin və universal bilik sahibi idi.

O, Respublika gənclərinin I forumundakı çıxışında gənc nəsli müasir biliklərə yiyələnməyə, islami dəyərlərə sahib olmağa, hər bir gənci öz kökünə sadiq olmağa,vətənini sevməyə və Peyğəmbər əleyhissəlamın " Vətəni sevmək imandandır" kəlamını əldə rəhbər tutmağa çağırmışdır.

A. Əl-Fəlah kitabında dahi rəhbərin uğurlu neft strategiyası, Azərbaycanı bazar iqtisadiyyatı yolu ilə irəliyə aparması, habelə onun rəhbərliyi altında Azərbaycanda uğurlu dövlət və din münasibətləri qurulması, məscidlər, kilsələr, sinaqoqlar və başqa ibadət yerlərinin tikilməsi, müstəqilliyin ilk günlərindən dinlə dövlət arasında əməkdaşlıq əlaqələrinin, ölkədə müxtəlif dinlər və məzhəblər arasında həqiqi tolerantlıq münasibətlərinin yaradılması və s. məsələlərə toxunur, bu müdrik insanın öz ölkəsini qüdrətli etmək istiqamətində atdığı uğurlu addımlarını fərəhlə qələmə alır.

H.Əliyevin İslam aləmində böyük nüfüz sahibi olmasına toxunan müəllif, Azərbaycanın bir sıra beynəlxalq təşkilatlara üzv olduğu kimi, İslam Konfransı Təşkilatında da fəal iştirakından bəhs edir və İKT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanı birmənalı şəkildə dəstəkləməsini alqışlayır, Ümummilli Liderimizin İslam ölkələri başçıları ilə görüşlərini, Azərbaycanın xarici siyasətində İslam aləmi ilə əlaqələrə xüsusi önəm verdiyini fəxrlə önə çəkir, İslam maliyyə təşkilatlarının Azərbaycan iqtisadiyyatının inkişafındakı rolunu xüsusi qeyd edir.

A.Əl-Fəlah öz kitabında İslam sivilizasiyasının yaradılmasında və təşəkkül tapmasında Azərbaycan alim və şairlərinin xüsusi rolundan da ayrıca bəhs edir. Nizami, Nəsimi, Füzuli, Nəsirəddin Tusi, Qətran Təbrizi, Xətib Təbrizi, Şihabuddin Sürhəvərdi kimi mütəfəkkirlərin adını çəkir, Azərbaycan mədəniyyətinin İslam mədəniyyətinin bir hissəsi kimi, bəşəri sivilizasiyanın tərkib hissəsi olduğu fikrini xüsusi vurğulayır.

A.Əl-Fəlahın xalqımızın ümumimilli lideri H.Əliyevə həsr etdiyi bu kitabla tanışlıq belə bir fikir söyləməyə əsas verir ki, müəllif bu əsəri dahi rəhbərə xüsusi rəğbət və sonsuz ehtiram hissləri ilə, bu siyasət nəhənginin çoxşaxəli fəaliyyəti, şəxsiyyətinin nadir məziyyət və keyfiyyətləri barədə bilgilərini özünə məxsus bir dillə ifadə edə bilmişdir.

Onu da qeyd etmək vacibdir ki, doktor Adil Əl-Fəlahın Azərbaycan xalqının dahi oğlu, Ulu öndər H.Əliyevə həsr etdiyi bu kitab Azərbaycan-Küveyt dostluğuna layiqli bir tövhə kimi qiymətləndirilməlidir.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu

**Şeyxülislam ALLAHŞÜKÜR PAŞAZADƏ,**

tarix elmləri doktoru, professor.



"Təzə pir" məscidi.

# Giriş

Mən Qafqazla və keçmiş sovet regionları ilə 1991-ci ildən sovet imperiyası dağılandan sonra maraqlanmağa başladım. Hamımız bilirdik ki, həmin böyük ərazidə yaşayan müsəlman xalqları vaxtı ilə İslam mədəniyyətinə, dünya sivilizasiyasına böyük töhfələr vermişdir. İndi onların İslam dünyası ilə qırılmış əlaqələrini yenidən bərpa etmək və inkişaf etdirmək zərurət kimi qarşıya çıxırdı. Bu ehtiyacı nəzərə alaraq, biz 1993-cü ildən başlayaraq "İmam əl-Buxarinin övladları ilə mədəni əlaqələrin davamı" başlığı altında müxtəlif layihələr həyata keçirməyə başladıq. Məqsədimiz region xalqlarının istiqlaliyyətini, sadəcə, alqışlamaq deyildi, həm də bu müstəqilliyi qorumaq, möhkəmləndirmək, əvvəlki nüfuzlu mövqeyə qayıtmaları üçün onlara maddi və mənəvi yardım göstərmək idi. Əlbəttə, planlı fəaliyyət vacib idi və biz Beynəlxalq İslam Xeyriyyə Təşkilatına tabe olan Asiya Müsəlmanları Komitəsinin region respublikalarında nümayəndəliklərini yaratmaqla işimizə başladıq. Komitənin Azərbaycandakı nümayəndəliyi 1995-ci ildə rəsmi qeydiyyatdan keçdi. Biz yetim uşaqlara, aztəminatlı ailələrə, qaçqınlara yardım göstərmək, infrastrukturları, inkişaf layihələrini dəstəkləmək, universitetlərin müəllim və tələbələrini elmi ezamiyyətlərə göndərmək, yerli təşkilatlarla birgə müxtəlif konfranslar təşkil etmək və sair əhəmiyyətli tədbirləri həyata keçirməklə regionda yaşayan bacı və qardaşlarımızla əlaqə, ünsiyyət körpüsü yaratmağa nail olduq.

Bir çoxları kimi, mən də Azərbaycanın adını uzun illər ona rəhbərlik etmiş Heydər Əliyevin adı və əməlləri ilə bağlayıram. Qeyri-adi qabiliyyəti sayəsində o,

hələ dəhşətli sovet rejimi şəraitində ən yüksək dövlət vəzifələrinə irəli çəkilmişdi. Lakin sonralar özünün də etiraf etdiyi kimi, müsəlman olduğu üçün daima ayrı-seçkiliyə məruz qalmışdı. Ancaq məhrumiyyətlər nə qədər güclü olsa da, onun dini hisslərini aradan qaldıra bilməmişdi. Əksinə, müsəlman xalqlarının qarşılaşdığı təzyiqlər barədə düşünərkən o, böyük dinə, qədim ümmətə mənsubluğunun mahiyyətini daha dərindən duymuş, bu fərəhləndirici hiss onun bütünlükdə zehninə və ruhuna sirayət etmişdi. Heydər Əliyevi görənlər və tanıyanlar onun doğma dininə bağlılığını aşkar hiss edirdilər. Mən bu nadir şəxsiyyətlə dəfələrlə görüşmüşəm və hər dəfə də həmin təəssüratlarım daha da qüvvətlənmişdir.

Mən Azərbaycan xalqının bu böyük oğlunu ilk dəfə 1996-cı ildə, qaçqınlara və məcburi köçkünlərə yardım məqsədi ilə Asiya Müsəlmanları Komitəsinin ölkə Prezidentinin himayəsi altında Bakıda təşkil etdiyi Birinci Beynəlxalq konfransda görmüşəm. Cənab Prezident həmin konfransdakı nitqində demişdir:

"Bizim azərbaycanlılar, Azərbaycan müsəlmanları dinimiz üçün müqəddəs olan ziyarətgahları çox böyük arzu və istəklə ziyarət edirlər. Səudiyyə Ərəbistanının məliki, iki Müqəddəs Məscidin Xadiminin dəvəti ilə mən 1994-cü ildə bu ölkəyə rəsmi səfərə getmişdim. Biz müsəlmanlar üçün ən müqəddəs yerlər olan Məkkəni, Kəbəni, Mədinəni ziyarət etməyimi həyatımın ən xoşbəxt səhifələrindən biri hesab edirəm. Hesab edirəm ki, bu hissiyyatlar bizə bütün çətinliklərdən çıxmaqda kömək edib və bundan sonra da kömək edəcək".

Həmin vaxtdan bu parlaq insanı və ictimai xadimi müşahidə edərkən və dinləyərkən onun şəxsiyyətinin ucalığına, zəkasının dərinliyinə, siyasi müdrikliyinə heyranlığını daha da artmışdır. Axı, necə heyran olmayasan ki, indicə sitat gətirdiyim sözləri, bu qəbildən olan səmimi və mənalı mülahizələri ömrünün böyük bir hissəsini amansız sovet diktaturası şəraitində yaşamış və fəaliyyət göstərmiş siyasi rəhbərlərdən biri deyirdi. Kommunizm rejimi insanın, ümumiyyətlə, dinə bağlılığına, xüsusilə də, islam dininə bağlılığına sərt qadağa qoymuşdu. Ali rəhbər, mövqeyinə görə, həmin qadağaları içəridən və bütün qabarıqlığı ilə müşahidə edən, onun ağrı-acılarını qəlbinin dərinliklərində yaşadan bu siyasi xadim çox təsirli şəkildə öz dininə olan rəğbətindən və məhəbbətindən danışırdı. Bu sözlərin səmimiliyini və həqiqiliyini isə bütünlükdə onun ömür yolu və əməllərinin məğzi təsdiq edirdi. Məgər sovet hakimiyyəti illərində öz ölkəsini və xalqını yüksək, sürətli inkişaf mərhələsinə qaldıran Heydər Əliyev deyildimi?! Məgər Azərbaycanın bugünkü irəliləyişi üçün zəruri olan iqtisadi və mədəni potensialı vaxtı ilə Heydər Əliyev öz uzaqgörən fəaliyyəti ilə yaratmamışdımı?! Yox, o heç vaxt ötəri, keçici meyillərə uymamışdır, vətəninin, xalqının sabahını, gələcəyini düşünmüşdür. Elə buna görə, müstəqillik dövründə də, o, ölkəsinin siyasi sükanını məharətlə öz




Təntənəli andiçmə mərasimi.

qüdrətli əllərində tutmuş, Azərbaycanı parçalanma, vətəndaş müharibəsi kimi dəhşətli bəlalardan qurtarmış, xalqını xaosdan, hərcmərclikdən xilas edərək təminatlı sabitliyə, iqtisadi yüksəlişə qovuşdurmuşdur. Bütün bunlar isə siyasi liderin müdrikliyini, onun öz xalqı, torpağı ilə bağlılığını təsdiq edən ən ali ölçülərdir.

Mən Azərbaycan haqqında düşünərkən, burada elə səciyyəvi xüsusiyyətlər müşahidə etmşəm ki, bu xüsusiyyətlər onu qonşu dövlətlərdən, bütün islam aləmindən fərqləndirir. Həm də Azərbaycana hər yeni səfərim ümumi təəssüratımı daha da möhkəmləndirmişdir. Həmin səciyyəvi xüsusiyyətlərdən ən mühümü aşağıdakılardır:

**-Dini tolerantlıq:** bu ölkədə bütün dini konfessiyaların nümayəndələri qarşılıqlı anlaşma və dinc şəraitdə yaşayır və fəaliyyət göstərirlər: onlara münasibətdə hər hansı bir ayrı-seçkilik müşahidə edilmir. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal etmişdir, dinc insanları qətlə yetirmişdir, adamları öz yurd-yuvalarından didərgin salmışdır, ancaq bütün bunlara baxmayaraq, indi də Azərbaycanda 35 mindən artıq erməni hər hansı bir təzyiqə və təcavüzə məruz qalmadan rahat yaşayır. Təkcə, bu faktın özü Azərbaycan ölkəsinin, Azərbaycan xalqının sivil-mədəni səviyyəsini göstərən ən tutarlı misaldır.

**-Məzhəb tolerantlığı:** Azərbaycanda müxtəlif məzhəblər var, ancaq bu məzhəblər arasında toqquşma halları yoxdur. Halbuki, təəssüflə də olsa, etiraf etməliyəm ki, islam dünyası məzhəb ixtilafı, təriqət çəkişmələrindən çox əziyyət. çəkir. Azərbaycanda isə müasir dövlətin yaradıcısı Heydər Əliyevin dərin zəkası




Andiçmə zamanı.

və qətiyyətliliyi, eləcə də, dini liderlərin təcrübəliliyi həmin bəlanın qarşısına möhkəm, keçilməz sədd çəkmişdir.

**-Yüksək asayiş**: Siyasi sabitliyin bərqərar olduğu bu ölkədə insan özünü başqa ölkələrə nisbətən daha rahat və təhlükəsiz hiss edir. Məlumdur ki, Azərbaycan xalqı qonaqpərvərliyi ilə seçilir. Ölkədəki asayiş isə, xalqın qonaqpərvərlik hissləri, qonağa hədsiz hörmət və ehtiramı ilə birləşərək gözəl ünsiyyət ab-havası yaradır. Yeri gəlmişkən, deyim ki, bu xüsusiyyət ərəblərin adət-ənənələrinə də tamamilə uyğundur. Yəqin buna görə də, bizim üçün Azərbaycan xalqı arasında çoxlu dost-tanış əldə etmək elə bir çətinlik yaratmır.

**-Davranış, ünsiyyət mədəniyyəti**: Azərbaycanı gəzib-dolaşarkən, azərbaycanlılarla söhbət edərkən bu xalqın nəcib rəftarından mütəəssir olmamaq mümkün deyil. Azərbaycan tərəqqi etmiş ölkədir, Azərbaycan xalqı mədəni xalqdır. İntellekt yüksəkliyi, eləcə də, texniki tərəqqiyə cəhd, abadlığa meyil hər şeydə, hər yerdə özünü göstərir.

-**Hədsiz dözümlülük**: Azərbaycan xalqı hər cür çətinliyə dözməyi, məhrumiyyətlərə sinə gərməyi və təmkinlə davranmağı bacaran müdrik xalqdır. Sülhpərvərlik bu xalqın təbiətindədir. Dünyanı çalxalayan ixtilaf və çəkişmələrdən uzaq durmaq, inam, etimad doğuran münasibətlər yaratmaq bu xalqı səciyyələndirən maraqlı məziyyətdir. Azərbaycan həm Şərq, həm də Qərb ölkələri ilə sıx əlaqələr yaradır. Bu ölkə İslam dünyasının, İslam Konfransı Təşkilatının fəal üzvüdür, eyni zamanda, Avropa Şurasına qəbul edilmişdir. Azərbaycanın əlverişli



"Qara daş"ın önündə.

coğrafi mövqeyi də ona Şərq və Qərb mədəniyyətinin nailiyyətlərini özündə qovuşdurmağa imkan yaradır. Görürük ki, Şərq və Qərb sivilizasiyalarının dialoquna, qarşılıqlı inteqrasiyasına iki qitənin tən ortasında yerləşən bu ölkədə geniş imkanlar yaradılır. Bu qlobal strateji istiqamətin səmərəli bəhrəsini ölkənin siyasi mənzərəsindən tutmuş mədəniyyətinə, xalqın yaşayış tərzinəcən bütün sahələrdə müşahidə etmək mümkündür.

Heç şübhəsiz, bütün bu dini, mədəni-psixoloji, sosial-siyasi təmayülləri şərtləndirən, tarixən zəruri edən amillər çoxdur. Lakin xalqın və ölkənin başçısı Heydər Əliyevin müdrik fəaliyyətində parlaq təcəssümünü tapan dövlət təşkilatçılığı və siyasi iradə amilinin başlıca rolunu və əhəmiyyətini, əlbəttə, ayrıca qeyd etməliyik.

Həqiqətən, Azərbaycanda dövlət quruculuğunun mahir memarı Heydər Əliyev olmuşdur və bu gün Azərbaycan onun müəyyənləşdirdiyi istiqamət üzrə inkişaf edir.

Nəhayət, bir təəssüratımı da bölüşdürmək istəyirəm. Qafqazın bu gözəl, bərəkətli diyarı ilə çoxillik təmaslarım zamanı belə bir qənaətə gəlmişəm ki, bu ölkə, həqiqətən, mənim vətənim Küveytə bənzəyir və sanki, onunla əkizdir. Hər iki ölkənin ərazisi kiçik, təbii sərvətləri isə zəngindir. Allah onların hər ikisinə neft kimi böyük sərvət, dəniz kimi misilsiz gözəllik bəxş etmişdir. Hər iki ölkə işğalçılıq təcavüzünə məruz qalmış, vətəndaşları doğma torpaqdan qovulmaq əzabı ilə üzləşmişdir, ancaq bütün bu məhrumiyyətlərə, əziyyətlərə baxmayaraq, hər iki xalq qonaqpərvər, əliaçıq və səxavətlidir. Buna görə də, Azərbaycanın mənim ürəyimdə xüsusi yeri vardır. Mən bu ölkənin daha artıq tərəqqi etmə



Müqəddəs Kəbə evini ziyarət edərkən.

sini, çiçəklənməsini arzu edirəm, istəyirəm ki, bu xalq vətəninin bütövlüyünü təmin etsin, həmişə əmin-amanlıq içərisində yaşasın.

Azərbaycanı mənə sevdirən, həm də Heydər Əliyev olmuşdur. Mən müxtəlif konfranslarda zati-aliləri Prezident Heydər Əliyevi müşahidə etmişəm, onun müdrik çıxışlarını dinləmişəm, verdiyi göstəriş və təlimatları yüksək qiymətləndirmişəm, bunları gələcək nəsillər üçün də bir mayak, məşəl hesab etmişəm. Elə bu kitabın yaranması ideyası da həmin hisslərdən, həmin düşüncələrdən doğmuşdur. Heydər Əliyev kimi böyük və mürəkkəb həyat yolu keçmiş bir siyasi xadimin öz dininə bağlılığını qoruyub saxlaması, dini hisslərinin qabarıqlığı onun şəxsiyyətində məni ən çox cəlb edən məziyyətlərindəndir. Lakin bunun ən böyük dəyəri ondadır ki, həmin keyfiyyət onun dövlət başçısı kimi fəaliyyətinin də mühüm tərkib hissəsinə çevrilmişdir. O, Azərbaycanın İslam dininə, islami dəyərlərə qayıdışını düzgün istiqamətləndirmiş, ölkəsinin və xalqının İslam sivilizasiyasına mənsubluğunu qorumağın vacibliyini qətiyyətlə ifadə etmişdir. Zəmanəmizin ən təcrübəli dövlət xadimlərindən birinin bu istiqamətdəki hərtərəfli düşünülmüş və olduqca həssas fəaliyyəti sayəsində elə bir məktəbin, təcrübənin əsası qoyulmuşdur ki, biz ona uyğun çalışmaqla bu müdrik siyasi vəsiyyəti qorumalı və yaşatmalıyıq. Bu kitab həmin istəyin həyata keçirilməsi istiqamətində göstərilən səylərdən biridir. İstərdik ki, Heydər Əliyev məktəbi və təcrübəsi bütünlükdə İslam aləmi üçün də bir nümunə olsun.

İyirminci yüzillikdə dünyada iki fövqəl dövlətlərdən biri olan Sovet İttifaqının təhlükəsizlik orqanlarında və hakimiyyət sistemində yüksək məqam tutan



Müqəddəs Kəbə evini ziyarət edərkən.

Heydər Əliyev cənabları öz güclü xarizmatik xarakteri, mətanət və əzmkarlığı, möhkəm iradə və şəxsiyyət bütövlüyü ilə seçilən nadir dövlət xadimlərindən olub. Hələ 1984-cü ildə Fransanın "Fiqaro" qəzeti SSRİ-dəki iqtisadi-siyasi böhranı araşdıran geniş bir təhlilində bu ölkəni idarə edə biləcək liderlər arasında Heydər Əliyevin adını önə çəkərək qeyd edirdi ki, onun SSRİ-yə rəhbərlik etməsinə Kreml razılıq verməz, çünki o, müsəlman Azərbaycan Respublikasındandır.

Məlum olduğu kimi, nəhəng Sovet imperiyasının ideologiyasında sosialist şüarlarla yanaşı ateist təbliğat da xüsusi yer tuturdu və bu ideologiya əsas gücünü islamla mübarizəyə sərf edirdi. Heydər Əliyev həmin təbliğatın mahiyyət və hədəflərini yaxından izləyən və anlayan müsəlman Azərbaycan xalqının nümayəndəsi olaraq onun psixoloji ağırlığını öz içərisində yaşadan canlı bir şahiddir. 1990-cı ildə baş verən 20 Yanvar faciəsindən dərhal sonra sovet ordusunun Azərbaycan xalqına divan tutmasına etiraz edən və Kommunist Partiyasından istefa verən Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk ildə müqəddəs Mədinə və Məkkəni ziyarət etdi. Bunu isə, sadəcə, böyük bir siyasi xadimin, zəngin təcrübəsi olan dövlət adamının ömrünün ahıl çağında öz köklərinə qayıdışı kimi dəyərləndirməklə kifayətlənmək olmaz, bu eyni zamanda, Allahın hikməti və həqiqətin təntənəsi idi.

70 il SSRİ-nin hərbi-siyasi və təbliğat maşını ilə dondurulmuş ateizmin nəhəng buz dağı Haqqın bir anlıq ılıq nəfəsi ilə əriyib yox oldu. Allahın lütfü Heydər Əliyevin qəlbində kök salmışdı və tale onu bu ehsandan məhrum etmədi. O,



"Bibiheybət" məscidinin təməli qoyularkən.

1997-ci ildə Mədinə şəhərindəki Peyğəmbər məscidinin şərəf kitabına yazdığı ürək sözlərində öz duyğularını belə ifadə etmişdi:

"Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı, Allahın böyüklüyünü dərk etdim!"

Bu sözlər Allahın qüdrət və hikmətinin təsdiqi kimi səslənir. Allah sevdiyi bəndələrinə iman bəxş edər, səbr edənlərə müjdə verər, insanların qəlbində olanları bilər, istədiyi bəndəsinə isə hikmət, elm və mərifət bağışlayar. Qurani-Kərimin əl-Bəqərə surəsinin 284-cü ayəsində deyilir:

"*Göylərdə və Yerdə nə varsa, hamısı Allaha məxsusdur. Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da Allah onunla müvafiq sizinlə haqq-hesab çəkər. Allah istədiyini bağışlayar, istədiyinə də əzab verər. O, hər şeyə qadirdir'.*

Həmin surənin 269-cu ayəsində isə belə deyilir:

"*Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir. Bunu, ancaq ağıllı adamlar dərk edər".*

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin ilk illərində hakimiyyətə qayıdarkən bu müsəlman ölkəsi öz tarixinin mürəkkəb, çətin və ağır illərini yaşayırdı. Qafqazın əsas ölkəsi sayılan, öz zəngin enerji qaynaqları, coğrafi-siyasi



Xarici səfərdə.

mövqeyi və insan potensialı ilə seçilən bu gənc respublika aşağıdakı ciddi böhranlarla üzləşmişdi: xarici təcavüz və Qarabağ münaqişəsi, köhnə siyasi-ideoloji sistemin dağılması ilə ölkə daxilində hakimiyyət boşluğu və hərc-mərclik meyilləri, cəmiyyətin psixoloji durumunda müşahidə edilən ümidsizlik, inamsızlıq və çaşqınlıq, əxlaqi-mənəvi mühitdə baş verən qeyri-müəyyənlik, insanlarda və cəmiyyətdə özünəgüvənmə hisslərinin zəifləməsi. Belə bir məqamda, həm öz siyasi təcrübəsi və intellekti ilə xarici amillərin təsirini zəiflətməyə və neytrallaşdırmağa qadir olan, ölkədaxili ixtilafları və hərc-mərcliyi cilovlaya bilən qüdrətli dövlət xadimi, həm də cəmiyyətin inamını özünə qaytarmağı, burada Milli-mənəvi birlik mühiti yaratmağı bacaran müdrik el ağsaqqalına ehtiyac vardı. Heydər Əliyev, məhz ağır böhran şəraitində bütün lazımi siyasi, ictimai və mənəvi keyfiyyətləri özündə birləşdirən bütöv bir şəxsiyyət kimi Azərbaycan xalqının qabağına çıxaraq bütün sahələr üzrə düşünülmüş məntiqi ardıcıllıqla gərgin fəaliyyətə başladı.

Azərbaycan Respublikası Qafqaz məntəqəsində Avropa ilə Asiyanın, Qərb ilə Şərq mədəniyyətinin kəsişdiyi bir bölgədə yerləşdiyindən, beynəlxalq güc mərkəzlərinin və yaxın qonşuların maraq dairəsində olduğundan burada ölçülüb-biçilmiş və balanslı siyasət yürütmək lazım gəlirdi.

Yeni dünya düzənindəki vəziyyəti nəzərə alaraq, həm Qərb və Avropa ilə, həm də Rusiya, Yaxın Şərq və Asiya ölkələri ilə əlaqələr yaradan Azərbaycan rəhbəri ölkənin İslam dünyasının bir parçası olmasına xüsusi önəm verirdi. Uzun müddət Sovet Kommunist sistemində fəaliyyət göstərən Heydər Əliyev Şərq mentalitetini və Şərq dəyərlərini yaşadan, milli-mənəvi keyfiyyətlərə böyük




İslam Konfransı Təşkilatı ölkələri başçılarının 8-ci sammitində.

əhəmiyyət verən, eyni zamanda, müasir dünyada baş verən proseslərin nəbzini tutmaqla praqmatiq gerçəkliyi dərindən dərk edən bir şəxsiyyət idi. O, Azərbaycanı düçar olduğu ağır böhrandan çıxarmaq üçün balanslaşdırılmış siyasi gedişlər etməklə yanaşı, sovetlərdən sonra cəmiyyətin öz milli-mənəvi köklərinə qayıdışı üçün mühüm addımlar atdı. Ölkədə dini-mənəvi dəyərlərə və İslama münasibətin nəzəri əsaslarını irəli sürməklə yanaşı, onların təşəkkülü və inkişafı üçün əməli işlər görməyə başladı. Digər bir tərəfdən, Azərbaycan ilə Şərq ölkələri, xüsusilə ərəb və İslam dünyası arasında çoxsahəli əlaqələrin qurulması, genişlənməsi və möhkəmlənməsi üçün ictimai-siyasi, elmi-mədəni və mənəvi zəmin hazırladı.

Ümumiyyətlə, yeni tarixi şəraitdə Azərbaycanın qarşılaşdığı böhranlardan çıxaraq özünə güvənməsi üçün ümummilli dirçəliş konsepsiyasına böyük ehtiyac var idi. Bu ideologiya, həm milli adət-ənənələrə və dini-mənəvi dəyərlərə söykənməli, həm də Azərbaycanın çağdaş dünyaya qovuşmasını təmin etməli idi. Deməli, təzəcə müstəqilliyə qədəm qoyan ölkə dünyada gedən demokratiya, inkişaf və qloballaşma prosesindən geridə qalmamalı, həm milli mədəniyyətini və simasını, mənəvi özəlliyini yaşatmalı, həm də başqa mədəniyyət və dinlərlə dözümlülük şəraitində münasibət qurmalı idi. Bu olduqca çətin və həssas məsələnin düzgün həlli üçün düşünülmüş və ölçülüb-biçilmiş addımlar atılması tarixi zərurət kimi qarşıya qoyulmuşdu. Sovet ideologiyasının sürətlə çökməsindən sonra, Azərbaycan xalqının yenidən öz milli-mənəvi dəyərlərinə qayıdışı təbii bir prosesə çevrildi və burada İslam xüsusi bir yer tutdu. Ona görə Azərbaycanın



Səfərdən qayıdarkən.

Ümummilli Lideri ölkənin islamla münasibətini düzgün və sağlam müstəvidə həll etməyə girişdi. Bununla bağlı bir neçə məqamı ümumiləşdirmək olar:

1. İslam Azərbaycan xalqının dini etiqadı olmaqla milli mədəniyyətinin tərkib hissəsidir.
2. Din cəmiyyətin milli, əxlaqi və mənəvi bütövlüyünün önəmli amili kimi çıxış edir.
3. Müasir dövrdə dövlət-din münasibətlərinin düzgün tənzimlənməsinə ehtiyac duyulur.
4. Dinlər və xalqlar arasında anlaşma və dialoq yeni beynəlxalq şəraitin əsas tələblərindən biridir.

Ümumiyyətlə, islam Azərbaycan xalqının çox önəmli və zəngin milli-mənəvi atributu sayılırdı və bu ölkənin beynəlxalq aləmdə gerçək siyasi, iqtisadi müstəqilliyini qoruması, öz milli simasını və varlığını saxlaması üçün həmin zəngin xəzinəyə müraciət etməsi lazım gəlirdi. Heydər Əliyev bütün işlərdə olduğu kimi, burada da, həm məsələnin nəzəri cəhətlərini bilən, onu düzgün həyati məcraya istiqamətləndirən rəhbər, həm də onun icra mexanizmini tənzimləyən praktik bir dövlət xadimi kimi fəaliyyət göstərdi. Prezident dəfələrlə din xadimləri və ruhanilərlə görüşdü, məscid və ziyarətgahlara baş çəkdi, bütün dini mərasim və bayramlarda xalqa müraciət etdi, bir sıra mərasimlərdə özü iştirak etməklə camaatla və möminlərlə ünsiyyətə girdi. O, dini məsələlərə özünəxas bir maraqla, həssaslıqla yanaşırdı, hadisələrin seyirçisi yox, fəal iştirakçısı olaraq onun əsas istiqamətlərini müəyyənləşdirirdi. O, dinin, daha

doğrusu, İslamın müasir Azərbaycan cəmiyyətində tutduğu yeri açıb 22 göstərmək, məqsəd və məramını lüzumsuz yad ideoloji cərəyanların, qeyri-ənənəvi dini firqələrin və missioner

təşkilatların pozucu fəaliyyəti və təxribatlarının qarşısını almaq üçün ölkədə dini işləri tənzimləmək, dövlət-din, müasirlik-din münasibətlərini sağlam bir müstəvidə qurmaq üçün müdrik addımlar atdı. İslam mənəvi cəhətdən sağlam insanların və sağlam cəmiyyətin qaynağıdır. Sağlam cəmiyyət isə güclü və sarsılmaz dövlətçiliyin əsas sütunudur. Sağlam cəmiyyəti və güclü dövləti olan xalq bütün problemləri həll etməyə, öz işıqlı gələcəyini qurmağa, müasir dünyanın inkişaf və tərəqqi karvanına qoşulmağa qadirdir.

# I BÖLÜM

## SSRİ-NİN SÜQUTU,
## ATEİZMİN İFLASI VƏ YENİDƏN İSLAMA QAYIDIŞ

**Dinimizin yasaq edildiyi sovet dönəmində hər bir etiqadlı azərbaycanlı onu öz qəlbində gizlincə yaşatmışdır.**
**İndi isə müstəqil Azərbaycan Respublikası,**
**İslama etiqad edən azərbaycanlılar müsəlman aləminin və ümmətinin tərkib hissəsidir.**

**HEYDƏR ƏLİYEV**





Mingəçevirdəki "Heydər məscidi"nin açılışında.

Sovet İttifaqı dağılan kimi bu nəhəng kommunist imperiyasının ideoloji dayaqları, o cümlədən ateizm təbliğatı dərhal iflasa uğradı və onun sərt buxovlarından azad olan müsəlman respublikalarında yeni əlamətdar dövr-xalqların öz kökünə, eləcə də, öz dininə qayıdış dövrü, dalğası başlandı. Uzun illər idi ki, bu ölkələrdə müsəlman xalqları doğma dinindən uzaq salınmış, onlara zorla allahsızlıq, inamsızlıq təlqin edilir, insanlar yad mənəvi dəyərlər ruhunda tərbiyə edilirdilər. Lakin bütün bunlar xalqların dinə bağlılığını tam halda sarsıda, aradan qaldıra bilmirdi. Hədsiz təzyiqlərə sinə gərənlər dini hisslərini ürəklərində yaşadır, dini mərasimləri gizli icra edirdilər. Siyasi-ideoloji iqlimin kəskin yeniləşməsi, müstəqillik əldə edilməsi iqtisadiyyatdan tutmuş mənəviyyatacan bütün sahələrdə əsaslı dəyişikliklər doğurdu, tarixi yaddaşına, dini-əxlaqi dəyərlərinə qayıdış xalqların özlərini yenidən tanımasına və dərk etməsinə, bununla bağlı şəkildə həyatlarını ruhlarına uyğun təməl üzərində qurmasına imkan yaratdı. Lakin bütün bu yenidənqurma prosesi geniş, vüsətli olduğu qədər də çətin, mürəkkəb idi. Odur ki, həmin meylləri düzgün anlamaq və istiqamətləndirmək zəruri idi.

Bunları ağılla tənzimləməyin nə qədər vacib olduğunu Azərbaycanın timsalında xüsusilə yəqin etmək mümkündür. Azərbaycan müstəqilliyə qovuşmuşdu, burada, bayaq dediyimiz, ictimai-ideoloji dəyişikliklər özünü göstərmiş, yeni sosial-mənəvi əlamətlər formalaşmışdı. Lakin həmin proseslər əvvəllər burada daha ağır, daha çətin getmişdir. Respublikanın idarə olunmasında açıq-aşkar siyasi iradə və səriştəlilik çatışmır, nəticədə, ölkə sürətlə qarışıqlığa, xaosa doğru

sürüklənirdi. 90-cı illərin əvvəlində Azərbaycan dərin sosial-iqtisadi və mənəvi böhran içində idi. Bu ağır vəziyyətin yaranmasına əlavə amillər də ciddi təsir göstərmişdi. Başı bəlalar çəkmiş ölkə qonşuları tərəfindən yenə də (neçənçi dəfə!) ərazi iddiaları ilə üzləşmiş, müharibəyə cəlb olunmuş və torpaqlarının 20 faizini itirmişdi. Bir milyon azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüş, ümüdsizlik, hərc-mərclik cəmiyyəti caş-baş qoymuşdu.

Real vəziyyət belə acınacaqlı idi. Azərbaycanı bu bəlalardan, bu böhrandan çıxartmaq, özünə inam hissini, sabaha ümidini xalqa qaytarmaq lazım idi. Qarşıda duran, həlli vacib olan başlıca vəzifə bundan ibarət idi. Əks halda, xalq bir daha bu qədər həsrətlə gözlədiyi və sevinclə qarşıladığı müstəqilliyini itirə, bu dəfə ölkə tamamilə parcalana və dağıdıla bilərdi.

Belə dözülməz şəraitdə hakimiyyətə Heydər Əliyev yenidən qayıtdı. Azərbaycanda bu qayıdışı cox düzgün səciyyələndirdilər: O, xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıtdı! Bu isə o demək idi ki, Azərbaycanın bu fenomenal şəxsiyyətə kəskin ehtiyaçı var idi, zaman özü onu intixab etmişdi.

Heydər Əliyev sovet dövrünün ən təcrübəli, nüfuzlu dövlət xadimlərindən idi və Sovet hakimiyyət iyerarxiyasında zəngin təcrübə toplamışdı. O, kommunist-ateist ideologiyasının mahiyyət və məramını dərindən bilir, uzun illər Azərbaycana rəhbərlik etmiş və öz ölkəsini də, xalqını da yaxından tanıyırdı. Heydər Əliyev xeyli müddət SSRİ kimi nəhəng ölkənin başçılarından olmuşdu. Odur ki, Müstəqil Dövlətlər Birliyi məkanında da onun böyük hörməti və nüfuzu var idi. XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi bu nadir siyasi xadimi bütün dünya tanıyırdı, böyük siyasətçilər və ölkə başçıları ilə onun tanışlığı və şəxsi əlaqələri var idi. Respublikanı dünyanın yeniləşən geosiyasi mənzərəsinə cıxartmaq və tanıtmaq üçün bu amil də mühüm əhəmiyyət kəsb edirdi. Nəhayət, bir cəhəti də nəzərə almaq lazımdır ki, Heydər Əliyev, yalnız keçmişdəki böyük xidmətləri, əvvəlki siyasi təcrübəsi ilə seçilən dövlət xadimi deyildi, onda həm də yenilik hissi, müasirlik duyğusu çox qüvvətli idi. O, həmişə bu keyfiyyəti ilə də tanınmışdı. Elə onda da zamanın sürətlə dəyişilən ritmini həssaslıqla duydu, nəbzini vaxtında tutdu və qətiyyətli, müdrik addımlar atdı. 1990-cı il yanvarın 20-də Sovet qoşunları Bakıya hücum çəkib əliyalın, günahsız insanları kütləvi şəkildə qətlə yetirəndə çəkinmədən Sovet dövlətini və Kommunist Partiyasını kəskin şəkildə ittiham etməsi bütün dünyada əks-səda doğurdu. Onda Heydər Əliyevin Dövlət Təhlükəsizlik Orqanları tərəfindən nəzarətdə saxlandığını da yada salsaq, bu addımın onun üçün nə qədər təhlükəli olduğunu təsəvvür etmək olar. Lakin artıq heç bir təhdid-qorxu bu cəsarətli rəhbərin xalqının ağır vəziyyətində onunla bir səngərə girmək qərarının qarşısını ala bilməzdi. Bundan sonra Heydər Əliyev vətəni Naxçıvana gəlir, blokada

şəraitində çox ağır, çətin günlər yaşayan Naxçıvanı bacarıqla idarə edir. Bu balaca diyarın düşmən əlinə keçməsinə imkan vermir. Bu hadisə Heydər Əliyevin siyasi tərcümeyi-halında önəmli yer tutur. Ona görə ki, Naxçıvandakı fəaliyyəti onun siyasi təcrübəsinin tamamilə yeni şəraitdə ilk ciddi sınağı idi. Sonrakı dövrlərdə bu tarixi təcrübə, tükənməz potensial imkanlar çox sınaqlardan uğurla çıxacaq, məhz ayıq, çevik müasirlik duyğusu ilə qovuşduğu-nu, hazırki proseslərdən uzaqgörənliklə baş çıxarmaq bacarığı ilə tamamlandığını dəfələrlə nümayiş etdirəcəkdir. Lakin bunlar sonralar baş verəcəkdir. Onda isə...

Onda, yəni 90-cı illərin əvvəllərində vəziyyət getdikcə ağırlaşırdı. Buna uyğun olaraq, ziyalıların da nəzərləri ümidlə Heydər Əliyevə tərəf çevrilirdi. Başqa heç bir çıxış yolu yox idi. Heydər Əliyev fenomeninə Azərbaycanda alternativ tapmaq mümkün deyildi. Bunu, əslində, hamı görür və başa düşürdü. Heydər Əliyev də xalqının harayını, çağırışını cavabsız qoymadı: çiyinlərini ən ağır tarixi yükün altına verdi. İflas həddinə çatmış bir ölkəni dirçəltmək, ümid, inam hisslərini xalqa qaytarmaq - vətənə, xalqa ən böyük xidmət, ən böyük fədakarlıq idi. Burada ehtiyacla, tələbatla imkan və səylər uyğun gəlir, üst-üstə düşürdü. Xalq öz seçimində yanılmadı. Görünür, Allahın da nəzəri Azərbaycanın üstündə idi və dar ayaqda onu köməksiz qoymadı.

Heydər Əliyevin qarşısında bir-birindən böyük və çətin vəzifələr dururdu: hüquqi dövlətin, bazar iqtisadiyyatının, demokratik cəmiyyətin əsaslarını yaratmaq və inkişaf etdirmək. Lakin dövlət və cəmiyyət quruculuğu mədəniyyət və mənəviyyat quruculuğu ilə birləşməli, ahəngdarlıq təşkil etməli idi. Özü də kökə, tarixi yaddaşa söykənmək, özünəqayıdış bütün sahələrdə səylərin təməlinə çevrilməli idi. Heydər Əliyev beləcə əsl siyasi-ideoloji lider kimi ənənələri və müasir tələbləri özündə birləşdirən, xalqın mentalitet və psixologiyasına uyğun gələn yeni ölkə, yeni həyat quruculuğu konsepsiyasının, həm nəzəri-strateji, həm də əməli-taktiki problemlərini düzgün müəyyənləşdirməyi bacardı.

Dinə münasibətin aydın təzahürü, dini dəyərlərin əhəmiyyətinin dərindən anlaşılması dövrə, zamana həmin konseptual siyasi baxışın çox mühüm tərkib hissəsi kimi diqqəti cəkir. Bu bağlılıq, bu vəhdət-bütünlükdə konsepsiyanın dəyərliliyini və uğurunu təmin edəcək dərəcədə önəmlidir. Din həm milli mədəniyyətin, xalqın ruhi-mənəvi dəyərlərinin əsasını təşkil edir, həm də müasir həyatda ön mövqeyə keçir və həqiqət axtaran, inamla yaşamaq istəyən müasir insan getdikcə daha çox dinə tapınır. Müstəqilliyə qovuşandan sonra Azərbaycanda da dinə kütləvi qayıdış müşahidə edilir, hər cür yasaqlar, məhdudiyyətlər aradan qalxır, çoxlu məscidlər tikilir, dini mərasimlər geniş qeyd edilir, dini təhsilə meyl sürətlə artır. Bütün bunlar cox yaxşıdır, lakin həmin proses müəyyən cətinliklər, problemlər də doğururdu. Dinə qayıdış bəzən dəb kimi başa düşülürdü, halbuki, dəblə həqiqi inam, saf etiqad uyuşmur. İnam ruhi ehtiyacdan doğmalıdır. Buna



Şeyxülislama yüksək mükafat təqdim edilir.

görə də, dinə qayıdış dərin, əsaslı olduğu kimi, həm də səmimi olmalı, düzgün təməl üzərində qurulmalıdır. Əsas məqsəd budur və Heydər Əliyevin dinlə bağlı qayğı və düşüncələrinin də elə məzmununu bu amil müəyyənləşdirdi.

Müsitəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin ölkədəki prosesləri həmişə həssaslıqla izlədiyini, ən müxtəlif dini məsələlərin həllinə diqqətlə yanaşdığını görürük. Təsadüfi deyil ki, onun, istər əməli fəaliyyətində, istərsə də elmi nəzəri irsində dinlə bağlı tədbirlər, mülahizələr mühüm yer tutur. Ölkə başçısı və ümumiyyətlə, mütəfəkkir siyasətçi kimi o, həm tarixi, həm də müasir aspektdə dindən ardıcıl surətdə söhbət açmışdır. Onun dinlə bağlı həyata keçirdiyi mühüm əməli işlər və söylədiyi dərin fikirlər bir-biri ilə daxilən bağlanır, sözü ilə işi bir-birini tamamlayan böyük dövlət xadiminin fəaliyyətinin, düşüncələrinin mühüm bir sahəsini dolğun şəkildə göz önündə canlandırır.

Dindarlarla mütəmadi görüşlərdən tutmuş elmi müşavirələrəcən ən müxtəlif tədbirlərdəki söhbətlərində, çıxışlarında Heydər Əliyev dönə-dönə ən yaxın tarixi dövrün neqativ təcrübəsinə müraciət edir, Sovet dövlətinin dinə münasibətinin acı həqiqətlərini yada salır. Bundan məqsəd həmin yanlış siyasətin mahiyyətini açıb göstərmək, onun ibrətamizliyi üzərində bizi düşündürməkdir.

Heydər Əliyev həmin hadisəiərin canlı şahidi kimi danışır və bu, onun sözlərinin inandırıcılığını və təsirliliyini bir daha artırır. Sovet dövlətinin ateist ideologiyasının və xüsusilə İslam dininə qarşı yönəlmiş siyasətinin kəskin



Mir Mövsüm ağa ziyarətgahında.

tən tənqidinin həmin dövrün siyasi xadimlərindən birinin dilindən səslənməsi, yalnız böyük maraq doğurmur, eyni zamanda, bu səylərin iflasının labüdlüyünü daha dərindən anlamağa kömək edir. Çünki dövrün siyasi-ictimai mənzərəsinin təhlili iki ümumiləşdirici qənatə gəlməyə imkan yaradır: ateist təbliğatının iflasa uğramasının labüdlüyünü bir tərəfdən, sovet ideoloji siteminin, ümumiyyətlə, bəşərin təbii inkişaf prosesinə uyğun gəlməməsi ilə, digər tərəfdən də dini hisslərin yaşarlılığı, islam ruhi-mənəvi dəyərlərinin gücü ilə izah etmək olar.

Məlumdur ki, sovet ideologiyasında ateizm təbliğatı xüsusi yer tutur, elmi-texniki tərəqqinin yaratdığı geniş imkanlardan bəhrələnərək təkidlə Allaha etiqadsızlıq təlqin edilirdi. Lakin nə 70 il hökmranlıq edən ideologiya, nə də ateist dünyagörüşü Sovet dövlətini dağılmaqdan xilas edə bildi. Bunun səbəbləri haqqında dünyanın bir cox siyasətçiləri və mütəxəssisləri müxtəlif fikirlər söyləmişlər. Dərinləşən iqtisadi böhran və bunu müşayiət edən siyasi hərc-mərclik həmin süqutun əsas amilləri kimi irəli sürülmüşdür. Maraqlıdır ki, Heydər Əliyevin şərhlərində həmin amillərlə yanaşı, ideoloji sahələr də vurğulanır. Belə nəticəyə gəlmək olar ki, zahirən cox qüvvətli, möhtəşəm görünən sovet ideologiyası, əslində, saxta, çürük təmələ söykənirdi. Buna görə həmin ideologiyanın da, onun insanları haqq yolundan uzaqlaşdıran təbliğatının da məğlubiyyəti qaçılmaz idi və dünyanın altıda bir hissəsinə hökmranlıq edən dövlətin bir göz qırpımındaca çöküşünü Allahın cəzası kimi anlamaq mümkündür.

Heydər Əliyev hələ prezident seçilməzdən əvvəl 5 sentyabr 1993-cü ildə "Təzə Pir" məscidində Peyğəmbər əleyhissəlamın mövlud günü münasibəti ilə



"Təzə pir" məscidində möminlərlə görüş zamanı.

keçirilən mərasimdəki qısa çıxışında Azərbaycan xalqının bir müddət öz dinindən uzaq düşməsi səbəbləri, bunun acınacaqlı nəticələri üzərində dayanır və məsələyə, həm də qeyd etdiyimiz aspektdən yanaşırdı. Əlbəttə, Azərbaycan xalqının da, keçmiş SSRİ-nin tərkibində yaşayan digər müsəlman xalqlarının da öz dinindən təcrid olunmasının birbaşa səbəbkarı sovet siyasi-ideoloji sistemi idi və bu mülahizə Heydər Əliyevin təhlillərində həmişə ön plana cəkilirdi. Lakin həmin hadisəni, ehtimal şəklində olsa da, eyni zamanda, Allahın sınağı kimi mənalandırmaqla daha geniş dini-fəlsəfi düşüncələr müstəvisinə çıxardaraq deyirdi:

"Azərbaycan xalqı uzun müddət öz dinindən məhrum olmuşdur. Bu, əlbəttə, bizim üçün acınacaqlı bir haldır. Ancaq bu nə sizdən, nə də məndən asılı idi. Ola bilər ki, bu Allahın işidir. Və bu da bir imtahandır ki, görsünlər insan öz dinindən məhrum olandan sonra nə bəlalara düşür və öz dininə qayıdandan sonra nə qədər xoşbəxtlik əldə edir".

Məsələnin bu şəkildə qoyuluşu dini baxımdan da əsaslı görünür. Məlumdur ki, Qurani-Kərim Allahın öz bəndələrini müxtəlif vasitələrlə imtahana çəkdiyini dəfələrlə bizə bildirir. Məsələn, "*əl-Bəqərə*" surəsi, 155-157-ci ayələrdə müsibətlə üzləşən Allah bəndələri səbrə dəvət edilir, belə olduqda onları Rəbbi tərəfindən bağışlanması və rəhmət gözləyir. Düşünmək olar ki, görünür, Azərbaycan müsəlmanları da SSRİ-nin tərkibində (digər müsəlmanlar kimi) belə bir sınağa məruz qalmış, lakin Allahın rəğbəti yenidən onların öz dininə qayıtmasına fürsət vermişdir. Müxtəlif səbəblər üzündən öz dinindən uzaq düşənlər, adətən, böyük müsibət və məhrumiyyətlərlə üzləşir, lakin yenidən haqq yolunu tapıb Allaha



"Təzə pir" məscidində möminlərlə görüş zamanı.

doğru qayıdarkən onlar həqiqi xoşbəxtlik anlarını yaşayırlar.

Bunu Azərbaycanın timsalında da aydın görmək mümkündür. Müstəqillik dövründə yenidən öz dininə qovuşmaq imkanı əldə etməsi Azərbaycan müsəlmanlarında ruh yüksəkliyi, sevinc hissi doğurur. Buna görə də sovet ideologiyasının anti din və xüsusilə anti islam təbliğatından danışarkən Heydər Əliyev, mahiyyətinə dərindən bələd olduğu bu tarixçəni adətən dini-mənəvi dəyərlərə qayıdışın zəruriliyini və əhəmiyyətini vurğulamaqla tamamlayır. Müdrik və uzaqgörən siyasətçi kimi həmin prosesin indiki tarixi dönəmdə Azərbaycan cəmiyyətinin sağlam əsaslarla yenidən təşəkkülü və inkişafı, milli-mənəvi bütövlüyü və onda özünə güvənc psixologiyasının bərpası üçün önəmini müəyyənləşdirir.

Azərbaycan rəhbəri məruzə və çıxışlarında öz xalqının doğma dinindən zorla uzaq salınarkən keçirdiyi iztirabları daima yada salır. Bunda məqsəd, heç də, insanları təsirləndirmək və sarsıtmaq deyildi. Hərçənd ibrətamiz nəticələr üçün emosional-psixoloji yaşantıların da əhəmiyyəti az deyil. Ancaq məqsəd daha boyükdür: yaxın keçmişin acı həqiqətlərinin xatırlanması, bunların bir daha təkrar olunmasının mümkünsüzlüyünü açıqlamaq və şüurlara təlqin etmək naminə idi. Yəqin buna görə də 1-2 oktyabr 1998-ci il tarixdə Bakıda keçirilən "**Müasirlik və dini-mənəvi dəyərlər**" adlı Beynəlxalq konfransdakı geniş çıxışında Heydər Əliyev sovet hakimyyəti dövründə dinə qarşı aparılmış total və fasiləsiz mübarizənin üzərində ətraflı dayanmağı lazım bilir, həmin mübarizənin təkcə bir ölkəyə qarşı yox, nəticə etibarı ilə bütünlüklə bəşəriyyətə qarşı yönəldiyini bəyan edir:



Məsciddə.

"Məlumdur ki, biz 70 il kommunist ideologiyası ilə tərbiyələnərək dinimizdən və dinin bizə bəxş etdiyi mənəvi dəyərlərdən məhrum olmuşuq. Kommunist ideologiyasının bəşəriyyətə vurduğu zərbələrdən ən böyüyü 70 il ərzində dinə qarşı aparılmış təbliğat, xüsusən dinin qadağan olunması və təhrif edilməsi olmuşdur".

Sovet dövrü təcrübəsinin belə qlobal miqyasda dəyərdəndirilməsi və ümumiləşdirilməsi onun dəhşətli nəticələrinin bütün vüsəti və dərinliyi ilə dərkinə xidmət edirdi. Belə bir qiymətin dünya miqyaslı, nüfuzlu siyasətçi tərəfindən veilməsi isə onun başçılıq etdiyi ölkədə bunun hər hansı bir təzahürünün qeyri-mümkünlüyünün təminatı kimi də səslənirdi. Heydər Əliyevin öz xalqının taleyində, dövlətinin təşəkkülündə oynadığı böyük rolu nəzərə aldıqda isə onun sözlərinin doğurduğu təəssüratı Azərbaycanın bütün sonrakı rəhbərlərinə tapşırığı və tövsiyəsi kimi də mənalandırmaq olar.

Burada, yeri gəlmişkən, bir məqama da toxunmaq istəyirik. Sovet hakimiyyətinin dinlə amansız və aramsız mücadiləsi, heç şübhəsiz, sosializmin ictimai-ideoloji mahiyyətindən doğurdu. Lakin həmin təcrübə belə düşünməyə əsas verir ki, sovet ideologiyası dini nüfuzdan salmaqla öz rəhbərlərini bütləşdirmək üçün yol açmağa çalışırdı. Yəqin, elə buna görə də, sovet hakimiyyəti bu yolda ona mane olacaq ən başlıca qüvvəyə-ilahi dinlərə, xüsusilə, İslama qarşı amansız olmuşdur. Çünki İslam dini, Qurani-Kərim yalnız bir Qadir Allaha tapınmağı önə çəkməklə, hər cür bütpərəstlik meyllərini rədd etmişdir. İslamda insan Allahın bəndəsi olaraq təkcə Ona ibadət edir və Ondan yardım diləyir. "*əl-Fatihə*" surəsi: 5.



Maştağa məscidində.

Sovet ideologiyası birtərəfdən dini qadağan edirsə, başqa bir tərəfdən onu bütün vasitələrlə təhrif etməklə ictimaiyyətin gözündən salmağa çalışırdı. Heydər Əliyev bu məsələni də nəzərdən qaçırmır, sovet ateist təbliğatının acizliyini həm də bu amillə izah edirdi. O, Beynəlxalq konfransda sözünə davam edərək bütün səylərinə baxmayaraq, sovet sisteminin dini hisslər, islam həqiqətlərinin ucalığı qarşısında duruş gətirə bilmədiyini qeyd edir, həmin sistemin sürətlə çökməsini buna canlı misal çəkir:

"Ancaq, eyni zamanda, bu tarix onu da göstərir ki, din və o cümlədən bizim mənsub olduğumuz islam dini o qədər qüdrətə malikdir ki, heç bir ideologiya, heç bir hakimiyyət və heç bir hökmdar onunla bacara bilməz və 70 illik tarix də göstərir ki, bunu bacara bilməzdi".

Təqdirəlayiq bir haldır ki, İslamın mənəvi qüdrəti üzərində heç bir ideologiyanın, heç bir hakimiyyətin və heç bir hökmdarın qələbə çala bilməyəcəyini sıravi tarixçi və tədqiqatçı deyil, ömrünün əsas hissəsini sovet hakimiyyətinin yüksək pillələrində sınaqdan keçirən, olduqca təcrübəli və müdrik, uzaqgörən bir siyasi xadim deyirdi. Yaşanılan mənalı bir ömür qənaəti idi bu sözlər, çox inamla, qətiyyətlə səslənirdi və bu zaman duyulan məmnunluq hissi də olduqca təsirli idi.

Qurani-Kərim haqq din olan İslama qarşı bütün kafirlərin, müşriklərin və münafiqlərin həmişə çalışdıqlarını, lakin onların uğursuzluğa düçar olacaqlarını ilahi xəbərdarlıqla bütün bədxahlara bildirir. Allahın dininə qarşı olanlar bu nuru söndürməyə çalışsalar da bacarmazlar. "*ət-Tövbə*" surəsinin 32-ci ayəsində




Zəvvarlarla görüş.

deyilir:

"*Onlar Allahın nurunu (dəlillərini, islam dinini, Quranı) batil sözləri ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu (dinini) tamamlamaq istər*".

Azərbaycan lideri 9-11 dekabr 1998-ci ildə Bakıda keçirilən başqa bir toplantıda, "İslam sivilizasiyası Qafqazda" adlı Beynəlxalq konfransdakı çıxışında öz konkret müşahidələri və qənaətləri əsasında sovet siyasi-ideoloji sisteminin dinə qarşı yönəlmiş siyasətinin görünən və görünməyən tərəflərindən söhbət açır, bir daha həmin mübarizənin məğlubiyyətlə nəticələnməsinin qanunauyğunluğuna diqqəti cəlb edir, bu məğlubiyyəti dini hisslərin xalqın həyatına,mənəviyyatına atdığı rişələrin güclü və dərin olması ilə izah edir:

“Sovetlər İttifaqının mövcud olduğu 70 il ərzində onun ərazisində din yasaq, qadağan edilmiş, ateizm təbliğatı aparılmışdır. Dinə qarşı çox kəskin mübarizə aparılmış, allahsızlıq, dini inkar etmək o illərdə kommunist ideologiyasının əsasını təşkil etmişdir. Biz bu dövrü yaşamışıq və indi, Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra tarixi nöqteyi-nəzərdən qısa bir zamanda dinin, o cümlədən İslam dininin nə qədər dərin kökləri olduğunu daha da çox dərk etmiş oluruq".

Heydər Əliyev yaxın keçmişin tarixi təcrübəsinin obyektiv mənzərəsini rəsm edir, buna görə də onun təhlil və qiymətləri sərrast və inandırıcı səslənir. Ümumiyyətlə, bu mühakimələr fakta əsaslanması və məntiqi ardıcıllığı ilə seçilir.



Dini ədəbiyyat sərgisi ilə tanışlıq.

Daha sonra Heydər Əliyev deyir:

"Qısa bir zamanda məlum oldu ki, əgər Azərbaycanda kommunist ideologiyası 70 il yox, 170 il də hökm sürmüş olsaydı, insanları İslam dinindən ayırmaq mümkün olmayacaqdı. Bu artıq faktdır. Eyni zamanda, bu, İslam dininin nə qədər böyük gücə malik olduğunu sübut edir".

Beləcə, Heydər Əliyev münasib saydığı bütün məqamlardakı çıxışlarında islam dininin qüdrət və gücünü, yenilməzliyini dilə gətirir və təsdiqləyir. Heydər Əliyev İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətullah Seyid Əli Xamneyi ilə görüşündə demişdir:

"Xalqımızı 70 il ərzində İslam dinindən ayırmağa çalışıblar. Bilirsiniz ki, biz Sovetlər İttifaqının tərkibində ateist tərbiyəsi, təbliğatı altında yaşamışıq. Ancaq buna baxmayaraq, xalqımız öz dinindən heç vaxt ayrılmayıbdır, onu qəlbində, ürəyində saxlayıb və imkan olan kimi hər şey açılıbdır. Bu da dinimizin - İslam dininin nə qədər qüdrətə, gücə malik olduğunu bir daha göstərir".

Heydər Əliyev burada dini psixologiyanın mühüm bir məqamına toxunur, belə ki, insanın Allahla ünsiyyəti onun qəlbində yaranır. Qəlb Allah ilə bəndə arasında ünsiyyət yeridir. Qurana görə Allah insanın qəlbində olanları bilir ("*əl-Maidə*" surəsi, 7) Allah imanı qəlbdə yerləşdirir və qəlbi inamla zinətləndirir ("*əl-Hücurat* surəsi", 7) İslamda mömin bəndələrin qəlbi Allahın evi sayılır.

Sovetlər dövründə Kommunist Partiyası və siyasi hakimiyyətdə yüksək vəzifə tutan şəxslər dindar ola bilməzdilər. Bu gerçəkliyi yada salan Azərbaycan



Xatirə hədiyyəsi təqdim edilir.

rəhbəri onu da qeyd edir ki, o, heç vaxt Allahını unutmamış, Onu, etiqadını öz qəlbində daim yaşatmış və qoruyub saxlamışdır.

Heydər Əliyev Naxçıvanda tikilən məscidin açılışında söylədiyi geniş nitqində bu incə məsələyə toxunaraq bildirirdi ki, o, Sovetlər İttifaqında yüksək vəzifə tutmuşdu və bu sayaq vəzifəli şəxslər dindən uzaq olmalı idilər. Kommunist Partiyasında və siyasi hakimiyyətdə yüksək yer tutmasına baxmayaraq, Allah daim onun qəlbində olmuş, amma şəraitə görə bunu büruzə verə bilməmişdir. Bütün bunlar şəxsiyyətin daxilində iztirablar doğururdu. Azərbaycan rəhbəri tarixi həqiqəti etiraf etməklə, həm də həmin mənəvi-pisixoloji yaşantıları hiss etdirirdi. Bu yolla İslama qarşı aparılan qərəzli təbliğatın cəmiyyətə vurduğu mənəvi ziyana diqqəti yönəldirdi. Bu baxımdan onun 9-11 dekabr 1998-ci ildə Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" adlı Beynəlxalq konfransda söylədiyi fikirlər olduqca maraqlıdır:

"Sovet hakimiyyəti dövründə dünyaya gəlmiş, yaşamış nəsillər, bəlkə də, o vaxtkı güclü təbliğat nəticəsində dinin, bizim üçün isə,ələlxüsus, islam dininin bu qədər zəngin mənəvi dəyərlərə, bu qədər dərin köklərə malik olduğunu anlaya bilmirdilər. Biz özümüz də bunu anlaya bilmirdik. Mən bunu etiraf edirəm".

Azərbaycan rəhbərinin dedikləri bir neçə mühüm məsələni dövrün tarixi həqiqətləri səviyyəsində açıqlayır və ümumiləşdirir: birincisi, sovet ideoloji siyasi sistemi müsəlmanları öz dinindən, dinin zəngin mənəvi dəyərlərindən,



Şimali Qafqazın din xadimləri ilə.

islam maarifindən uzaq saxlayırdı, çünki bu dəyərlərin gücünü bildiyinə görə yəqin edirdi ki, cəmiyyətdə sovet ideologiyasının təsiri azalır, İslama meyil rəsmi ideologiyanı üstələyir. Heydər Əliyev təsdiq edir ki, bizi bu dəyərlərdən qəsdən uzaqlaşdırırdılar. Başqa bir tərəfdən, bolşeviklər dinə və xüsisilə, islama qarşı mübarizədə həm ideoloji-siyasi təbliğat vasitələrindən istifadə etməklə gerçək dini maarifin qarşısını alır və islam dəyərlərini təhrif edir, həm də zorakılıq yolu ilə dini təsisatları və məscidləri, müqəddəs ziyarət yerlərini məhv edir, onların yerinə anbar və bu tipli binalar tikirdilər. Hətta məscid və ziyarətgahları partladıb darmadağın etməkdən belə çəkinmirdilər. Bunda məqsəd isə dini atributları ictimaiyyətin və xüsusilə yeni nəslin şüurundan silmək olub. Azərbaycanın əksər bölgələrində məscidlər, minarələr sökülmüş, ümumi bina isə təsərrüfat işləri üçün istifadə edilmişdir. Yeni nəsil bunlardan xəbərsiz idi. Digər bir tərəfdən ruhanilər və dini şəxslər təqib edilirdi, hətta dindən uzaqlaşanlara allahsızlıq kitabçası kimi vəsiqə verilirdi. Təkcə Quran və islam maarifinə aid dini kitablar deyil, ərəb əlifbası ilə yazılmış çoxlu elmi, fəlsəfi, mühüm əhəmiyyət kəsb edən tarixi və ədəbi sərvətlər də məhv edilirdi. Əslində xalqın tarixi yaddaşının üstündən qələm çəkmək siyasəti yeridilirdi.

Heydər Əliyev çıxışlarında bu barədə acı təəssüf hissi ilə dönə-dönə danışır. "Bibiheybət" məscidini 1994-cü ildə ziyarət edərkən bu müqəddəs ocağın necə vəhşiliklə dağıdılmasını yada salır. Burada yeni bir məscidin tikilməsi barədə qərar verir. Bu məscid kompleksi 1998-ci ilin may ayında tikilib başa çatdı və Prezident həmin açılışda çıxış edərək bir daha göstərdi ki, nə fiziki

zor və məhvetmə, nə də siyasi-ideoloji təbliğat maşını insanların etiqadını sındıra bilmişdir.

Heydər Əliyev 1-2 oktyabr 1998-ci ildə Bakıda Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının keçirdiyi "**Müasirlik və dini-mənəvi dəyərlər**" adlı Beynəlxalq konfransda bu barədə bəhs edərək belə söyləmişdir:

"Təsəvvür edin, o yer müqəddəs yerdir. Orada 8-ci əsrdə həzrəti Hökümənin qəbri olmuşdur. İmam Rzanın bacısı həzrəti Hökümənin qəbri üzərində vaxtilə insanlar məscid qurmuşdular və ora ziyarətgaha çevrilmişdi. Ancaq o müqəddəs yer, müsəlmanların, tək Azərbaycandan yox, dünyanın bir çox yerlərindən gələn müsəlmanların ziyarət etdiyi müqqədəs ocaq 1933-cü ildə partladılmışdır, dağıdılmışdır. Məscidi partladıblar, dağıdıblar, yerlə yeksan ediblər, amma insanlar ayağını o yerdən çəkməyiblər. Həmişə "Bibiheybət" piri-bizdə ona pir deyirlər - müsəlmanların ziyarət yeri olubdur, müsəlmanlar gedib orada, o yerə öz ehtiramını bildiriblər, Allah yolunda nəzirlərini veriblər və o yeri yaşadıblar".

Heydər Əliyev həmin konfransda bu tipli başqa faktları da yada salır. Belə ki, Sovetlər zamanı İslama qarşı aparılan mübarizə nəticəsində yüzlərlə məscid və ziyarətgah məhv edilmişdi. Azərbaycan müstəqillik əldə edərkən ölkədə cəmi 18 məscid fəaliyyət göstərirdi. Lakin qısa bir vaxtda, yəni 7 il ərzində 1000-dən artıq məscid tikilmişdir. O, bu barədə sözlərini belə yekunlaşdırır:

"İndi Azərbaycanda 1000-dən artıq məscid var. Deməк, insanların hamısının qəlbində məscid intizarı, məscid arzusu (məscid Allah evidir) o qədər yaşayıb ki, qısa bir zamanda hökumətin, dövlətin heç bir köməyi, vəsaiti olmadan məscidlər tikilibdir. Bu mənim dediklərimə əyani sübutdur".

Prezident Sovetlər İttifaqının başqa bir antiislam siyasətini də diqqətə çatdırır. Belə ki, son vaxtlar burada yaşayan xalqların dini, milli-mənəvi özəlliklərini əritmək xətti həyata keçirilirdi. Onun dediklərinə görə "Sovet xalqı" məfhumu bu məqsədlə işlənilirdi, yəni hamı Sovet xalqı adlanırdı və bu yeni, qurama xalq insanların yeni qurama tarixi-ictimai birliyi kimi şüurlara hopdurulurdu.

# II BÖLÜM

# İKİLİ STANDART VƏ AYRI-SEÇKİLİK

**Əgər Ermənistan silahlı birləşmələrinin
işğal olunmuş Azərbaycan ərazisindən qeyd-şərtsiz
çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi
yerinə yetirilməmiş qalırsa, onda hansı ədalətdən danışmaq olar?**

**HEYDƏR ƏLİYEV**





"İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq simpoziumun iştirakçıları ilə

Sovet İttifaqının dinlə bağlı siyasətinin birinci tərəfi ateizm təbliğatı olmuşsa da, ikinci tərəfini müsəlmanlara qarşı ikili münasibət və ayrı-seçkilik təşkil etmişdir. Heydər Əliyev həmin məsələ ilə bağlı maraqlı faktlar gətirir və göstərir ki, sovet ideologiyası, əsasən, İslama qarşı yönəldilmişdi.

Dövlət başçısı 9-11 dekabr 1998-ci ildə "**İslam sivilizasiyası Qafqazda**" adlı Beynəlxalq konfransda çıxış edərkən sözü gedən məsələyə toxunaraq belə demişdir:

"Ancaq o illər kommunist ideologiyasında, ümumiyyətlə, dinə qarşı təbliğat aparıldığı zaman İslam dininin əleyhinə xüsusi təbliğat aparılırdı".

Heydər Əliyev daha sonra həmin dövrlərdə canlı şahidi olduğu proseslər barəsində düşüncələrini belə bölüşür:

"Bilirsiniz ki, o vaxtlar mən böyük bir dövlətin işləri ilə məşğul olurdum. Bəzən düşünürdüm: din dindir, nə üçün bir dinə müəyyən qədər loyal münasibət bəslənir, o biri dinə isə həddindən artıq düşmən münasibəti göstərilir? Bu, həqiqətdir".

Hər bir məsələyə bütöv, hərtərəfli yanaşan və hər bir hərəkətin məntiq və məqsədini dərindən araşdıran bu siyasi-ictimai xadim sovetlərin İslam və müsəlmanlara bu sayaq qərəzli mövqeyinin köklərini üzə çıxardır. İslama qarşı ikili münasibət və ayrı-seçkiliyin ictimai-siyasi, əxlaqi-mənəvi və psixoloji motivlərini göstərir. O, öz fikrini davam etdirərək məsələnin mahiyyətini belə açıqlayır:

"Mərkəzdə Kommunist Partiyası Mərkəzi Komitəsinin ateizm təbliğatında

İslam dininə qarşı təbliğat xüsusi bir istiqamət təşkil edir və bu, xususi nəzarət altında idi. Sovet hakimiyyəti dövründə belə bir təsəvvür yaranırdı ki, sovet quruluşuna təhlükə

törədən yalnız islam dinidir, xristian dini, yaxud sovetlər ölkəsində olan başqa dinlər bu quruluşa o qədər də təhlükə yaratmır".

Maraqlı cəhət burasındadır ki, Sovet İttifaqı Kommunist Partiyasının bir çox siyasi-ideoloji direktivləri gizli saxlanılırdı. Yəni, ümumi ateist təbliğatı bütün plenum və qurultay materiallarında əks olunur, respublika partiya komitələrinə müvafiq göstərişlər verilirdi. Ancaq rəsmi sənədlərdə İslama qarşı xüsusi təbliğat aparmaq açıq şəkildə yazılmırdı. Qapalı sovet sistemində bu sayaq məsələlər gizli göstərilir və tam məxfi qərarla həyata keçirilirdi. Həmin məxfi sənədlər isə partiya hakimiyyət iyerarxiyasında yüksək yer tutan tək-tək şəxslərə bəlli idi. Heydər Əliyev də Kommunist Partiyasının nüfuzlu şəxslərindən biri kimi belə gizli və sirli məsələlərdən xəbərdar idi və özü də bunu təsdiqləyir:

"Bunlar, o dövrdə mənim gözümlə gördüyüm və bir çox ideoloji sənədlərdə oxuduğum həqiqətlərdir ki, siza çatdırıram".

Doğrudur, bu deyilənlər barədə camaat arasında söz-söhbətlər dolaşırdı, lakin Prezident həmin hadisə və proseslərin canlı şahidi kimi tarixi gerçəkliyi indiki nəslə çatdıraraq öz fikirlərini belə tamamlayır:

"Kommunist ideologiyasında dinlərə münasibətdəki bu ayrı-seçkilik, dinləri bir-birindən fərqləndirmək xətti göstərirdi ki, demək, belə çıxır: din var-yaxşı dindir, din də var-çox pisdir, bu pis din də, guya, İslam dinidir".

Buradan bir neçə nəticə və həqiqət ortaya çıxır:

**Birincisi**, sovet hökuməti ateist təbliğatı adı altında əsasən İslamı məhv etməyə çalışıb.

**İkincisi**, İslam olduqca güclü ictimai-əxlaqi, dini və psixoloji-mənəvi qüdrətə malikdir, ona görə də kommunist ideoloqları İslamın gücündən qorxaraq onun ictimai şüurda özünə yer tutmasını əngəlləmişdilər.

**Üçüncüsü**, İslama qarşı ayrı-seçkilik siyasəti aparıldığını ictimaiyyət açıq və tam şəkildə olmasa da bilirdi.

İslama qarşı mənfi münasibət elmi-tədqiqat işlərində də özünə yer tutmuşdu. İslam mədəniyyəti haqqında elmi işlər əsasən mərkəzdə-Moskvada aparılırdı. Klassik irsi araşdıranlar dini mövzulardan yan keçir və ya burada təhriflərə yol verirdilər, hətta bir sıra müsəlman filosof, ədib və şairlərinin əsərlərində süni surətdə dinə qarşı yönələn motivlər axtarılırdı.

Maraqlı haldır ki, Qurani-Kərim sovet dövründə təkcə rus dilinə tərcümə edilmişdi, başqa müsəlman xalqları bu müqəddəs kitabı orijinalda, yaxud öz dillərin

də oxumaq imkanından məhrum edilmişdilər. Heydər Əliyev bu siyasətin səbəbini belə izah edir:

"Nə üçün Quran rus dilinə tərcümə olunmuşdu, ancaq Azərbaycan dilinə tərcümə edilməmişdi? Çünki Qurandan istifadə etməyi azərbaycanlılara qadağan edirdilər. Hesab edirdilər ki, Quran rus dilinə tərcümə olunubdur və güya xristianlar tərəfindən İslamı öyrənmək üçün lazımdır. Amma Quran Azərbaycan dilinə tərcümə olunsa, bu azərbaycanlıların İslam dininə meyilini artıracaqdır. İş burasında idi".

Buradan göründüyü kimi, sovet ideoloqları açıq-aşkar müsəlmanları öz dini-mənəvi qaynaqlarından məhrum etməyi başlıca məqsəd kimi qarşılarına qoymuşdular.

Heydər Əliyevin işarə etdiyi ayrı-seçkilik və ikili münasibət müasir tarixi dönəm üçün çox aktual məsələdir. Keçən yüzilliyin doxsanıncı illərində Ermənistanın təcavüzünə məruz qalmış, Qarabağla yanaşı onun ətrafındakı 7 rayonu, yəni 20 faiz torpağı ermənilər tərəfindən işğal edilmiş Azərbaycan, indi, təkcə Sovetlər İttifaqının "varisi" sayılan Rusiyanın deyil, həm də qərb ölkələrinin, ABŞ-ın bəzən bu məsələdə də ikili standartı ilə üzləşmişdir. Belə ki, onlar təcavüzkarı açıq pisləməkdən, onu Azərbaycan torpaqlarını boşaltmağa vadar etməkdən vaz keçir, hətta bu müsəlman ölkəsini qarşılıqlı güzəştlərə, əslində isə işğal faktı ilə barışmağa çağırırlar. Azərbaycanın ictimai fikrində bu sayaq ikili standartla bağlı artıq müəyyən bir baxış formalaşıb ki, bu məsələni ilk dəfə, olduqca tutarlı fakt və konkret dəlillərlə Heydər Əliyev gündəmə gətirmişdir. O, özünün çoxsaylı görüşlərində, ABŞ, Avropa, Asiya və Şərq ölkələrinin dövlət rəhbərləri, nüfuzlu nümayəndə heyətləri və diplomatlarla, Azərbaycan və Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun üzvləri ilə siyasi müzakirələrdə ikili standart siyasətini tənqid etmiş, məsələyə beynəlxalq hüquq normaları çərçivəsində yanaşmağı, Azərbaycanın haqlı mövqeyi ilə - yəni, ölkənin suverenliyi və ərazi bütövlüyünün təmin edilməsi ilə hesablaşmağı önə çəkmişdir. İslam dininə mənsub olan azərbaycanlılar beynəlxalq qüvvələrin onların torpaqlarını zəbt edənlərə göstərdiyi havadarlığı xristian təəssübkeşliyi və həmrəyliyinin təzahürü kimi qəbul edirlər. Sanki "sovetlər" zamanı İslama və müsəlmanlara qarşı yonələn qərəzli münasibət və ayrı-seçkilik müasir dövrdə başqa yöndə və yeni çalarlarla özünü büruzə verir.

Heydər Əliyev 10 dekabr 1997-ci ildə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin Tehranda keçirilmiş 8-ci Zirvə görüşündə çıxışında həmin təşkilatın Ermənistan tərəfindən Azərbaycana qarşı yönələn təcavüzkarlıq, qəsbkarlıq və işğalçılıq siyasətini pisləyən yeganə beynəlxalq qurum olduğunu




Qafqaz müsəlmanlarının X qurultayında.

önə çəkmiş, Azərbaycan xalqına siyasi- diplomatik, maddi və mənəvi dəstək verdiyinə görə bu təşkilata təşəkkür etmişdir.

O, çıxışının bir yerində belə söyləmişdir:

"Azərbaycan xalqının müsəlman dövlətlərinin həmrəyliyinə, mənəvi və maddi köməyinə böyük ehtiyacı vardır. İşğalçı Ermənistan öz diasporalarının köməyi ilə həm Amerikadan, həm Avropadan, həm də Rusiyadan mənəvi, siyasi, iqtisadi, hərbi dəstək alır".

Azərbaycan Prezidenti XX əsrin sonu XXI yüzilliyin başlanğıcında Yer üzərində, həm də dini zəmində münaqişə və düşmənçiliyin davam etdiyini acı bir həqiqət kimi söyləyir və bunun yolverilməz olduğunu qeyd edir. Prezident Heydər Əliyev "**İslam sivilizasiyası Qafqazda**" adlı beynəlxalq konfransda deyirdi:

"Dini nöqteyi-nəzərdən ədavət, münaqişə, müharibə yol verilməzdir. Hər haldaXX əsrin sonunda və qarşıdan gələn XXI əsrdə dünyada belə hallara son qoyulmalıdır. Bu baxımdan biz çox ürək ağrısı ilə deyirik ki, on il bundan öncə Ermənistanın Azərbaycana torpaq iddiası əsasında başladığı hərbi təcavüz böyük müharibəyə, hərbi münaqişəyə çevrilibdir. Bunun nəticəsində indi Ermənistan adlanan ərazidən islam dininə mənsub olan azərbaycanlılar zorla çıxarılıblar".

Heydər Əliyev həqiqəti deməkdən çəkinməyən şəxsiyyətdir və Qafqaz gerçəkliklərindən bəhs edərkən buradakı proseslərin keçmişini və bu gününü




"Qurani - Kərim" hafizlərinin mükafatlandırılması.

müqayisə edir və müsəlman olan azərbaycanlılara qarşı edilən haqsızlıqları önə çəkir. O, Qafqaz konfransı iştirakçıları ilə keçirilən görüşdə belə söyləmişdir:

"Qafqazda indi üç müstəqil dövlət var-Azərbaycan, Gürcüstan və Ermənistan. Gürcüstanda 500 min azərbaycanlı müsəlman, bundan başqa isə acarlar və qeyriləri yaşayırlar. Ermənistan adlanan ərazidə qədim zamanlardan azərbaycanlılar, müsəlmanlar yaşamışlar. Qərbi Azərbaycan -İrəvan, Göyçə, Zəngibasar, Vedibasar və Zəngəzur mahalları - bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olublar. Təəssüf ki, bu ərazilərdən müsəlmanlar çıxarılıblar. Əgər Qafqazda İslam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır".

Dünya miqyasında nüfuzlu siyasətçi bu sayaq məsələlərin qoyuluşunda, təkcə Azərbaycan və Qafqazla məhdudlaşmır, beynəlxalq aləmdə və qloballaşan dünya düzənində ikili standartın təzahürlərini aydın faktlarla nəzərə çatdırır, ayrı-seçkilik və ədalətsizliyi beynəlxalq təhlükəsizliyin başlıca əngəllərindən hesab edir. O, eyni zamanda, son vaxtlar dünyada İslama və müsəlmanlara qarşı yönələn mənfi təbliğat metodlarını kəskinliklə və tutarlı dəlillərlə rədd edir, bunun yol verilməz olduğunu bildirir.

Heydər Əliyevin bu məsələdə tutduğu mövqe çox aydın və məntiqlidir. Burada diqqəti cəlb edən önəmli məqam isə bir sıra dairələrin islama qarşı apardığı təbliğatda "*fundamentalizim*", "*ekstremizm*" və "*fanatizm*" kimi mənfi məna



İranın Ali dini rəhbəri Ayətullah Seyyid Əli Xamneyi ilə söhbət edərkən.

daşıyan məfhumlardan bəhrələnməsidir. O, belə fikirlərin son vaxtlar geniş yayıldığını da nəzərdən qaçırmır:

"İndi dünyadakı bəzi mərkəzlərdə "islam fundamentalizmi, islam ekstremizmi və fanatizmi" haqqında fikirlər söylənilir. Hesab edirəm ki, bizim müqəddəs kitabımız Qurani-Şərif heç vaxt fundamentalizmin əsasını qoymayıbdır. Biz islam mədəniyyətini, islam mənəvi dəyərlərini müqqədəs kitabımız Qurani-Kərimdə olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır".

Bu müdrik və uzaqgörən şəxsiyyət İslama qarşı yönələn ittihamların arxasında hansı siyasi-ideoloji hədəflərin gizləndiyini çox yaxşı dərk edirdi. Bəlli olduğu kimi, bu sayaq təbliğat son 20-30 ildə daha geniş miqyasda, daha doğrusu, qlobal səviyyədə aparılırdı. İslam dünyasında müşahidə edilən siyasi-ideoloji oyanış və öz haqqı yolunda mübarizə cəhdləri müstəmləkəçilik niyyətlərindən əl çəkmək fikrində olmayan bir sıra dairələri ciddi düşündürürdü. Eyni zamanda, bir çox müsəlman ölkələrində xalqın özünə güvənc psixologiyasının və milli özünü dərk şüurunun təşəkkülündə islam amili böyük rol oynayırdı. Bunlarla yanaşı, İslam bir çox Şərq, Afrika və Asiya ölkələri arasında yaxınlaşma və birliyin möhkəmlənməsində mühüm tənzimləyici kimi çıxış edirdi. Ona görə də, Şərq və İslam sivilizasiyasına qarşı qərəzli mövqe nümayiş etdirən dairələr belə bir mənfi təbliğata əl atmaqla beynəlxalq aləmdə müsəlmanlar əleyhinə mənfi ictimai rəy formalaşdırmaq istəyirlər.



"İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq simpoziumda.

Azərbaycan rəhbəri bu məsələdə çox prinsipial və qətiyyətli bir mövqe nümayiş etdirdi və öz fikirlərini əsaslandırmaq üçün Qurani-Kərimə istinad etdi. Belə ki, müsəlmanların müqəddəs kitabında heç vaxt fundamentalizm məsələsi olmayıb. Deməli, İslama iftira və böhtan atılır. O, eyni zamanda vurğuladı ki, islam dəyərləri və mədəniyyəti dedikdə Qurani-Kərimin gətirdiyi dəyərlər və mədəniyyət nəzərdə tutulur. Kimsə bunları təhrif edib öz subyektiv, qərəzli niyyətləri baxımından başqa səmtə yozursa, Qurana iftira atırsa, günah işlətmiş olur.

Allah-təala Qurani-Kərimdə buyurur:

"*Verdiyimiz kitabı layiqincə (təhrif etmədən) oxuyanlar həmin kitaba iman gətirənlərdir, onu inkar edənlər (dəyişdirənlər) isə dünyada və axirətdə özlərinə zərər yetirənlərdir" (əl-Bəqərə, 21).*

2001-ci il 11 sentyabr hadisələrindən sonra İslama qarşı ittihamlar daha da gücləndi və müsəlmanların heysiyyətinə toxunan terrorizm məfhumu siyasi təbliğat dövriyyəsinə buraxıldı. Bu məsələdə də Azərbaycan Prezidenti öz ardıcıl və elmi-dini əsaslara söykənən mövqeyini bəyan etdi və bildirdi ki, İslam ilə terrorizm bir araya sığan məfhumlar deyil, əksinə, İslam və Quran hər sayaq zorakılığı, haqsızlığı rədd edir. O, bir daha dünyada və hətta beynəlxalq aləmdə müsəlmanlara qarşı yönələn ikili münasibəti pislədi. Azərbaycan İslam dünyasının bir parçası olduğuna görə ona qarşı irəli sürülən əsassız ittihamları rədd etməli oldu. Bakıda bir neçə elmi konfrans, seminar və dəyirmi masa təşkil edildi. Həmin tədbirlərdə ziyalılar və ilahiyyatçılar, siyasətçilər və qələm sahibləri islam

sivilizasiyasının sülh, əmin-amanlıq, ədalət və ümumbəşəri dəyərlər qaynağı olduğunu önə çəkdilər. Bütün bu sayaq tədbirlərin əsasında Heydər Əliyevin konseptual tezisləri

dayanırdı. O, hələ öncələr və dəfələrlə Azərbaycanın etnik separatizm və terrorizmlə üzləşdiyini, lakin beynəlxalq qurumların bu məsələyə biganə yanaşdığını bəyan etmişdi. Azərbaycan rəhbəri terrorizm və zorakılıq məsələsində ikili standartın yol verilməz olduğunu təkidlə vurğulayırdı. O, bir sıra xarici qurumların Azərbaycanda insan haqları və demokratiya barəsindəki iradlarını həmin ikili standart müstəvisindən izah edərək, məsələyə obyektiv, hərtərəfli və prinsipial şəkildə yanaşılmasının zəruriliyini önə çəkirdi. Onun qoyduğu məntiqi sualın qarşısında çox vaxt beynəlxalq institutların nümayəndələri susmağa məcbur olurdu. Heydər Əliyevin, əgər söhbət insan haqlarından gedirsə, nə üçün bu və ya digər təşkilat və qurumlar öz yurd-yuvasından zorla didərgin salınmış bir milyon azərbaycanlının-müsəlmanın haqqının tapdandığını görmür, onların hüquqlarının təmin edilməsi üçün yetərli bir iş görmür? - sualı cavabsız qalırdı. O, öz xalqının, öz millətinin haqqını ardıcıl surətdə qorumaqla yanaşı, İslam dünyasına qarşı edilən haqsızlıqları və yürüdülən ikili siyasəti də pisləyirdi.

# III BÖLÜM

# İSLAM
# ƏXLAQI-MƏNƏVİ DƏYƏRLƏR QAYNAĞI KİMİ

***Müstəqil Azərbaycan dövlətinin həyatında çox əlamətdar hadisədir ki, xalqımız dininə öz münasibətini sərbəst ifadə edir və uzun illərin həsrətindən sonra ölkəmizin istənilən vətəndaşı tamamilə sərbəst olaraq İslam aləminin müqəddəs yerlərini ziyarət edə bilir.***

**HEYDƏR ƏLİYEV**





Kitabın müəllifi ilə görüş.

İslam dünyanın zəngin və mükəmməl sivilizasiya modeli kimi tanınır və İslam bəşər tarixində öz tükənməz əxlaqı-mənəvi dəyərləri baxımından seçilir. Bütün dünya dinlərində, xristianlıq və buddizmdə insanın əxlaqi təkamülü önəmli yer tutur. Bu baxımdan İslam daha geniş və önəmli məsələləri ehtiva edir, insan şəxsiyyətinin ləyaqət və şərafətini önə çəkməklə ümumbəşəri ideyaları təbliğ edir. Dünyanın böyük tarixi şəxsiyyətləri, qeyri-müsəlman olan filosoflar, alimlər və ilahiyyatçılar İslamı böyük insanlıq və əxlaq məktəbi adlandırmışlar. İstər fərdi əxlaqi keyfiyyətlərin tərbiyəsində və ev-ailə münasibətlərinin tənzimlənməsində, istərsə də əxlaqi-mənəvi baxımdan sağlam cəmiyyətin təşəkkülündə İslamın böyük əhəmiyyəti vardır. Quran və Peyğəmbər (s) sünnətindən qaynaqlanan İslam əxlaqı öz bütövlüyü, kamilliyi və gözəlliyi ilə əksər ideoloji məktəblərdən üstündür. İslam əxlaq məktəbi minillik tarixi sınaqlardan keçmiş, çoxsaylı siyasi-ideoloji və psixoloji hücumlara məruz qalmış, fiziki və mənəvi zorakılıqlarla üzləşmiş, lakin yenə də zamanla səsləşən ədalətli və sağlam bir əxlaqi-mənəvi model olmaqla yaşamını davam etdirmişdir. Sovet əxlaq məktəbi siyasi-ideoloji qüdrətinə, ictimai-sosial dayaqlarına, güclü xəfiyyə-təhlükəsizlik sisteminə və total təbliğat maşınına baxmayaraq, tezliklə iflasa uğradı və SSRİ-nin çökməsi, eyni zamanda, onun formal əxlaqi ideallarının da ictimai şüurdan silinməsi ilə tamamlandı. Tarix boyu bütün mədəniyyət və sivilizasiyalar üçün ən ümdə məsələ insanların fərdi əxlaqi-mənəvi keyfiyyətləri və onların yaşadığı cəmiyyətlərin doğurduğu mühitin nə dərəcədə sağlam olmasıdır. Rifah və əmin-amanlıqda yaşamaq bəşəri həmişə düşündürür. İnsanlar öz həyati tələbat

larını ödəmək üçün yeni-yeni ixtiralar etmiş, iqtisadi və texniki tərəqqi sahəsində böyük nailiyyətlər qazanmışlar. Müasir dünya ilə orta əsrləri və bir qədər də qədim keçmişi

müqayisə etsək, bəşəriyyətin hansı inkişaf zirvələrinə yüksəldiyini çox asanlıqla anlaya bilərik.

Bu yüksəliş və inkişaf məişətdən və sosial vəziyyətdən tutmuş ictimai institutlara, siyasi hakimiyyət formalarına qədər və fərdi həyatın bütün sahələrini əhatə edir. Bütün bu inkişafa baxmayaraq, bəşəriyyət əxlaqi-mənəvi yönümdə böyük çətinliklərlə üzləşib. Belə bir paradoksal vəziyyət ortaya çıxır: heç bir maddi və elmi-texnoloji tərəqqi cəmiyyətin və insanların əxlaqi mənəvi sağlamlığını təmin edə bilmir. Ayrı-ayrı cəmiyyətlərdə təbliğ olunan qanunlar və cəza tədbirləri də insanları pis əməldən çəkindirə bilmir. Ancaq batini saflıq və vicdani məsuliyyət insanı belə əməllərdən çəkindirir. İslamda insanın məsuliyyəti təkcə başqa insanlar, cəmiyyət və hökumət qarşısında cavab verməklə bitmir, o, eyni zamanda, haqqın ədalət divanında cavab verməli olur. Deməli, bəşər cəmiyyətdə və dünyəvi həyatda maddi məsuliyyət daşıyırsa, Allah qarşısında da mənəvi məsuliyyət daşıyır. Quran və İslam bəşər həyatını maddi dünya ilə məhdudlaşdırmır, onun üçün daha önəmli olan, insanın başqa varlıqlardan üstünlüyünü şərtləndirən əqli-mənəvi həyatın olduğunu təsdiqləyir. Həmin əqli-mənəvi yaşam insan qəlbini maddi həvəslərin törətdiyi fəsadlardan qoruya bilir. İnsan nəfsinin tələbləri tükənmir, o, öz ehtiyaclarından milyon qat artıq maddi-iqtisadi imtiyazlar əldə etsə də, nəfs onu yenə daha çox qazanc toplamaq üçün qeyri-əxlaqi vasitələrə əl atmağa vadar edir. İslam mədəniyyətində bəşərin nəfsi sağlamlığı önə çəkilir, bunun üçün nəfsi istəkləri öldürmək yox, onları mötədil şəkildə tərbiyələndirmək lazım gəlir. Bəzən İslama qarşı qərəzli münasibət bəsləyənlər belə iddia edirlər ki, guya İslam insanları maddi-iqtisadi inkişafdan və dünya həyatından məhrum edir. Bu yanlış düşüncədir. Quran və Peyğəmbər sünnəti bütün insanları Allahın yaratdığı halal və təmiz nemətlərdən bəhrələnməyə, dünya həyatından öz payını götürməyə dəvət edir. Lakin burada çox önəmli bir xəbərdarlıq zəngi çalınır: bəşər hər bir məsələdə ölçü və həddi gözləməli, başqalarının haqqına təcavüz etməkdən çəkinməli, əldə etdiyi qazancla çarəsizlərə, kimsəsizlərə yardım etməli, Allahın ədalət qanununu pozmamalıdır.

Qərbin bir sıra ideoloji-psixoloji cərəyanları insanın öz maddi-dünyəvi istəklərinə çatması üçün heç bir hədd-hüdud tanımır, bunun üçün hər bir vasitədən, hətta qeyri-əxlaqi yollardan istifadə etməyi zəruri sayır. İslamda isə bir şey əldə etmək üçün əxlaqi-mənəvi meyarları gözləmək, kimsənin haqqına toxunmamaq tövsiyə edilir.

İslamda insan hər hansı bir əməli edərkən onun qarşısında, təkcə polisin, hakimin və hökmdarın qadağaları deyil, həm də Allahın və vicdanın səddi

dayanır. Nəfs insanı polis və hakim qarşısında yalan danışmağa vadar edir, ancaq haqqın dərgahında belə yalana yer yoxdur.

Hər bir dini təlimin başlıca vəzifəsi insanları bəyənilmiş dəyərlərlə tərbiyələndirməkdir. İslam bu yöndə özəlliklə seçilir. Peyğəmbərimiz Həzrəti Məhəmməd (s) bəşər qarşısında öz missiyasını belə bir yığcam ifadə ilə açıqlayıb:

"*Mən bəşər əxlaqını kəramətləndirmək və şərafətləndirmək üçün göndərilmişəm*".

Qurani-Kərimin bütün ayələri Allahın hikmət, qüdrət və elm nişanələri olmaqla bir hədəf vurğulayır: bu ayələr bəşəri düz-doğru yola, yüksək mənəviyyata hidayət edir. İslam və Quran əzəmətli insaniyyət və əxlaqi-mənəvi dəyərlər xəzinəsidir, ən yüksək ədalət məktəbidir: Hər kəs öz əməlinə görə cavabdehdir ("*əl-Bəqərə*", 134, 139), hər kəsin qazandığı günahı özünə aiddir ("*ən-Nisa*", 111, "*əl-Ənam*", 164).

İslam əxlaqı insanları yaxşı işlərə (saleh əmələ) dəvət edir, pis işlərdən çəkindirir, insan şəxsiyyətini şərəfləndirir, ona səbr, dözüm, mətanət, səxavət, təvazökarlıq, başqalarının dərdlərinə şərik olmaq, abır-həya, namus, qeyrət, şücaət, mərdlik, bağışlamaq kimi keyfiyyətlər aşılayır. İslam yüksək bəşəri əxlaqi-mənəvi və insani dəyərlərinə görə Ərəbistan yarımadası ilə məhdudlaşmadı, Qərbdə İspaniyaya qədər, Şərqdə Filippinədək yayıldı, Avropaya və Amerikaya yol açdı.

Heydər Əliyev məhz İslamın əxlaqi-mənəvi dəyərlərinin nə qədər yüksək, bəşəri və kamil olduğunu nəzərə alaraq xalqının həmin dəyərlərdən faydalanmasını zəruri sayırdı. O, çox yaxşı bilirdi ki, İslam azərbaycanlıların ruhi-mənəvi bütövləşməsində mühüm rol oynamış, oynamaqdadır və oynayacaqdır. Azərbaycan rəhbəri İslamı milli mədəniyyətin ayrılmaz tərkib hissəsi saymışdır.

O, ölkəsinin müstəqilliyinin ilk illərində sovet ideologiyasının iflasından sonra İslama qayıdışın ümumi istiqamətlərini göstərdi. 5 sentyabr 1993-cü ildə "Təzə pir" məscidində Peyğəmbər əleyhissəlamın mövlud günü münasibətilə etdiyi çıxışında belə söylədi:

"İslam Azərbaycan xalqının, bütün İslam aləminə mənsub olan insanların və məxluqun ən yüksək mənəviyyat mənbəyidir".

Bu tezisdə İslamın ümumbəşəri mənəvi əhəmiyyəti önə çəkilir, yəni bu mədəniyyət təkcə azərbaycanlılar və başqa müsəlmanlar üçün deyil, bütün bəşəriyyət üçün yüksək mənəvi dəyərlər xəzinəsi hesab edilir. Azərbaycan İslam aləminin, İslam dünyası isə bütün bəşəriyyətin bir parçasıdır və bunlar arasında üzvi bağlılıq vardır. Məsələyə qlobal yanaşsaq, görərik ki, Heydər Əliyev islam mənəviyyatını bütün bəşəriyyət üçün nümunə sayır.



Gürcüstanın katolikos-patriarxı II İliya ilə birlikdə.

Heydər Əliyev, "**Müasirlik və milli-mənəvi dəyərlər**" adlı konfransda qeyd edir ki, bütün dünyəvi dinlər yüksək mənəvi dəyərləri təbliğ edirlər. O da məlumdur ki, bəşər tarixində insanlar öz adət-ənənələrini və cəmiyyətdə yaranan davranış qanun-qaydalarını, əsasən, dini dəyərlərdən, dinin insanlara bəxş etdiyi keyfiyyətlərdən götürüblər.

Burada çox əhəmiyyətli bir məsələyə aydınlıq gətirilir. Belə ki, bir sıra dünyəvi mədəniyyətlərdə əsas əxlaqi qayda-qanunlar dini köklərə malikdir. Din öz mahiyyəti etibarilə insanların inanc dünyası ilə bağlı məsələləri formallaşdıran bir mənəvi təlimdir. İnancın əsas hədəfi insanda Allaha inam yaratmaqdır. Dini ayinlər və ibadətlər də bu məqsədlə icra edilir. İmanlı olmaq, Allaha iman gətirmək insana başqa bir fəzilət bəxş edir ki, bu da əxlaq və mənəviyyatdır. Həmin prinsiplər ailədə və cəmiyyətdə əxlaqi qanun-qaydalar şəklində formalaşır və təsbitləşir. İslamda bu məsələ daha qabarıq surətdə özünü göstərir, Müsəlman Allaha ibadət edərkən Ondan doğru yola hidayət olunmasını istəyir və ibadətin bir hədəfi də insan əxlaqını tənzimləməkdir. Ona görə də İslamda yaxşı əməl insanı kamilləşdirir, zahirdə ibadət edib pis əmələ qurşananların ibadəti qəbul olunmaz. Quran ayələrində dəfələrlə iman gətirənlər və yaxşı əməl sahibləri bir sıraya qoyulurlar (*əl-Bəqərə*: 25, 62, *Ali-İmran*: 57, *ən-Nisa*: 57, 122, *əl-Maidə*: 9, 69, *ər-Rə'd*: 29, *İbrahim*: 23 və s.).

Heydər Əliyev islamşünas deyildi, lakin onun zəngin məlumatı, dərin psixoloji müşahidələri və analitik təfəkkür tərzi var idi. Böyük siyasətçi olmaqla



Moskva və Ümumrusiya Patriarxı II Aleksini qəbul edərkən.

yanaşı, çox mükəmməl bir sosioloq kimi cəmiyyətdə baş verən proseslərin, xüsusilə burada cərəyan edən mənəvi-əxlaqi təmayüllərin səbəb və nəticələrini dərindən təhlil edir, gələcək üçün proqnozlar verməyi bacarırdı. O, hər bir məsələyə geniş diapazonda və tarixi müstəvidə yanaşır, bugünkü vəziyyəti dəyərləndirərkən keçmişi yada salır və eyni zamanda gələcəyi düşünürdü.

O, islam mədəniyyətinin bəşəriyyətə bəxş etdiyi zəngin dəyərlərin keçmişini yada salaraq belə söyləyir:

"Bu gün biz keçmiş tariximizə baxaraq böyük məmnuniyyətlə qeyd etməliyik ki, din minillik bəşər tarixində həmişə böyük rol oynamış, insanlara səadət, sülh və əmin-amanlıq gətirmişdir. İslam dini yüksək mənəvi dəyərlərə malik olan bir dindir. İslamın bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir".

Heydər Əliyevin bu əhatəli fikri bir neçə məsələyə aydınlıq gətirir. Birincisi, sovet ideologiyasında dinin təhrif edilərək xurafat kimi qələmə verilməsinə və tarixdə mənfi yönümdən qiymətləndirilməsinə rəğmən, Azərbaycan rəhbəri onun tarixi keçmişdə önəmli rol oynadığını qətiyyətlə vurğulayır. İkincisi, din mənəvi dəyərlər toplusu olaraq insanlara sülh və əmin-amanlıq bəxş etmişdir. İslam dini xeyirxahlıq, insanlar arasında qardaşlıq və bərabərlik dini kimi meydana çıxmış və tanınmışdır.

Rus sosioloqu B.Yerasov keçmiş sovet və müasir sosial-siyasi Qərb



Səudiyyə Ərəbistanının Kralı əlahəzrət Fəhd bin Əbdüləziz Al-Səudla.

modellərini müqayisə edərkən belə bir nəticəyə gəlir ki, bunlardan heç biri bəşərin ədalət və əmin-amanlıq içərisində yaşaması üçün sağlam bir dünya düzəmi qura bilmədi. Ona görə bəşəriyyət gec-tez yenidən Şərqin, xüsusilə islam sivilizasiyasının mənəvi dəyərlərinə üz tutmalı olacaq. Bu sayaq qənaətlər Avropa alimləri tərəfindən də irəli sürülür. Çünki müasir qloballaşan dünyada baş verən qanlı savaşlar, qarşıdurma və zorakılıq əsasən haqq və ədalət tərəzisinin pozulması nəticəsində qarşısıalınmaz təhlükəli bir prosesə çevrilir. İslam isə haqq və ədalətə söykənməklə insanlar arasında qarşılıqlı yardım, xeyirxahlıq və anlaşma yaradan universal bir təlimdir.

Sovet dövründə islam sivilizasiyasının azərbaycanlılara bəxş etdiyi zəngin dəyərləri gözdən salmaq üçün belə bir təbliğat aparılırdı ki, guya, İslam onlara qılınc zoru ilə qəbul etdirilib və yabançı bir amildir. Heydər Əliyevin yuxarıda dedikləri həmin təbliğatın puçluğunu bir daha təsdiqləyir. "əl-Bəqərə" surəsinin 256-cı ayəsində deyilir ki, dində zorakılıq yoxdur. Ümumiyyətlə, din və inancın insanın qəlbində özünə məxsus yeri var. İnanc ruhla, canla qovuşur, onu zorla qəbul etdirə bilmədikləri kimi, zorla da insan qəlbindən çıxara bilməzlər.

Azərbaycan Prezidenti bu barədə belə söyləyirdi:

"Müsəlmanlar dini öz qəlbində yaşatdılar. Hər bir ailədə, hər bir evdə, hər bir ocaqda din yaşadı və onun insanlara bəxş etdiyi dəyərlər, adət-ənənələr, qayda-qanunlar yaşadı və onlar sovet dövründə tətbiq edilən qanunlardan və yeni yaranan adət-ənənələrdən daha güclü oldu".



BƏƏ-nin Prezidenti Şeyx Zayid Al-Nihəyyanla görüş.

Heydər Əliyevin söylədiyi fikir və çıxardığı nəticə olduqca məntiqli, həm də ibrətamizdir: bütün qadağa və mənfi təbliğata, təzyiqlərə baxmayaraq, islam mənəviyyatının bəxş etdiyi nur sönmədi. Azərbaycan rəhbəri sovet dövründəki qanun və qaydaların necə vəziyyətdə olduğunun canlı şahidi idi. İnzibati zor gücünə və amiranəlik metodu ilə hazırlanıb tətbiq edilən qayda-qanunlar gercək həyatda yararsız olurdu, necə deyərlər, kağız üzərində qalırdı, formal bürokratik maneələr bataqlığına çevrilirdi. Ancaq islam dəyərləri və onun insanlara bəxş etdiyi əxlaqi fəzilət ürəklərdə öz yaşamını davam etdirdi və tarixi şərait yetişdikdə yenidən canlanmağa başladı. O, daha sonra bu yaşamın və canlanmanın səbəblərini, psixoloji və fitri əsaslarını izah edir:

"Çünki din və xüsusən bizim İslam dini özündə elə gözəl xüsusiyyətlər formalaşdırmışdır ki, bizim üçün müqəddəs olan Qurani-Kərim, Həzrəti Məhəmməd Peyğəmbərin (s) müsəlmanlara göstərdiyi yol və verdiyi tövsiyələr insanların daxili mənəviyyatına o qədər uyğun olmuşdur və insanların həyatında o qədər müsbət rol oynamışdır ki, bu adət - ənənələr, bu dini qanun-qaydalar nəsildən-nəslə yaşamış və heç bir məhdudiyyət bunun qarşısını ala bilməmişdir".

Heydər Əliyevin bu mülahizələrində isə İslamın bəşər mənəviyyatına bağışladığı dəyərlərin ictimai-psixoloji qüdrəti, yaşam gücü təhlil edilir. Doğrudan da, belə bir sual ortaya çıxır: on beş əsrlik bir tarixi dönəmdə İslamın yaşaması, güclənməsi və bütün dövrlərdə həyatla uzlaşması nə ilə izah edilir? Bu sualın cavabı olduqca məntiqli bir şəkildə və tutarlı arqumentlərlə şərh edilir.



Mədinə şəhərindəki Müqəddəs Peyğəmbər məscidində.

İslam dəyərləri, hər şeydən öncə, bəşərin fitrətilə uyğun gəlir və onun batini aləminin istəklərinə cavab verir. Başqa bir yöndən bu mənəvi dəyərlər bəşər həyatında yüzillər boyu sınaqdan çıxmış və insanları gercək səadətə qovuşdurmuşdur. Nəhəng dövlətlərin hərbi, siyasi-iqtisadi və maliyyə qaynaqlarına söykənən güclü ideoloji təbliğatı ayrı-ayrı zaman kəsiyində bu və ya digər islam bölgəsinə müəyyən təsir göstərsə də, İslamın mənəvi dəyərləri öz əzəmətli və ümumbəşəri xarakteri ilə yenə də üstünlüyünü qoruyub saxlamış, son yüzillikdə İslam yenidən canlanmış və bu dinə iman gətirənlərin sayı çoxalmışdır. Heydər Əliyev bu baxımdan heç bir məhdudiyyətin İslama dönüşünün qarşısını ala bilmədiyini vurğulayır.

Heydər Əliyev din və imanı insanın mənəvi kamilliyi üçün əsas meyar hesab edir və Qurani-Kərimi ali mənəvi dəyərlərin qaynağı adlandırır. O, öz xalqına Quran nuru ilə işıqlanan bir yolla gələcəyə doğru addımlamağı təkidlə tövsiyə edir. 26 avqust 1999-cu ildə "Təzə Pir" məscidində, mövlud bayramı münasibəti ilə keçirilən mərasimdəki çıxışında Prezident bu barədə belə deyir:

"İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təmin etmiş, müsəlmanların dünyada əsaslı yer tutmasını təşkil etmişdir. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir. İnanıram ki, biz azərbaycanlılar heç vaxt imanımızdan, dinimizdən uzaqlaşmayacağıq və mənəvi mənbələrimizdən istifadə edərək gələcəyi quracağıq".



Mərakeş Kralı II Həsən tərəfindən təntənəli qarşılanma mərasimi.

Burada bir neçə önəmli məqam diqqəti cəlb edir. Bəlli olduğu kimi, Qurani-Kərim müsəlmanlar üçün Allah kəlamı olmaqla yanaşı, həm də onların doğru yola yönəlməsi üçün nazil olmuşdur. Quran bəşəri Allah yoluna yönəldən bir nur (*ən-Nisa*: 174, *əl-Ə'raf*: 157), hər şeyi bəyan edən (*ən-Nəhl*: 89) Allah kəlamıdır (*ət-Tövbə*: 6). Quran hidayət edəndir-yəni insanları düzgünlüyə və mənəviyyata doğru yönəldəndir (*əl-Bəqərə*: 185; *əl-Ə'raf*: 52; 203, *Yunus*: 57, *ən-Nəhl*: 64). Allaha tərəf gedən yol düzgün yoldur və bu yol ilə ali mənəviyyata yetişmək olar. Qurani-Kərimdə həmin yol "siratul-müstəqim" adlanır (*əl-Fatihə*: 6, *əl-Bəqərə*: 142,213, *Ali-İmran*: 101, *ən-Nisa*: 175, *əl-Ən'am*: 39, 88 və s).

İslam bəşəriyyəti elm, mərifət, saflıq, mənəvi kamillik, düzlük, ədalət yoluna doğru istiqamətləndirir. Həmin üstün və önəmli keyfiyyətlərə görə islam sivilizasiyası öz yaşamını yeni dünya düzənində davam etdirir.

İslamın bəşər üçün tövsiyə etdiyi əsas əxlaqi-mənəvi və əqli keyfiyyətləri aşağıdakı kimi xülasə etmək olar:

Elm və mərifətə dəvət. Quranda Allah sözündən sonra ən çox işlənən ikinci söz elmdir.

**"Bilən və bilməyənlər eyni olarmı"?** Bu sadə, ancaq düşündürücü sual "əz-Zümər" surəsi, 9-cü ayədə təkidlə vurğulanır.

-Yaxşı əməllərə dəvət, pis işlərdən çəkindirmək.

-İnsanın cismani, mənəvi təmizliyi və sağlamlığı.

-Valideynlərə, böyüklərə hörmət, qohum, qonşu və başqalarına qayğı və insani rəftar göstərmək.



İKT ölkələri başçılarının sammitində.

-Çarəsizlərə və ehtiyac içində olanlara yardım.
-Ədalət və haqqın qorunması, zülm ilə mübarizə.
-Yaxşılıq, xeyirxahlıq və xeyriyyəçilik.
-Öz nəfsinə etimad və özünəgüvənmə psixologiyasının təlqini.
-Vətən sevgisi və vətəni qorumaq hissinin tərbiyəsi.

Azərbaycan rəhbəri islam dəyərlərini və Quran nurunu öz xalqının gələcəyi üçün etibarlı bir yol kimi qəbul edir. Çünki tarixin çətin məqamlarında öz mənəvi bütövlüyünü və özünəgüvənmə hissini təmin edənlər uğur qazana bilərlər. Tarixdən bəlli olduğu kimi, Mahatma Qandi öz xalqını məhz mənəvi-dini dəyərlərə söykənməklə istiqlal yoluna çıxara bildi. Pakistan rəhbəri İqbal Lahuri də, belə bir yol ilə öz ölkəsini azadlığa qovuşdurdu.

Azərbaycanın qarşılaşdığı böhran və problemlərdən ən ümdəsi torpaqlarının 20 faizinin işğalıdır və Heydər Əliyev xalqın milli-mənəvi bütövlüyünü və özünə-güvənmə hissini gücləndirməklə bu çətin sınaqdan çıxmağın mümkünlüyünü düşünürdü. Bunun üçün isə ən önəmli qaynaq İslamdan gələn mənəvi dəyərlər ola bilərdi. Heydər Əliyev bu barədə belə deyirdi:

"Mənəviyyatımız nə qədər yüksək olarsa, biz insanlarda, hər bir azərbaycanlıda bir müsəlman olaraq Vətənə, öz amallarına sədaqət, mənəvi saflıq əhval-ruhiyyəsi tərbiyə edə bilərik. Ona görə Qurani-Kərimin cağırışlarına əsasən insanlarm düz yolla, təmiz mənəviyyat yolu ilə getməsinə çalışmaq lazımdır".



İKT-nin baş katibi Ekmələddin İhsanoğlu xatirə medalı təqdim edərkən

Peyğəmbəri-Əkrəmin (s) bir hədisində deyilir ki, Vətən sevgisi imanın yarısıdır. İmanlı insanlar təbiidir ki, Vətəni daha çox sevərlər. Bədr döyüşündə Məhəmməd Peyğəmbərin (s) dəstəsi düşməndən daha az və zəif idi, lakin Allahın yardımı müsəlmanları qələbəyə çatdırdi. Çünki onlar yüksək mənəviyyata və Allaha sığınmışdılar.

Azərbaycan Prezidenti 1998-ci il aprelin 8-də Qurban bayramı münasibəti ilə "Mir Mövsüm ağa" ziyarətgahında keçirilən mərasimdə İslam dəyərlərini azərbaycanlıların milli-mənəvi sərvəti adlandırır:

"Xalqımızın çoxminillik tarixi var və çox əsrlərdir ki, İslam dininə ibadət edirik. İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət - ənənələri və dəyərləri bizim milli sərvətimizdir".

Ölkə başçısı ayrı-ayrı tarixi dövrlərdə cürbəcür zorakılığa və məhrumiyyətlərə məruz qalmasına baxmayaraq, xalqın bu dəyərləri yaşatmasını islam mədəniyyətinin və mənəviyyatının həyati gücü ilə əlaqələndirir:

"Bu onu göstərir ki, bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".

Heydər Əliyev çıxışının sonraki hissəsində bir daha bütün mərasimlərin əsas məqsədini mənəviyyata dəvətdə görür:

"Bizim bütün milli və dini adət - ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən ibarətdir".

Azərbaycan rəhbəri İslamın mərasim və ayinlərindən bəhs edərkən diqqəti onların mahiyyətinə, əxlaqi mənəvi əhəmiyyətinə yönəldirdi. O, Qurban bayramı münasibəti ilə söylədiyi çıxışında bu dini mərasimin fəlsəfəsini açıqlayır:

"Qurban bayramı sadəcə qurban kəsmək və bir - birini təbrik emək üçün deyildir. Bu gün insan yenidən bütün həyatını düşünür, yenidən mənəviyyata qayıdır, mənəvi dəyərlərin giymətini yenidən dərk edir və daha da saflaşır, paklaşır".

Qurani-Kərimin özündə ibadət və əməl vəhdət halında götürülür və bir-birini tamamlayır. "*əl-Bəqərə*" surəsinin 177-ci ayəsində deyilir:

*"Yaxşı əməl heç də (ibadət vaxtı) üzümüzü gün çıxana və gün batana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi, əslində, Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və Peyğəmbərə inanan, Allaha məhəbbəti yolunda malını (kasıb) qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yolda qalan müsafirlərə, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq qalanlar, dar ayaqda, çətinlikdə (ehtiyaç və yaxud xəstəlik üz verdikdə) və cihad zamanı (məşəqqətlərə) səbr edənlərdir. İmanlarında, sözlərində və əməllərində doğru olanlar onlardır".*

# IV BÖLÜM

# İSLAM VƏ MÜASİRLİK

***İslam dini başqa dinlərə heç vaxt düşmən olmamışdır,***
***çünki bu dinlərin hamısı Allahdan gəlir.***

**HEYDƏR ƏLİYEV**





Dini abidələrin bərpası həmişə diqqət mərkəzindədir.

Müasir tarixi dönəmdə gedən irimiqyaslı qloballaşma prosesi və yeni geo-siyasi dünya düzəninin yaratdığı mürəkkəb şərait ayrı-ayrı xalqlar və millətlərin, ölkələr və bölgələrin, dinlər və mədəniyyətlərin qarşısında yeni vəzifələr qoyur. Hər bir xalq, ölkə və sivilizasiya dünyanın yeni inkişaf karvanından geridə qalmamağa, bu mürəkkəb və çətin prosesdə layiqli yer tutmağa, eyni zamanda özünü və özəlliyini qoruyub saxlamağa çalışır. Burada islam sivilizasiyasının yenidən dirçəlməsi və inkişafı, dünyada baş verən proseslərə təsiri və gələcək perspektivi diqqəti cəlb edir. İslam bir sıra önəmli parametrləri ilə dünyanın sivil inkişafında və ümumbəşəri dəyərlərlə zənginləşməsində böyük rol oynaya bilər.

İslam sonuncu ilahi din olmaqla öz kamilliyi, əhatəliliyi və ümumbəşəri universal xüsusiyyətləri ilə seçilir. Bu ilahi təlim başqa dünya dinlərindən bir sıra cəhətləri ilə fərqlənir.

Bunlardan birincisi odur ki, İslam təkcə dini etiqad və şəriət qaydalarını təbliğ edən və öyrədən bir dini təlim olmaqla məhdudlaşmır. İslam zəngin bir mədəniyyət modeli olmaqla insan və cəmiyyətin sağlam inkişafına, onların bütün istəklərinə cavab verən bir təlimdir. Burada fərd-ailə-cəmiyyət arasındakı ictimai-hüquqi, iqtisadi münasibətlərin, əxlaqi rəftar və davranışların mötədil və sağlam bir məcraya yönəldilməsi üçün prinsiplər, qanun-qaydalar və tövsiyələr vardır.

İkinci cəhət ondan ibarətdir ki, İslama görə insan, həm Allah qarşısında, həm də özü və başqaları qarşısında məsuliyyət daşıyır. Bundan başqa, insanlar

cəmiyyətdə tutduğu mövqeyindən, vəzifə və məqamından, iqtisadi vəziyyətindən, milli-etnik mənsubiyyətindən, dil və dinindən asılı olmayaraq çte Allah qarşısında, haqq və qanun qarşısında bərabərdir. Hər bir kəs öz əməlinə görə məsuliyyət daşıyır. İnsanlar yalnız öz əxlaqi-mənəvi dəyərlərinə görə bir-birindən üstün ola bilərlər.

Üçüncü cəhət ondan ibarətdir ki, İslam insanların bəyənilmiş gözəl əxlaqi dəyərlərlə naqislikdən kamilliyə doğru yüksəlişini, cəmiyyətin isə islahat yolu ilə sağlam inkişafını diqqət mərkəzində saxlayır. İslamda ilahi ədalət prinsipi var və bu prinsipə görə hər bir məsələdə haqq və həqiqət meyar kimi qəbul edilir, yəni heç bir hökmdar belə adi fəhlənin hüququnu poza bilməz. İslam və Quranda irəli sürülən ictimai rəftar və qaydalar beynəlxalq hüquq normaları və müasir insan haqları meyarları ilə uzlaşır.

İslam yenilikçi və mütərəqqi bir təlimdir. Lakin bir sıra Qərb siyasiləri islamın yenidən dirçəlişini və müsəlmanların beynəlxalq səviyyədə öz hüquqlarını qorumaq əzmində olduqlarını nigarançılıq və qısqanclıqla qarşılayırlar. Onlar öz hegemonçu psixologiyasına uyğun İslama qarşı qərəzli mövqe nümayiş etdirərək müsəlmanların demokratiya və müasir inkişaf modeli ilə uzlaşmadığını iddia edirlər.

Azərbaycan xalqının rəhbəri bütün sözü gedən məsələləri diqqətlə izləyərək İslama qarşı yönələn əsassız ittihamları qətiyyətlə rədd edirdi.
O, hələ hakimiyyətinin ilk ilində "Təzə pir" məscidində Məhəmməd peyğəmbərin (s) mövlud günü münasibətilə təşkil edilmiş mərasimdə möminlər qarşısında belə demişdir:

"Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu və eyni zamanda İslam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və ümumdünya əhəmiyyətli olduğunu sübut etmişdir".

Burada iki əsas məqam diqqəti cəlb edir: birincisi odur ki, İslam tarix boyu mütərəqqi din kimi tanınıb, ikincisi isə ondan ibarətdir ki, İslam bəşər sivilizasiyası tarixində əhəmiyyət daşıyan bir təlimdir. Onu ümumdünya inkişaf prosesindən təcrid olunmuş və donuq halda təsəvvür etmək olmaz.

1991-1993-cü illərdə Azərbaycan torpaqları erməni təcavüzkarları tərəfindən işğal olunmuş və bu ölkə böyük çətinliklərlə üzləşmişdir. Müsəlmanların torpaqlarını zəbt edib özlərini yurd - yuvasından didərgin salan işğalçılar öz əməllərinə haqq qazandırmaq üçün belə iddia edirlər ki, guya onlar İslam ölkələri ilə əhatə olunduğundan təhlükəsizlik zolağı yaratmaq məqsədilə həmin yerləri ələ keçirmişlər. Guya müsəlman azərbaycanlılar fundamentalist olduqlarından mədəni və xaçpərəst olan qəsbkarları sıxışdırırlar. Azərbaycan rəhbəri belə



Qur'ani-Kərim sərgisi ilə tanış olarkən.

uydurma və böhtanlara cavab olaraq müsəlmanların sülhsevər və haqq tərəfdarı olduqlarını bir daha diqqətə çatdırır:

"İslam dini bizi heç vaxt işğaçılığa, qəsbkarlığa sövq etməmişdir. Biz sülhsevər millətik. Bizim dinimiz də insanlara dostluq, qardaşlıq, sülh, barışıq yolu göstərmişdir. Bu müharibənin səbəbkarı da nə Azərbaycan xalqı, nə müsəlman, nə də İslam dinidir. Bu bizə qarşı olan qəsbkar işğalçılıq müharibəsidir. Biz torpaqlarımızı müdafiə edirik".

Müasir dünyada gedən mühüm proseslərdən biri demokratik dəyişikliklər və insan haqlarının qorunmasıdır. Demokratiyada məqsəd hakimiyyətin sivil qaydada xalqın seçimi əsasında formalaşması, qanunlarla idarə olunan hüquqi dövlətin qurulması, azadlıq və insan haqlarının təmin edilməsi - bir növ hər bir fərdin ləyaqətlə və dolğun yaşaması üçün sağlam ictimai mühitin yaradılmasıdır.

Yeni dünya düzənində iqtisadi inkişaf, sosial rifah və ictimai ədalət demokratik cəmiyyətin əsas hədəflərindəndir. Təbiidir ki, demokratiya məfhumu ilə bağlı olan bütün müsbət dəyərlər əksər ölkələr və xalqlar tərəfindən rəğbətlə qarşılanır. Ancaq bu dəyərlərdən sui-istifadə halları və həmin bəhanə altında yeni müstəmləkəçilik, istismar və hərc-mərclik kimi mənfi meyillərin güclənməsi yenicə müstəqillik əldə etmiş ölkələrdə narahatlıq doğurur. Başqa bir tərəfdən, azadlıq və demokratiya məfhumlarının yanlış təfsiri insanların və cəmiyyətin əxlaq və mənəviyyatında mənfi təmayüllərin yer almasına səbəb olur.

Azərbaycan xalqının rəhbəri güclü siyasətçi olmaqla yanaşı, həm də dərin



Misir Prezidenti Hüsni Mübarəklə görüş zamanı.

düşüncəli sosioloq və psixoloq idi. Ona görə o, gerçək demokratiyanı bu ad altında gedən oyunlardan dəqiqliklə ayırd edə bilirdi. Heydər Əliyev müasir dünyada baş verən prosesləri, demokratik dəyişiklikləri, azadlıq və insan haqlarının təmin edilməsi yolunda beynəlxalq səviyyədə görülən işləri zəruri sayır, lakin buradakı nöqsanları və ziddiyyətli məqamları, bəşəriyyətin qarşılaşdığı yeni problemləri də nəzərdən qaçırmırdı. O, özünəxas bir tərzdə məsələyə bütöv, kompleks şəkildə yanaşırdı. Bu baxımdan onun **"Müasirlik və milli-mənəvi dəyərlər"** adlı beynəlxalq konfransdakı çıxışı diqqətə layiqdir. Həmin çıxışının bir yerində belə deyilir:

"XX əsrin sonunda bəşəriyyət böyük təhlükələrlə, böyük münaqişələrlə, çətinliklərlə rastlaşıbdır. Dünyada gedən ictimai-siyasi proseslər, demokratiyanın inkişafı, insan haqlarının qorunması sahəsində görülən işlərlə yanaşı, mənfi meyillər də mövcuddur. Bunların çoxu da insanın mənəviyyatı ilə bağlıdır".

Müasir dünyada gedən proseslərin mənzərəsini göz önündə canlandıran Azərbaycan rəhbəri burada baş verən mənfi meyillərdən keçirdiyi narahatlığı ifadə edir. Bir tərəfdən demokratiya və insan haqları məsələsinin gündəmə gətirilməsi müsbət haldırsa, o biri tərəfdən baş verən qanlı müharibə və münaqişələr mənfi haldır. Başqa bir tərəfdən demokratiya və azadlıq məfhumunun təhrif edilməsi və bu ideyalardan bəhanə kimi istifadə olunması halları da mövcuddur. Belə ki, bir sıra güclü dövlətlər həmin bəhanələr altında zəif ölkələri özünə tabe etdirir, onların təbii-milli sərvətlərinə sahib olmaq istəyirlər. Başqa bir tərəfdən, eyni motivlərlə adı hələ ictimai-siyasi cəhətdən müstəqil şəkildə



Küveyt numayəndə heyəti ilə görüş.

tam təşkilatlana bilməyən, lakin öz milli bütövlüyünü və dövlətçiliyini möhkəmləndirmək əzmində olan ölkələrdə ictimaiyyətin, xüsusilə gənclərin başını yüngül əyləncələrlə qatmaq siyasəti yeridilir və azadlıq adı altında əxlaq və mənəviyyata zidd proseslərə rəvac verilir.

Ən başlıcası budur ki, Heydər Əliyev müasir dünyada bəşəriyyətin qarşılaşdığı bütün mənfi təmayüllərin səbəbini mənəviyyatda axtarır və belə hesab edir ki, mənəviyyat sağlam və təmiz olarsa, mənfi meyillər də bir o qədər azalar. Başqalarının haqqını tapdalamaq, başqa ölkələrin ərazisini zəbt etmək, sərvətlərini ələ keçirmək məqsədilə aparılan savaşlar da nəfs ilə bağlıdır. Ona görə də Peyğəmbər əleyhissəlam nəfs ilə mücadiləni böyük cihad adlandırmışdır.

Müasir dünyanın problemlərini insan mənəviyyatındakı boşluqla əlaqələndirən bu müdrik şəxsiyyət həmin boşluğu doldurmaq üçün İslama üz tutmağı tövsiyə edir:

"Bu mədəniyyət dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə, eyni zamanda dünyada inkişafa, sülhün, əmin-amanlığın təmin edilməsinə xidmət göstərmişdir".

Bu tezisdə İslamın bəşər sivilizasiyasında tarixi xidmətləri vurğulanır ki, həmin xidmətin üç önəmli parametri vardır:

-bəşərin mənəvi təkamülü;

-dünyada gedən tərəqqi və inkişaf;

-sülh və əmin-əmanlığın təminatı.



Müqəddəs Peyğəmbər Məscidini ziyarət edərkən.

Bunların hamısı müasir dünya üçün olduqca əhəmiyyətlidir və belə bir nəticə çıxarmaq olar ki, müasirlik və İslam bir-birinə zidd olan məfhumlar deyil, əksinə, islam dəyərləri müasir dünyanın problemlərini prinsipial və ədalətli qaydada həll etməyə qadirdir. Heydər Əliyev öz fikrini belə davam etdirir:

"Dini-mənəvi dəyərlərdən biz müasir həyatımızın daha da inkişaf etməsi üçün istifadə etməliyik. Dini-mənəvi dəyərlər bizi geriyə çəkmir, irəli aparır. İslam dininin mənəvi dəyərləri insanları həmişə inkişafa aparmışdır, insanlara həmişə qarşıdakı uzaq və işıqlı yolu göstərmişdir".

Bir sıra ideoloqlar və siyasətçilər Şərq ölkələrinin texnologiya, iqtisadiyyat və ictimai-siyasi sahədə Avropa və Qərbdən geridə qalmasının səbəbini İslamda görürlər. Belələri, istər Qərb, istərsə də Şərq ölkələrində vardır. Həmin yanlış və qərəzli təbliğat Şərq xalqlarını, xüsusilə müsəlmanları öz mədəniyyətindən ayırmaq, onların özlərinə olan inamını sındıraraq başqalarından asılı vəziyyətdə saxlamaq və bir növ İslamı gözdən salmaq məqsədilə aparılır. Bu təbliğatın kökündə belə bir məkrli fikir var: əgər müasir dünya inkişafından geridə qalmaq istəmirsinizsə, onda İslamdan üz döndərməlisiniz.

İslamın təhrif edilməsində, gercək İslam dəyərlərinin əvəzinə müsəlman ölkələrində xurafatın yer almasında və içtimaiyyətin qəflətdə saxlanmasında müstəmləkəçilik siyasəti yürüdən əcnəbilərin təbliğat maşını hələ XVIII əsrdən bu işə girişmiş, zaman keçdikcə dövrün tələblərinə uyğun bu siyasətin təbliğat metoduna düzəlişlər etmişdir.



Əbədiyyət.

Azərbaycan xalqının rəhbəri İslama qarşı aparılan həmin təbliğata cavab olaraq bəyan edir ki, İslam insanları geriyə çəkmir, əksinə, irəliyə doğru-inkişaf və yüksəlişə aparır. O, İslamı işıqla, nurla müqayisə edir. Qurani-Kərimdə də təkidlə vurğulanır ki, bu din insanları doğru yola yönəldən bir nurdur. Heydər Əliyev fikrinin davamında İslamda elmə, maarifə və savadlanmağa böyük diqqət yetirildiyini də önə çəkir:

"İslam insanları daha da savadlanmağa, mədəniyyətə qovuşmağa, müasir həyatın bütün vasitələrindən öz həyatını, öz millətinin həyatını, xalqının həyatını daha da yaxşılaşdırmaq üçün, maddi və mənəvi vəziyyətini yüksəlt-mək üçün daha da səmərəli bəhrələnməyə yönəldir".

Burada bir sıra mühüm məqamlara aydınlıq gətirilir: əvvəla, İslam elm, maarif tərəfdarı olmaqla, xurafat və savadsızlığın əleyhinədir. Məlumdur ki, ilk Quran ayəsi "*Oxu* " sözü ilə başlayır.

"*əl-Ələq*" surəsinin ilk ayələrində belə deyilir:
*"1. (Ya Peyğəmbər! Qurani-Kərimi, bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu!*
*2.(Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir!*
*3.O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi.*
*4.O Rəbbin ki, insana bildiyini öyrətdi".*
"*ən-Nur*" və "*əl-Qələm*" surələrində qələm və yazıya and içilir, onların məqamı uca tutulur. Hədislərdə deyilir ki, elm öyrənmək üçün, lazım gəlsə Hindistana və



Küveyt nümayəndə heyəti ilə görüş.

Çinə getmək və yaxud elmi beşikdən qəbrə qədər öyrənmək lazımdır. Bir sözlə, İslam elmin tərafdarı olub və deməli, müsəlmanlar müasir biliklərin köməyi ilə qabaqcıl texnologiyaya yiyələnib öz maddi rifah halını yaxşılaşdırmaq haqqına malikdirlər və onlar eyni zamanda, öz dini-mənəvi köklərinə bağlı qalmağı daha vacib hesab etməlidirlər. Deməli elmi tərəqqi və mənəviyyat bir-birini tamamlayir, insanların sağlam və mədəni bir mühitdə normal yaşamını təmin edir.

Azərbaycan rəhbəri İslam ölkələrinin müasir inkişaf prosesinə daha fəal qoşulmasını istəyirdi. O, 10 dekabr 1997-ci ildə İslam Konfransı təşkilatının Tehranda keçirilən 8-ci Zirvə toplantısında bu məsələ ilə bağlı öz mövqeyini belə açıqlamışdır:

"Müsəlman xalqları və ölkələri dünyada gedən mürəkkəb proseslərlə üzləşirlər. Bir tərəfdən elm və texnika güclü surətdə inkişaf edir, yeni ixtiralar, texnologiyalar Yer kürəsinin simasını dəyişdirir, o biri tərəfdən bir çox xalqlar aclıqdan, yoxsulluqdan, cəhalətdən əzab çəkirlər. Ona görə də biz tərəqqi yolu ilə addımlamalıyıq, inkişaf etmiş ölkələrin səviyyəsinə qalxmalıyıq".

Heydər Əliyev müasir dünyanın təzadlı mənzərəsini də nəzərə çatdırır: bir tərəfdən elmi texnoloji tərəqqi və iqtisadi-sosial rifah, o biri tərəfdən isə cəhalət və yoxsulluq hökm sürür. Bu təzadlar dünyanın ahəngdar və əmin-amanlıq içərisində yaşamasını əngəlləyir. O, müsəlman ölkələrinin qarşılaşdığı problemləri dərindən dərk etməklə yanaşı, bunların həlli yolunu da göstərirdi, yəni müsəlmanlar müasir tərəqqi karvanından geridə qalmadan inkişaf etmiş ölkələrin səviyyəsinə yüksələ bilərlər. Bunun üçün geniş imkanlar mövcuddur, lakin burada



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təntənəli andiçmə mərasimi

daha çox çalışmaq, əzm və iradə nümayiş etdirmək lazım gəlir.

Ümummilli Lider müasirliyi keçmişdən və gələcəkdən ayırmırdı, onlar arasında dialektik bir əlaqə qururdu. Min illər boyu xalqın yaratdığı zəngin mədəni irs, milli-mənəvi dəyərlər bugünkü nəslin varlığını təşkil edir, onun gələcəyini nnüəyyənləşdirir. Keçmişi inkar etmədən bugünkü dünya ilə ayaqlaşmaq və gələcəyini düşünmək hər bir xalqın bəşər tarixində özünə layiqli yer tutması üçün çox önəmlidir. Heydər Əliyev müasir inkişaf modelini, elmi-texniki tərəqqini, iqtisadi-sosial yüksəlişi başçılıq etdiyi ölkənin və xalqın dünya ilə ayaqlaşması üçün zəruri şərtlər sayırdı. Ancaq müasirliyi dini-mənəvi dəyərlərə qarşı və ya əksinə, dini dəyərləri, milli adət-ənənələri müasir inkişafa qarşı qoymurdu. Onun əqidəsincə, müasirlik və inkişaf heç də milli kökləri, əxlaqi-mənəvi və dini dəyərləri inkar etmək mənasında başa düşülə bilməz, eyni zamanda, milli və dini köklərə bağlılıq heç də müasir texnoloji inkişafdan vaz keçmək demək deyildir.

Bu baxımdan, müasir Azərbaycan gənclərinin düzgün yol seçməsi ölkə rəhbərinin diqqət mərkəzində dayanırdı. O, müstəqillik qazanandan sonra ölkədə yeni ictimai-mənəvi mühitin sağlam məcraya yönəldilməsinə böyük diqqət yetirirdi, açıq dünyanın bu mühitə gətirə biləcəyi mənfi meyillərinin qarşısını almaq üçün İslama üz tutmağı vacib sayırdı. Sovetlərin dağılmasından sonra Azərbaycanda hələ yeni ideoloji-mənəvi dəyərlər sistemi öz yerini tuta bilməmişdir. Bir yandan keçmişdən miras qalan kobud ateist ab-havası, o biri yandan isə Qərbdən ölkəyə yol açan zahiri parıltı və yüngül əyləncə meyilləri bu müsəlman ölkəsinin mənəvi-əxlaqi mühiti üçün təhlükə törədirdi. Bu vəziyyəti vaxtında görən Heydər Əliyev gənclərin tərbiyəsində



İftar süfrəsində.

milli zəminə, dini-mənəvi köklərə söykənməyin zəruriliyini önə çəkdi. O, 1998-ci il fevralın 2-də Azərbaycan gənclərinin toplantısında proqram xarakterli çıxış etdi:

"Bizim xalqımızın milli, mənəvi ənənələri, mədəni-milli dəyərləri həmişə, əsrlər boyu xalqımızı yüksək mənəviyyat ruhunda tərbiyə edib, böyüdüb, yaşadıbdır. Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz daim ən yüksək mənəviyyatı əks etdiribdir. Hər bir gəncin həyatda uğurla yaşaması üçün kökünə sadiqliyi ən əsas amildir".

Deməli, gənc nəslin düzgün tərbiyə olunması, istiqamətlənməsi üçün ilkin önəmli amil öz milli-mənəvi və dini dəyərlərinə bağlı olmasıdır. Lakin müasir dünyada bununla məhdudlaşmaq olmaz.

Prezident həmçinin vurğulayır ki:

"Biz müasir dünyada yaşayırıq. Azərbaycan azad, sərbəst və açıq ölkədir, dünyanın bütün ölkələri ilə hərtərəfli əlaqələr qurur və bundan sonra da quracaqdır. Buna görə də bizim milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərlərlə sintezi, birləşdirilməsi xalqımızın mənəviyyatını zənginləşdirib və bundan sonra da zənginləşdirəcəkdir".

Heydər Əliyev bu dəyərlər sintezini Azərbaycanın gələcək strateji yolu adlandırır, eyni zamanda, diqqəti həssas bir məsələyə yönəltməyi vacib bilir:

"Ancaq biz bu yolla gedərkən gərək heç vaxt səhvlərə yol verməyək, bizə yad olan, mənəviyyatımıza yad və zidd olan ünsürlərin cəmiyyətimizə,



İftar süfrəsində.

xalqımızın, gənclərin əxlaqına sirayət etməsinə yol verməyək".

Bu, çox önəmli bir məsələ idi. Belə ki, cavanlar, adətən, müasir dünya ilə ayaqlaşmaqdan ötəri, onun texnoloji-iqtisadi tərəqqisindən daha çox yüngül əyləncə mərkəzlərinə meyillənirlər. Ona görə Azərbaycan Prezidenti gecə klubları, kazinolar və bu sayaq digər əyləncə yerlərinin bağlanması haqqında qərar verməklə gənclərin mənəviyyatını böyük təhlükədən qorudu. O, bu qərarını belə izah etdi:

"Mənim bu qərarlarımın hamısı, yalnız və yalnız xalqımızın, cəmiyyətimizin sağlamlığını qorumağa yönəlibdir. Mən bütün bu qərarlarımla, bütün bu fəaliyyətimlə çalışıram ki, xalqımız, xüsusilə siz gənclər sağlam əxlaq tərbiyəsi alasınız".

Məlum olduğu kimi, müasir dünyada gərgin rəqabət və mücadilə gedir, ölkələr və xalqlar inkişafdan qalmamaq üçün praqmatik iqtisadi maraqlara xüsusi əhəmiyyət verirlər. İqtisadi maraqların üstünlük təşkil etdiyi müasir dünyada əxlaqi-mənəvi dəyərlər bir qədər arxa plana keçir. Bəzən isə daha çox fayda götürmək, daha çox gəlir əldə etmək psixologiyası insanları əxlaqi-mənəvi ölçülərdən kənara çıxmağa vadar edir. Bu çox təhlükəli bir meyildir, belə ki, freydizm və makkiavellizm psixologiyası insanları öz praqmatik maraqlarını təmin etmək üçün qeyri-əxlaqi vasitələrə əl atmağa sürükləyir. Belə zümrə üçün iqtisadi qazanc əxlaqdan üstün sayılır və vaxtı ilə Qərb dünyasında vəhşi kapitalizm həmin psixologiyanın təsiri altında yaranmışdır.

Keçid dövrü yaşayan və yenicə müstəqilliyə qovuşan Azərbaycanda bazar iqtisadiyyatının sağlam bir istiqamətdə formalaşması olduqca zəruri məsələ idi. Heydər Əliyev bu məsələdə də mənəviyyatın nəzərə alınmasını vacib sayır.

Bazar iqtisadiyyatının və sahibkarlığın ölkənin inkişafında müsbət əhəmiyyətli cəhətlərini önə çəkən Prezident, eyni zamanda, bunların cəmiyyətdə doğura biləcəyi mənfi meyilləri haqqında xəbərdarlıq edir, sonra isə belə bir tövsiyə verir:

"Bazar iqtisadiyyatını inkişaf etdirərək, sərbəst iqtisadiyyata geniş yer verərək, Azərbaycanda sahibkarlıq təbəqəsi yaradaraq biz hamısını öz mənəvi dəyərlərimizin üzərində qurmalıyıq".

Burada söhbət azərbaycanlıların milli-dini ənənələrinə xas olan ictimai ədalətin təmin edilməsindən, cəmiyyətin imkanlı təbəqəsi tərəfindən xeyriyyəçilik fəaliyyətinin təşkilindən, varlılar ilə kasıbların arasında kəskin təbəqələşmənin qarşısının alınmasından gedir. Təbiidir ki, bu cür məsələlər İslamda daha çox təkidlə vurğulanır.

# V BÖLÜM

# DÖVLƏT-DİN, İSLAM-DEMOKRATİYA MÜNASİBƏTLƏRİ

***Müqəddəs Mədinə şəhərini, İslamın müqəddəs abidələrini, Həzrət Məhəmməd Peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm.***

**HEYDƏR ƏLİYEV**





Şeyxülislam Allahşükür Paşazadə ilə.

Müasir dünyada geniş bəhs olunan məsələlər sırasında dövlət-din, İslam demokratiya münasibətləri xüsusi yer tutur. İslama qayıdış, bu zəngin sivilizasiyanın yenidən dirçəlməsi, müsəlman ölkələrində və dünyada islami hərəkatların təşkilatlanması göstərir ki, din ilə dövlət və İslam ilə müasir demokratik qurumlar arasındakı münasibətlər sivil qaydada tənzimlənməlidir. Çünki, İslama qarşı qərəzli mövqe nümayiş etdirən güc mərkəzləri həqiqi İslam dəyərlərinin ictimai həyatda möhkəmlənməsindən qorxaraq onu gözdən salmaq üçün hər cür vasitəyə əl atırlar. Onlar İslamı dövlətçiliyə və demokratiyaya zidd olan ifratçı ideoloji cərəyan kimi qələmə verirlər.

İctimai-siyasi proseslərin lazımınca təşkilatlanmadığı bir çox müsəlman bölgələrində dövlət ilə dini qurumlar arasında ixtilaflar və qarşıdurma halları baş verir ki, bunun nəticəsində hər iki tərəf zəifləyir.

Bəlli olduğu kimi, bir sıra Şərq ölkələrində dövlət-din münasibətlərinin tənzimlənməsi düzgün qurulmadığından dövlət dini qurumlara və ruhanilərə qarşı, dini qurumlar isə dövlətə qarşı çıxış edirlər. Bu sayaq ixtilaflardan isə bir qayda olaraq həmin ölkədə öz mənafeyini təmin etmək istəyən yabancı qüvvələr faydalanırlar. Azərbaycanın, onsuz da, problemlərlə üzləşdiyi ilk müstəqillik illərində belə ixtilaflara yol vermək, xüsusilə olmazdı.

Heydər Əliyev elə ilk günlərdən dövlət ilə din arasında ünsiyyət yaratdı. 5 sentyabr 1993-cü ildə Peyğəmbərin (s) mövludu münasibətilə "Təzə Pir" məscidindəki çıxışında diqqəti məhz həmin məsələyə yönəltdi:

"Biz bir dövlət kimi İslam dininin son dövrdə geniş və çox sürətlə inkişaf etməsini alqışlayırıq və bundan sonra da Azərbaycan Respublikasında, müstəqil ölkəmizdə hər bir insanın öz dini adətlərinə xidmət və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq, biz İslam dininin inkişafı üçün dövlət tərəfindən lazimi tədbirlərin hamısını görəcəyik".

Müasir dövlət və din münasibətlərinin qurucusu çıxışında daha sonra başqa mühüm bir məsələyə toxunur: İslamın universal xarakterli digər dinlərə, xalqlar arasındakı mehriban ünsiyyətə ehtiramla yanaşmasından söhbət açır. İslama qarşı yönələn əsassız ittihamlardan biri onun fundamentalizmə meyillənməsi ilə bağlı irəli sürülən əsassız bir iddiadan ibarətdir. Bu iddianın qərəzli və yanlış olduğunu İslamın elə öz mahiyyəti təsdiq edir.

Heydər Əliyev çox aydın və məntiqli dəlillərlə bu məsələni şərh edir:

"Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayırlar. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə söykənən bir dövlət kimi öz ərazisində yaşayan bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir. Hər bir kəs hürdür, azaddır.

Bizim Qurani-Kərim bunu göstərir və biz bu yolla gedirik ki, İslam dini başqa dinlərə hüsn-rəğbətlə yanaşıb, başqa dinlərə mənsub adamlarla dostluq əlaqələri yaratmağa çalışıb".

O, eyni zamanda, dinlər arasında qarşılıqlı hörməti vacib sayır və İslam dininə qarşı təcavüzün yolverilməz olduğunu da vurğulayır:

"Biz öz İslam dinimizi qoruyub saxlamaqla bizim dinimizə, əxlaqımıza, mənəviyyatımıza təcavüzlərin qarşısını almaqla yanaşı, heç bir başqa millətə, heç bir başqa dinə təcavüz etməyəcəyik. Hər bir millətə və dinə hörmətlə yanaşmışıq. Bu, Allahın əmridir və Ulu Peyğəmbərimiz Məhəmməd əleyhissəlamın bizə tövsiyəsidir".

Dinlər və xalqlar arasında dialoq, qarşılıqlı hörmət və ünsiyyət müasir dövrdə çox önəmlidir. Azərbaycan üçün də bu məsələ böyük əhəmiyyət daşıyır. Ölkə əhalisinin əksəriyyəti müsəlmandır. Lakin burada başqa dinlərə etiqad bəsləyən xalqlar da yaşayır. Azərbaycan Respublikası tarix boyu dini dözümlülük ölkəsi olmuşdur. Heydər Əliyev bu məsələyə öz münasibətini bildirərkən, belə demişdir:

"Azərbaycanın ən mühüm xüsusiyyətlərindən biri də burada çoxlu millətlərin yaşaması və üç əsas konfessiyanın da sərbəst fəaliyyət göstərməsi üçün şərait yaranmasıdır. Bütün dinlər insanları həmişə sağlam mənəviyyata, düz yola dəvət ediblər.



Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezerlə.

Azərbaycanda əhalinin əksəriyyətini İslam dininə etiqad edən azərbaycanlılar təşkil edir. Ancaq, eyni zamanda, Azərbaycanda xristian-pravoslav, yəhudi dininə etiqad edən insanlar, müxtəlif millətlərin nümayəndələri də yaşayırlar. Bu, əslində, Azərbaycanın reallığını, eyni zamanda Azərbaycan xalqının dini dözümlülüyünü göstərir".

Diqqətəlayiq haldır ki, Azərbaycan Prezidenti 1998-ci il mayın 13-də din xadimləri ilə görüşündə bu mühüm məsələni bəyan edib. O, dini dözümlülüyün kökünü İslamın mahiyyətində görərək belə söyləmişdi:

"Azərbaycanlılar başqa dinlərə münasibətdə həmişə dözümlü olublar, bunu bizə Qurani-Kərim və Peyğəmbər Həzrəti Məhəmməd (s) tapşırıbdır".

Doğrudan da, Qurani-Kərim "*əl-Bəqərə*" surəsinin 213-cü ayəsində insanların bir ümmət olduğunu vurğulayır. Ayrı-ayrı ayələrdə isə başqa dini kitabları, (*Tövratı, İncili*) təsdiq etdiyini bildirir. Bu baxımdan "*əl-Bəqərə*": 89,91,97, "*Ali-İmran*": 47, "*əl-Maidə*": 48, "*əl-Ən'am*": 92 və başqa ayələri göstərmək olar.

Prezident başqa bir yerdə yenə də İslam dininin digər dinlərə dözümlü münasibətinə işarə edərək deyir:

"Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətləridir".



Gürcüstanın katolikos-patriarxı II İliyanı qəbul edərkən.

Heydər Əliyevin bu sözləri müasir dünyada İslama qarşı qərəzli mövqe nümayiş etdirənlərə tutarlı cavabdır. Burada üç cəhət bir-birini tamamlayır:

1.Dünyada müxtəlif dinlərin olması təbii haldır və hər birinin öz yeri var.

2.Azərbaycanlılar müsəlman olmaqla fəxr edirlər.

3.Müsəlmanlar başqa dinlərlə barış və anlaşma şəraitində yaşamağa önəm verirlər.

O, daha sonra dinlər və mədəniyyətlər arasında qarşılıqlı ehtiramın zəruriliyini söyləyir:

"Hesab edirik ki, insanlar hansı dinə, mədəniyyətə mənsubluğundan asılı olmayaraq bütün başqa dinlərə, mənəvi dəyərlərə hörmət etməlidir".

Təcrübəli dövlət xadiminin dilindən bu sadə, lakin olduqca əhəmiyyətli prinsipin səslənməsinin, əlbəttə, öz siyasi və psixoloji konteksti vardir. Belə ki, bir sıra inkişaf etmiş ölkələr iqtisadi və texnoloji cəhətdən geridə qalan Şərq xalqlarına, onların din və mədəniyyətinə, necə deyərlər, yuxarıdan aşağı baxır, bir növ təkkəbbürlü olurlar. Ancaq İslam baxımından hamı Allah qarşısında bərabərdir. "*ən-Nəhl*" surəsinin 23-cü ayəsində deyildiyi kimi: "*Allah təkəbbür edənləri sevməz*".

Ölkə başçısı mübarək Mövlud bayramı münasibətilə "Təzə Pir" məscidindəki yuxarıda xatırlatdığımız çıxışında möminlərə xitabən bütün ilahi dinlərin birliyini belə ifadə etmişdir:

"İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki, bu dinlərin hamısı Allahdan gəlir".



Vatikandan olan kardinal Kruşentse Seteni qəbul edərkən

Heydər Əliyevin bu sözləri mübarək Quran ayələri ilə səsləşir. Məsələn, "*əl-Bəqərə*" surəsinin 136-cı ayəsində deyilir:

"*Ey möminlər! (Yəhudi və xaçpərəstlərə) belə deyin: Biz Allaha, bizə nazil olan Qurana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladına (Əl-Əs-bat) göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən bütün Peyğəmbərlərə verilən şeylərə inanmışıq. Onların heç birini digərindən ayırmamışıq. Biz, ancaq Allaha boyun əyən müsəlmanlarıq*".

Elə həmin surənin 139-cu ayəsində bir daha vurğulanır ki, Allah həm sizin, həm də bizim Rəbbimizdir.

Müasir dünyada gedən qloballaşma prosesində demokratik dəyərlərin önəmi daha da yüksəlir və milli-etnik ayrı-seçkilik meyilləri kimi dini zəmində baş verən ayrı-seçkilik halları da məqbul sayılmır. Azərbaycan rəhbəri məsələyə, məhz beynəlxalq hüquq normaları və insan haqları səviyyəsində yanaşmaqla bir daha nəzərə çatdırır ki, İslam bütün xalqlar, millətlər və dinlər arasında dialoq və dinc yanaşı yaşama prinsiplərinə, ümumbəşəri dəyərlərə sadiqdir.

Yeni dünya düzənində ən aktual və dəbdə olan içtimai-siyasi və ideoloji mövzulardan biri də demokratiyadır. Xalqın öz iradəsi və seçimi ilə formalaşan, qanunların aliliyini təmin edən, cəmiyyətin sivil qaydada, eyni zamanda, ədalətə və ahəngdar idarə olunmasını əməldə icra edən, burada bütün zəruri azadlıqları, insan haqlarını qanun çərçivəsində qoruyan, ölkənin iqtisadi-sosial tərəqqisini və təhlükəsizliyini təmin edən və hüquqi dövlət quran hakimiyyət növü



Azərbaycan Respublikası Prezidenti İlham Əliyev din xadimləri ilə bir arada.

demokratiyadır. Bu sözün lüğəti mənası xalq hakimiyyəti, yəni xalq tərəfindən seçilən və dəstəklənən, eyni zamanda, xalqın istəklərinə cavab verən idarəetmə sistemidir. İndi bu məfhum dünyada əksəriyyət tərəfindən rəğbətlə qarşılanır. Əslində, demokratiyanın ali prinsipləri İslam sivilizasiyasının mahiyyətində müşahidə edilir və ona görə İslam ilə demokratiyanı qarşı-qarşıya qoymağa cəhd edənlər tamamilə yanılırlar. İslam mütəfəkkirləri mübarək Quran ayələri və Peyğəmbər (s) sünnətinə əsaslanaraq hüquqi normalarla idarə olunan, sadə kəndlidən tutmuş hökmdara kimi qanun və haqq qarşısında bərabərliyini təmin edən, ədalət və haqqa söykənən, yuksək əxlaqi-mənəvi dəyərləri özündə ehtiva edən mədəni və fəzilətli bir cəmiyyət qurulmasını önə çəkmişlər. Belə cəmiyyət ağıl, hikmət və əxlaq nuru ilə idarə olunur. Farabi, ibn Sina, ibn Xəldun, Məsudi, Nizami Gəncəvi və Xacə Nəsirəddin Tusi kimi müdriklər həmin ədalətli və fəzilətli cəmiyyətin əsas parametrlərini müəyyənləşdirmişlər. Bəlli olduğu kimi, İslam hüquq məktəbi dünyanın ən zəngin və dolğun hüquq sistemlərindən biridir. İslam sosiologiyası və hüquq məktəbi insan haqlarına dini, irqi və etnik məhdudiyyətlər qoymadan, ictimai ədaləti qlobal müstəvidə təmin edən universal birtəlim kimi tanınır. Lakin İslama qərəzli baxan dairələr onun demokratiya ilə uyğun gəlmədiyini iddia edirlər. Başqa bir tərəfdən, bəzi hallarda demokratiya və azadlıq məfhumları təhrif edilir, bunları hərc-mərclik kimi qələmə verərək cəmiyyətdə əxlaqi-mənəvi ab-havanı bulandırmağa cəhd göstərənlər meydana çıxır. Bir sıra Qərb modernistləri belə iddia edirlər ki, cəmiyyət qanunlar əsasında idarə olunursa, daha əxlaqa ehtiyac yoxdur. Onlara görə demokratiyanın tam



Molokan icmasının nümayəndələrini qəbul edərkən

bərabər olduğu ictimai mühitdə əxlaq önəmli deyil. Halbuki, əxlaq və mənəviyyat olmayan yerdə ən ideal qanunları və demokratik prinsipləri pozmaq mümkündür. Məhz yüksək əxlaq və mənəviyyat insanları cəmiyyətin riayət etdiyi qanun və prinsiplərə hörmətlə yanaşmağa, hər məsələdə haqq və ədaləti gözləməyə vadar edir. Məsələyə bu cəhətdən yanaşan Azərbaycan rəhbəri öz fikrini yığcam bir tərzlə belə ifadə edir:

"Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir".

Doğrudan da, demokratiya klassik və həqiqi mənada cəmiyyətin ağıl və hikmət əsasında mədəni-sivil qayda-qanunlar ilə idarə olunmasıdır. Demokratiya deklarativ şüarlar toplusu deyildir, yəni demokratik üsul və prinsipləri elan etməklə iş bitmir, burada ən əsas məsələ onların icrasıdır ki, bunun üçün yüksək əqli-mənəvi mühit, sağlam ictimai şərait yaradılmalıdır. Deməli, əxlaq və mənəviyyat olmayan yerdə gerçək azadlıq və demokratiya da yoxdur. Ona görə də Heydər Əliyev yuxarıdakı tezisini belə tamamlayır:

"Bu yüksək mədəniyyəti və yüksək mənəviyyatı hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarda tərbiyələndirmək və böyütmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir".

O, təkidlə demokratiyanı və azadlığı doğru-düzgün başa düşməyi və mənəviyyatdan ayırmamağı vurğulayır, öz fikrini belə izhar edir:
"Çünki, ayrı-ayrı insanlar, yaxud qurumlar, dəstələr demokratiyanın onlara



Azərbaycan Respublikası Prezidenti İlham Əliyev “Təzə pir” məscidində yenidənqurma işləri ilə tanış olarkən

verdiyi bu azadlıqları bəzən özbaşınalıq, qanuna itaətsizlik kimi anlayırlar, yaxud da ki, bu cür anlamaq istəyirlər".

Azərbaycan xalqının rəhbəri daha sonra müasir dünyada dövlət-din münasibətlərinin çox həssas bir məsələsinə toxunur ki, bu da dövlət quruluşunun dünyəvi xarakteri ilə bağlıdır. Bir çox ölkələrdə din ilə dövlətin bir-birindən ayrılması, yəni sekulyarizm və laizm məfhumları həmişə cəmiyyətdə ixtilaflara gətirib çıxarır. Qeyd edək ki, sekulyarizm xristian ölkələrində ortaya çıxan bir məsələdir. Belə ki, orta əsrlərdə burada kilsə hakimiyyəti dövlət üzərində bir qurum kimi təmsil olunurdu. İslam sivilizasiyasında isə heç vaxt məscid dövlət üzərində bir hakimiyyət qurumu kimi çıxış etməmişdir. Başqa bir tərəfdən, islamda hakimiyyətlə dini təsisatlar arasında güc, qüdrət nümayişi davası olmamışdır. Xristian ölkələrində kilsə ilə dövlət arasındakı hakimiyyət savaşı və bundan doğan ixtilafları həll etmək üçün dinin dövlət işlərindən ayrılması, yəni sekulyarizm məsələsi gündəmə gəlmişdir. Bəzi siyasətçilər dünyəvi dövlət dedikdə sekulyarizmi əsas götürür və din ilə dövlət arasında süni ixtilaf meyilləri yaratmağa cəhd göstərirlər. Belə hallar daha çox yenicə istiqlaliyyətə qovuşan, ictimai-siyasi qurumların tam təşəkkül tapmadığı İslam ölkələrində daha çox baş verir. Heydər Əliyev uzaqgörən bir siyasi xadim və həm də xalqın dini etiqadına və hisslərinə hörmətlə yanaşan müdrik ağsaqqal kimi Azərbaycanda dövlət-din münasibətlərini qarşılıqlı anlaşma, ümummilli mənafe, vətəndaşlıq həmrəyliyi və cəmiyyətin milli-mənəvi birliyi məcrasına yönəltdi. Onun bu barədəki sözlərinə diqqət yetirək:



“Təzə pir” məscidində

"Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik. Din ilə dövlət arasında sıx əməkdaşlıq var və hesab edirik ki, Azərbaycanda İslam dini özünün gözəl mənəvi dəyərlərini Azərbaycan vətəndaşlarına aşılayaraq, Azərbaycan vətəndaşlarını İslam dininin bu gözəl mənəvi dəyərləri əsasında tərbiyələndirərək Azərbaycan cəmiyyətini mənəviyyatca daha da yüksəldəcək və insanlar bu demokratiyanı, bütün azadlıqları doğru-düzgün başa düşəcəklər".

Heydər Əliyev dinlə dövlətin sıx əməkdaşlığını və azərbaycanlıların islam dəyərləri ruhunda tərbiyələnməsini zəruri sayır. Bunda məqsəd cəmiyyətin mənəvi baxımdan yuksəlişini təmin etməkdir. Mənəviyyat yüksək olduğu təqdirdə insanlar demokratiya və azadlığı doğru-düzgün başa düşərlər. Göründüyü kimi, Azərbaycan rəhbəri insanların və cəmiyyətin bütün problemlərinin həlli üçün mənəviyyatı örnək kimi qəbul edir. Ona görə də İslamı zəngin və mötəbər mənəvi dəyərlər qaynağı olaraq cəmiyyətin ayrılmaz hissəsi hesab edir. Din və bəşər, islam və cəmiyyət ruhla bədən kimidir. Ruhsuz bədən və mənəviyyatsız insan quru qəlbdən ibarətdir. Heydər Əliyev belə bir qənaətə gəlir ki, demokratiya və mənəvi-dini dəyərlər arasında heç bir ziddiyyət yoxdur. O, bu barədə Qurban bayramı münasibətilə 2 fevral 1998-ci ildəki çıxışında belə söyləmişdir.

"Ümumiyyətlə bilin-biz Azərbaycanda demokratik, hüquqi dövlət qururuq. Biz bu yolu seçmişik və bu yolla gedirik. Ancaq bununla bərabər bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq

edərək heç vaxt dinimizdən, dini adət-ənənələrimizdən ayrıla bilmərik və imtina edə bilmərik.

Ona görə də burada ziddiyyət yoxdur. Əksinə, çox qarşılıqlı münasibətlər var. Bu baxımdan Azərbaycanın Prezidenti kimi mən dinin inkişafını təmin etmək üçün nə lazımdır edirəm və bundan sonra da edəcəyəm".

Bütövlükdə, Azərbaycan xalqının Ümummilli Lideri demokratiya, hüquqi quruculuğu, iqtisadi-texnoloji tərəqqi və müasir dünyanın doğurduğu bütün başqa məsələlərdən öz xalqının milli mentaliteti və mənəviyatına uyğun şəkildə istifadə olunmasını təkid edir. O, bir daha vurğulayır ki, azərbaycanlı müsəlmanlar heç bir vaxt, heç bir müasirlik bəhanəsi adı altında öz dinindən imtina etməyəcək və burada heç bir ziddiyyət də axtarmaq lazım deyil.

Heydər Əliyev, ümumiyyətlə, öz xalqının işıqlı gələcəyini islam mənəviyyatından, milli-dini dəyərlərdən ayrı təsəvvür edə bilmirdi.

# VI BÖLÜM

# HEYDƏR ƏLİYEV VƏ İSLAM DÜNYASI

*Mən Kəbəni ziyarət edərkən Allah-təaladan təvəqqe etdim ki,*
*Azərbaycan xalqını hifz etsin, xalqımızı bundan sonra*
*heç vaxt heç bir bəlaya düçar olmasına yol verməsin,*
*xalqımız öz ölkəsində,*
*öz müstəqil dövlətində daima şən və firavan yaşaya bilsin.*

**HEYDƏR ƏLİYEV**





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dini abidələrə qayğı ilə yanaşır.

Digər Qafqaz respublikaları kimi, Azərbaycan da Avropa Şurasının üzvü olmaqla, başqa beynəlxalq və Qərb strukturları ilə geniş əlaqələr quran bir ölkədir. Bununla yanaşı, Azərbaycan Şərq və İslam dünyasının ayrılmaz bir parçasıdır. Bu gənc respublika müstəqilliyinin başlanğıcında bir sıra müsəlman dövlətləri ilə diplomatik və iqtisadi-siyasi, mədəni əlaqələr qurdu. Azərbaycan Respublikası 1991-ci ilin dekabrında İslam Konfransı Təşkilatı (İKT) kimi mötəbər bir regional-beynəlxalq quruma üzv olmuş, bu təşkilatla münasibətlərini daima genişləndirmişdir. Azərbaycan, həm bu təşkilat çərçivəsində, həm də ayrı-ayrı İslam ölkələri ilə qurduğu ikitərəfli əlaqələrdə üzləşdiyi problemləri, xüsusilə də Dağlıq Qarabağ münaqişəsi və onun nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş bir milyon müsəlmanın ağır həyatı ilə bağlı çətinlikləri İslam dünyası ilə paylaşmaq zorunda qalmışdır. Heydər Əliyev cənabları Azərbaycanın mühüm Şərq və İslam ölkələri ilə münasibətlərinə xüsusi əhəmiyyət verən bir siyasi şəxsiyyətdir. O, hakimiyyətinin ilk çağlarında bu münasibətlərin dərinləşməsinə zəmin yaratdı.

Bəlli olduğu kimi, Azərbaycanın ən böyük problemi torpaqlarının 20 faizinin işğalı və 1 milyon didərgin həyatına məhkum edilmiş əhalisinin ağır iqtisadi-sosial vəziyyətidir. Beynəlxalq təşkilatlar bu problemlərin ədalətli həlli üçün əməli baxımdan heç bir ciddi tədbir görməmiş, hətta Azərbaycanın neft kontraktlarında əsas pay sahibləri olan Qərb şirkətlərinin mənsub olduğu böyük dövlətlər belə bu həssas məsələdə ikili standart siyasəti yürütməkdən çəkinməmişlər.

11 sentyabr hadisələrinə qədər ABŞ Konqresi Azərbaycana humanitar yardımı qadağan edən 907-ci düzəlişi qüvvədə saxlamış, son bir-iki ildə isə Əfqanıstan və

İraqa sülhməramlı qüvvə göndərdiyinə görə Bakıya azacıq, yəni Gürcüstan və Ermənistandan xeyli az yardım ayırmışdır. Rəsmi hesablamalara görə ABŞ 1992-ci ildən bəri Gürcüstan və İrəvana ayrı-ayrılıqda 2 milyard dollar yardım etmiş, hətta 1997-ci ildən bəri Qarabağ ermənilərinə ildə 25-30 milyon dollar maliyyə köməyi ayırmışdır. Belə bir vəziyyətdə Azərbaycan rəhbərinin öz xarici siyasətində balanslaşma yaratmağa həmişə ciddi diqqət yetirməsinin, Şərq və Asiya ölkələri ilə, xüsusilə İslam dünyası ilə münasibətlərini dərinləşdirməyə çalışmasının böyük əhəmiyyəti vardır. Heydər Əliyev bir sıra Qərb ölkələrinin Azərbaycana dair ikili və ədalətsiz mövqeyini dəfələrlə onların rəhbərlərinə açıq şəkildə çatdırmışdır. O, öz sözünü həm diplomatik ehyamla, həm də, yeri gəldikcə, qətiyyətlə deməyi bacaran mətanətli bir siyasi xadim idi.

Hələ 1993-cü ilin aprelində İslam Konfransı Təşkilatına üzv olan ölkələrin Xarici işlər nazirlərinin 21- ci toplantısında qəbul edilmiş qətnamədə Ermənistanın Azərbaycana hərbi təcavüzü pislənildi. Heydər Əliyev hakimiyyətə gələndən az sonra, yəni 23 noyabr 1993-cü ildə Təşkilatın qətnaməsi BMT iqamətgahında bir daha gündəmə gətirildi.

Azərbaycanla İKT arasında əlaqələr 1994- cü ilin noyabr ayında həmin təşkilatın baş katibi, doktor Həmid əl-Qabidin Bakıda Heydər Əliyevlə danışıqlarından sonra genişlənməyə başladı. Həmin ilin dekabr ayında isə Azərbaycan Prezidenti ilk dəfə olaraq İKT-nin Kasablankada keçirilən Zirvə toplantısında iştirak və çıxış etdi. O, bu səfər ərəfəsində İKT-nin fəaliyyətini belə səciyyələndirirdi:

"İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyarddan çox əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm beynəlxalq proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həllinə çalışır".

Azərbaycan Prezidenti Zirvə toplantısındakı çıxışında diqqəti İslam dünyasının problemlərinə yönəldərək müsəlman ölkələrinin inkişafına mane olan əngəllərin aradan qaldırılmasını, onların bir-birinə qarşılıqlı yardım etməsini, parçalanma və təklənmə hallarının qarşısını almaqla İslam aləmində həmrəylik və birliyin təmin edilməsinin vacibliyini tarixi bir vəzifə və zərurət kimi önə çəkdi.

Heydər Əliyev, eyni zamanda, İslam Konfransı Təşkilatı tərəfindən Ermənistanın Azərbaycana qarşı yeritdiyi işğalçılıq siyasətinin pislənməsini, İslam ölkələrinin 1 milyon azərbaycanlı-müsəlman qaçqınlara göstərdiyi maddi və mənəvi dəstəyi yüksək qiymətləndirdi. Belə ki, bu Təşkilat Azərbaycanın haqlarını müdafiə edən yeganə beynəlxalq qurum idi.

Zirvə toplantısının gedişində Heydər Əliyev Küveyt, Misir, İordaniya, Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Malayziya, İran və başqa İslam ölkələrinin

başçıları ilə görüşlər keçirərək ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi barədə danışıqlar apardı. O, Küveytin əmiri Cabir 93 Əhməd əs-Sabahla görüşündə Azərbaycan dövlətinin bu ölkə ilə əlaqələrini möhkəmləndirmək əzmində olduğunu bildirdi. Fələstin rəhbəri Yasir Ərafatla danışıqlarda bu xalqın öz müstəqilliyi uğrunda apardığı qəhrəmanlıq mübarizəsini təqdir etdi.

Sonrakı dövrdə Heydər Əliyevin çevik siyasi-diplomatik səyləri nəticəsində İslam ölkələri ilə əlaqələr yeni mərhələyə qədəm qoydu, İslam İnkişaf Bankı ilə münasibət quruldu. Bu Bank 1996-cı il sentyabrın 25-də Bakıda Beynəlxalq İnvestisiya Konfransı keçirdi. O zamandan Azərbaycan ilə İslam İnkişaf Bankı arasında əməkdaşlıq genişlənməkdədir. Bu Bank Azərbaycanda bir sıra iqtisadi layihələrin icrası üçün yatırımlar qoymaqla yanaşı, qaçqın müsəlman bacı-qardaşlarına maliyyə yardımları da etdi, onlar üçün məktəb və başqa infrastrukturların tikilməsinə kömək əli uzatdı.

Azərbaycanın Rəhbəri 9 -11 dekabr 1997- ci il tarixində İslam Konfransı Təşkilatının 8-ci Zirvə toplantısına da qatılaraq burada həm çıxış etdi, həm də bir sıra İslam ölkələrinin liderləri ilə görüşdu. O, bütün görüş və çıxışlarında İslam ölkələri arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini diqqətə çatdırdı. Heydər Əliyev cənabları müsəlman dünyasında həmrəylik və birliyə nail olmağı, qlobal irimiqyaslı məsələlərin həllində çoxtərəfli əməkdaşlığı genişləndirməyi, ümummüsəlman mədəniyyətini qoruyub saxlamağı, İslam ölkələrinin qarşılaşdığı problemlərin çözülməsində birgə çevik siyasi-diplomatik addımlar atmağı İslam Konfransı Təşkilatının ümdə vəzifələri kimi səciyyələndirdi.

O, son dövrlər Türkiyə, Pakistan, İranla yanaşı, Misir, Ərəbistan, Livan, BƏƏ və Küveyt kimi ərəb dövlətləri ilə əlaqələrin inkişafına da ardıcıl diqqət yetirirdi.

Azərbaycanın Küveytlə münasibətləri dinamik inkişaf yoluna qədəm qoymuşdur. Heydər Əliyevin ilk dəfə 1994 cü ildə Kasablankada Küveyt Əmiri Şeyx Cabir Əhməd əs - Sabah ilə görüşündən sonra bu ölkənin Milli Məclisi 28 may 1995-ci ildə Azərbaycan-Küveyt dostluq qrupu yaratmışdır. Həmin ilin 20-22 sentyabrında isə Küveyt Məclisinin sədr müavini Saleh Yusif əl-Fadallahın başçılıq etdiyi nümayəndə heyəti Bakıda olmuşdur. Bu sayaq qarşılıqlı səfərlər nəticəsində iki ölkənin əlaqələri genişlənmişdir.

Küveytdə Beynəlxalq İslam Xeyriyyə Cəmiyyətinin nəzdində yaranmış Asiya Müsəlmanları Komitəsinin Azərbaycandakı fəaliyyətini ayrıca qeyd etmək olar. 1995-ci ilin sonlarında Bakıda rəsmi qeydiyyatdan keçmiş bu komitə Qarabağ münaqişəsi nəticəsində məcburi köçkün düşən müsəlmanlara hümanitar yardım göstərir. Asiya Müsəlmanları Komitəsi həmçinin kimsəsiz uşaqlara da himayədarlıq edir.



Kuveytin Baş Nazirinin I-müavini, Xarici İşlər naziri Şeyx Məhəmməd əs-Sabahı qəbul edərkən.

Bundan başqa, həmin təşkilat Azərbaycanda elm, maarif və mədəniyyət sahəsində də xeyriyyəçilik fəaliyyəti göstərir.

Son vaxtlar Azərbaycan Respublikası ilə Küveyt arasında siyasi-diplomatik əlaqələr genişlənməkdədir, hər iki ölkədə səfirliklər fəaliyyətə başlayıb. Bütün bunlar iki müsəlman və dost xalq arasında siyasi, iqtisadi, mədəni əməkdaşlığın daha da dərinləşməsinə zəmin yaradır.

Ümumiyyətlə, Heydər Əliyev İslam dünyası ilə münasibətlərə iki əsas yöndən baxırdı: birincisi, Azərbaycan Respublikasının İslam ölkələri ilə siyasi-iqtisadi və mədəni-humanitar əlaqələrinin genişləndirilməsi; ikincisi, İslam dünyasına mənsub olan bütün ölkə və xalqlarla münasibətlərin dərinləşməsi, onlar arasında birlik və həmrəyliyin möhkəmləndirilməsi.

Azərbaycan Rəhbəri bunun üçün həm ayrı-ayrı İslam ölkələri arasında ikitərəfli və regional əməkdaşlığın genişləndirilməsini, həm də onların beynəlxalq səviyyədə vahid mövqe nümayiş etdirməklə müsəlmanların mənafelərinin qorunmasını zəruri sayırdı.

Azərbaycanın dövlət başçısı İslam dünyasının gələcəyi barədə daha çox düşünürdü. Zəngin tarixi keçmişə, elmi və mədəni mirasa malik olan İslam ölkələrinin müasir tarixi dönəmdə qarşılaşdıqları ictimai-siyasi və sosial-iqtisadi problemlər, onların öz suveren hüquqları və müstəqillikləri yolunda apardıqları mübarizə bu müdrik siyasətçinin diqqət mərkəzində dayanırdı. Onu daha çox İslam dünyasının ümumbəşər inkişaf karvanına qoşulması yolları qayğılandırırdı.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüş zamanı.

Heydər Əliyev hər bir görüşündə İslam ölkələrinin perspektivini, müasir dünya ilə ayaqlaşmaq istəklərini dilə gətirir və ən başlıcası, gələcəyə inamla, ümidlə baxırdı. O, bu məsələdə yenə İslamın əsil qaynaqlarına və Qurani-Kərimin hikmətinə əsaslanaraq söyləyirdi ki, biz Allahın yolu ilə, Qurani-Kərimin və Peyğəmbər əleyhissəlamın tövsiyəsinə uyğun işıqlı bir gələcəyə doğru gedirik.

Azərbaycanın Ümummilli Lideri ölkəsini qabaqcıl İslam mərkəzi kimi görmək istəyirdi. O, sovetlər dönəmində burada islamşünaslığın unudulmasını təəssüf hissi ilə qeyd edərək həmin sahənin yenidən dirçəlməsini arzulayırdı. Azərbaycan Respublikasında Qafqazın mötəbər bir islamşünaslıq mərkəzinin yaranmasını ictimaiyyətin İslam baxımından maariflənməsi, xalqın milli-mənəvi köklərinə qayıdışı və bu ölkənin bir örnəyə çevrilməsi üçün çox vacib sayırdı.

"Azərbaycan Avropa ilə Asiya, Qərb sivilizasiyası ilə Şərq sivilizasiyası arasında bir körpüdür".

Bu sözləri söyləyən Heydər Əliyev cənabları öz ölkəsi üçün nümunəvi bir inkişaf modeli haqqında düşünürdü.

Avropanın texnoloji, iqtisadi-sosial tərəqqisi ilə ayaqlaşmaq, lakin öz milli-mənəvi simasını saxlamaq, islamlaşmaq, milliləşmək və yeniləşmək, yəni üçrəngli Azərbaycan bayrağındakı simvollara uyğun orta bir seçim-Azərbaycan rəhbərinin öz xalqına tövsiyə etdiyi və həyata keçməsi üçün misilsiz xidmətlər göstərdiyi ölkəni, cəmiyyəti belə səciyyələndirmək olar. Dediklərimizdən də yəqin



Bəhreyn nümayəndə heyəti ilə.

etmək olar ki, Heydər Əliyevin fenomenal şəxsiyyətində nəzəriyyə ilə praktika üzvi şəkildə birləşmişdi.

Dindarlarla daim ünsiyyətdə olan Azərbaycan xalqının Ümummilli Lideri həm konsepsiyalar irəli sürən, həm də bu konsepsiyaları ardıcıl şəkildə həyata keçirməyi bacaran rəhbərlər cərgəsinə daxildir. O, hər bir məsələnin düzgün məntiqi qoyuluşunu, onun inkişaf perspektivliyini müəyyənləşdirən, qarşıya qoyduğu vəzifə və missiyanı yetərincə yerinə yetirən dövlət başçısı olmuşdur.

Söz və əməl vəhdəti hər bir işin uğurla nəticələnməsi üçün vacib şərtlərdəndir. Xüsusilə cəmiyyətlə bağlı məsələlərdə söz və əməl vəhdəti ilə yanaşı, rəhbərin camaatla canlı ünsiyyəti də çox önəmlidir. Heydər Əliyev istər sovet dövrü, istərsə də Azərbaycanın müstəqilliyi dövründə hakimiyyətdə olarkən insanlarla, xalqla ünsiyyətdə olmuş, onların problemlərini, fikir və rəylərini öyrənmiş, bütün əməli fəaliyyətində ictimaiyyətin arzu və istəklərini nəzərə alaraq qərarlar qəbul etmişdir.

Bəlli olduğu kimi, Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində çoxsaylı hərbi-siyasi, sosial-iqtisadi və ictimai problemlərlə üzləşmişdi. Böyük dövlətlərin rəqabət meydanına çevrilmiş Qafqazda gərgin geosiyasi mübarizə gedirdi. Azərbaycan hərbi təcavüzə məruz qalmış, ölkə daxilində sabitliyin bərpası qətiyyətli addımların atılmasını tələb edirdi. Belə bir çətin şəraitdə ölkə Başçısı gecə-gündüz müxtəlif problemlərin həlli ilə məşğul idi. Lakin çox gərgin və intensiv iş rejiminə baxmayaraq, Heydər Əliyev ölkədə dini vəziyyətlə yaxından



Müsəlman ölkələrinin səfirlərini qəbul edərkən.

tanış olmağa, bu məsələdə doğru-düzgün yol seçməyə, İslamın dirçəlişi istiqamətini nəzəri cəhətdən müəyyənləşdirməyə və hətta bu yöndə əməli addımlar atmağa imkan tapa bilirdi. O, əsil rəhbər kimi çalışırdı, başqa işlərdə olduğu kimi bu sahədə də şəxsən Özü fəal iştirak edirdi. Həm müqəddəs yerlərə, məscid və ziyarətgahlara gedir, orada möminlərlə görüşür və proqram xarakterli çıxışlar edir, həm də konfrans və başqa tədbirlərdə iştirak edir, öz tövsiyələrini verirdi.

Azərbaycan Rəhbəri, demək olar ki, bütün dini mərasim və bayramlarda ayrı-ayrı müqəddəs yerləri ziyarət edir və müsəlmanları təbrik edirdi.

O, hələ ilk dəfə Prezident seçilməzdən qabaq, yəni 5 sentyabr 1993-cü ildə "Təzə Pir" məscidinə gələrək müsəlmanları mövlud bayramı münasibəti ilə təbrik etdi və burada İslam dininin, islam dəyərlərinin Azərbaycan xalqının həyatında əhəmiyyətini qeyd etməklə sovetlərin dağılmasından sonra müstəqillik dövründə yenidən milli-mənəvi bir dirçəliş dönəminin başlanğıcını burada toplaşan möminlərə müjdə verdi.

1994-cü ilin yayında Heydər Əliyevə Məkkə və Mədinə kimi müqəddəs İslam mərkəzlərini ziyarət etmək nəsib oldu.

Azərbaycan Prezidenti 21 may 1994-cü ildə Qurban bayramı münasibətilə "Bibiheybət ziyarətgahına toplaşan möminlərlə görüşdü. Məlum olduğu kimi, bu müqəddəs yer hələ keçən yüzilliyin 30-cu illərində sovet hökuməti tərəfindən dağıdılmışdı. O, burada möminlər qarşısında çıxış edərək Bibiheybət məscid kompleksinin tikiləcəyi və bu ziyarətgahın tam bərpa ediləcəyi barədə söz verdi



Küveytdən olan nümayəndə heyətini qəbul edərkən.

və dediyi sözə əməl etdi. Bu kompleks dövlətin ayırdığı vəsait hesabına 1998-ci ildə tikilib başa çatdı və Azərbaycan rəhbəri, böyük məmnuniyyətlə, "Bibiheybət" ziyarətgahının bərpası işlərini nəzarətə götürdü və sovetlərin dağıtdığı bu müqəddəs ocağı yenidən möminlərə qaytardı. Bunu, bir növ, İslama qayıdışın ölkə başçısı tərəfindən dəstəklənməsinin əməli təsdiqi kimi də qiymətləndirmək olar.

Azəbaycan Prezidenti dini bayram və mərasimlərdə xalqa və möminlərə televiziya və radio vasitəsilə müraciət edərək onları rəsmi şəkildə təbrik etməklə kifayətlənmirdi. O, demək olar ki, bütün böyük mərasimlər zamanı, məsələn, Mövlud bayramı, Qurban və Ramazan bayramlarında məscid və ziyarətgahlara gedər, orada ruhani və möminlərlə söhbət edər, onların fikir və rəylərini dinləyərdi. Heydər Əliyev dəfələrlə "Təzə Pir" məscidində və "Mir Mövsüm ağa" ziyarətgahında olmuş, hər dəfə də məzmunlu və konseptual çıxışı ilə İslamın Azərbaycan xalqının milli-mənəvi yüksəlişində rolunu vurğulamışdır.

Bundan başqa, o, islam, xristian və başqa dini icmaların ruhani başçıları ilə də görüşür, dinlər arasında dialoqun və qarşılıqlı ehtiramın vacibliyini önə çəkirdi. Həmin uzaqgörən və əməli fəaliyyətin nəticəsidir ki, Azərbaycan Respublikasında dini zəmində qarşıdurma olmamış və indi də yoxdur. Hətta beynəlxaq qurumlar belə, bu ölkədə dini dözümlülük olduğunu dəfələrlə təsdiq etmişlər.

Azərbaycan rəhbərinin dindarlarla birbaşa ünsiyyəti, mərasimlərdə fəal iştirakı, ölkədə islam abidələrinin bərpasına, milli-mənəvi dəyərlərin yenidən dir



çəlişinə göstərdiyi qayğı örnək kimi qiymətləndirilməlidir. O, ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında olduğu kimi, onun mədəni və mənəvi həyatının tənzimlənməsində də həmişə öndə gedirdi. Həm siyasi məsələlərdə sərrast proqnozlar verir, həm cəmiyyətin sosial-iqtisadi inkişafının mükəmməl modelini hazırlayır, həm də cəmiyyətin dini-mənəvi dirçəliş istiqamətini həssaslıqla duyur və istiqamətləndirirdi. Çünki, o, həmişə cəmiyyətin müxtəlif təbəqələri ilə ünsiyyət saxlayır, onun problemlərini öz gözü ilə müşahidə edir, ictimai rəyi və ölkədəki ümumi əhvali-ruhiyyəni, psixoloji durumu diqqətlə izləyir, hər bir məsələni xalqla yaxın təmas saxlamaqla həll edirdi.

Heydər Əliyev ruhani və möminlərlə canlı təmaslarında sovet dövründə azərbaycanlıların İslam dəyərlərindən necə uzaq saxlandığını, bu siyasətin mahiyyətini və ictimaiyyətə bəlli olmayan gizli məqamlarını açıqladığı kimi, həmin nisgilli dövrün müqabilində indi yaranan şəraitdən məntiqi şəkildə yararlanmağı da tövsiyə edirdi.

Onun din adamları ilə canlı ünsiyyəti, məscid, ziyarətgah və başqa müqəddəs yerləri ziyarət etməsi, İslamın Azərbaycanda dirçəliş və inkişafı üçün göstərdiyi fəallıq ictimaiyyətdə böyük psixoloji təsirə malik idi. Təzəcə dövlət müstəqilliyinə qovuşan bu müsəlman respublikasında ayrı-ayrı yabançı qüvvələrin apardığı təbliğat nəticəsində ictimaiyyətin və xüsusilə siyasi dairələrin bəzi təbəqələrində İslam təhlükəsi, İslam xofu yaranmaqda idi. Belə iddia edirlər ki, güya, bu ölkədə ifrat islamçılar təşkilatlanıb hakimiyyətə gələ bilərlər. Heydər Əliyev isə istər öz nəzəri-ideoloji baxışlarında, istərsə də əməli fəaliyyətində İslam

dan, ruhanilərdən və möminlərdən uzaq düşmədi, onları cəmiyyətin 100 problemlərindən təcrid etmədi, əksinə, qarşılıqlı ünsiyyət və əlaqə qurmaqla baş verə biləcək dövlət-din və İslam-siyasət ixtilaflarının qarşısını aldı.

Həmin ünsiyyət və qarşılıqlı münasibətlərin nəticəsi olaraq din adamları, möminlər və İslam təmayüllü zümrələrdə belə bir xatircəmlik yarandı ki, Azərbaycanda onların hüquqları konstitusiya və dövlət səviyyəsində müdafiə olunur, onlar Azərbaycan xalqının nümayəndələri və cəmiyyətin ayrılmaz bir parçasıdır. Başqa bir tərəfdən ölkədə mənəvi ab-havanı yaxşılaşdırmaq və onu həmişə sağlam şəkildə qoruyub saxlamaq üçün islam dəyərləri önəmli rol oynayır və oynayacaq. Müasirlik-yeni texnoloji tərəqqiyə, sosial-iqtisadi inkişafa, hüquqi-sivil dövlət quruculuğuna yiyələnmək və dünyada gedən proseslərdən geridə qalmamaq deməkdir. Müasirlik, heç də, öz milli-dini və mənəvi dəyərlərindən imtina etmək mənasında anlaşıla bilməz. Azərbaycan rəhbəri din adamları ilə canlı təmaslarında dəfələrlə vurğulayırdı ki, biz demokratik inkişaf modeli seçmişik, ancaq dövlət dindən, demokratiya isə mənəviyyatdan ayrı deyil. Onun çox mühüm bir tezisinə diqqət yetirək:

"Tarix boyu azərbaycanlıların, müsəlmanların həyatına İslam dini həmişə dayaq olubdur, bu gün də, gələcəkdə də dayaqdır".

İslam tarix boyu müsəlman aləminin öz milli-mənəvi bütövlüyünü saxlamaq, yabançı, işğalçı və müstəmləkəçi qüvvələrlə mübarizə aparmaq, öz varlığını və müstəqilliyini qorumaq yolunda ən qüdrətli və tükənməz dayaq nöqtəsi olub. İslam dəyərlərinə söykənən müsəlmanlar həmin mənəvi-əxlaqi gücün köməyilə bu gün öz iradəsini ortaya qoyaraq dünya inkişaf karvanına qoşula bilər və öz gələcəyini, öz müqəddəratını öz əlləri ilə öz istək və mənəviyyatına uyğun qura bilərlər.

# VII BÖLÜM

# İSLAM VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

*Allaha şükürlər olsun ki,*
*uzun illər qəlbimdə yaşatdığım arzuma,*
*niyyətimə çatdım. Məkkəni ziyarət edərkən İslam dininin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim.*

**HEYDƏR ƏLİYEV**






Dr. Adil əl-Fəlah Beynəlxalq konfransda.

İslam Azərbaycanda 7-ci əsrdən yayılmağa başlamış və burada yaşayan xalqların əksəriyyəti İslam dinini qəbul etmiş, islam dəyərlərini, adət-ənənələrini öz yerli mədəniyyəti ilə qovuşduraraq yaşatmışlar. İslam dəyərləri zəngin mənəvi köklərə əsaslandığına görə cəmiyyət həyatının bütün qollarına nüfuz etmiş, adi məişətdən tutmuş fəlsəfi təfəkkürədək bütün mədəniyyət sahələrini əhatə etmişdir. Azərbaycan mədəniyyət tarixi başqa müsəlman xalqlarında olduğu kimi, həm bu ölkənin milli mədəniyyəti, həm də ümummüsəlman sivilizasiyasının tərkib hissəsi hesab edilir.

Xilafətin tərkibinə daxil edilən Azərbaycanda da mədrəsələrdə fəlsəfə, məntiq, hüquq, riyaziyyat və s. öyrədilirdi. Ərəb dili Xilafətin bütün ərazisində rəsmi dövlət dili idi.

Azərbaycan mədəniyyətinin də ayrı-ayrı sahələri-ədəbiyyat, incəsənət, memarlıq, eyni zamanda elm sahələri-nücum, təbabət, riyaziyyat, fəlsəfə, hüquq, musiqi nəzəriyyəsi və s. təkcə bu ölkənin deyil, bütün İslam dünyasının mirası sayılır. Başqa sözlə desək, Azərbaycanın elm və mədəniyyət xadimləri İslam sivilizasiyasının zənginləşməsində böyük xidmətlər göstərmişlər. Azərbaycanlı alim, filosof, fəqih, mütəkəllim, ədib və şairlər ərəb dilində qiymətli əsərlər yazmış, İslam maarifinin genişlənməsi üçün böyük işlər görmüşlər.

Azərbaycandan onlarla istedadlı gənc ərəb şərqinin mədəniyyət mərkəzləri hesab edilən Bağdada, Kufəyə, Nəcəfə, Bəsrəyə, Mədinəyə, Qahirəyə və başqa şəhərlərə təhsil almağa göndərilirdi. Azərbaycanın Ərdəbil, Marağa, Təbriz,

Şamaxı və s. kimi iri şəhərlərində təhsil ocaqları, kitabxanalar, məscidlər, əzəmətli abidələr yaranmaqda və inkişaf etməkdə idi. Azərbaycanın şifahi və yazılı ədəbiyyatının tacı sayılan **'Kiabi-Dədə Qorqud'** eposu Xilafət dövründə formalaşıb başa çatmışdır. Azərbaycan xalqının bu qəhrəmanlıq epopeyası IX əsrin əvvəllərində ərəb dilinə tərcümə edilmiş və İslam mədəniyyətinin dəyərli incisinə çevrilmişdi.

Əksər Azərbaycan ədib və şairlərinin yaradıcılığı İslam dəyərləri ilə üzvi surətdə bağlıdır. Heydər Əliyev İslam dini ilə yanaşı, İslam mədəniyyətinin də Azərbaycanda böyük nüfuz qazandığını vurğulayır. O, "**İslam sivilizasiyası Qafqazda**" adlı beynəlxalq konfransda Ərəbistandan yayılan İslam mədəniyyətinin Qafqazda genişlənməsində Azərbaycanın roluna toxunaraq göstərir ki, Qafqazın şimalında və ondan da şimalda yaşayan xalqların o vaxtdan İslam dininə, İslam mədəniyyətinə mənsub olduğunu nəzərə alsaq, bunda Azərbaycanın xüsusi rolu şübhəsizdir.

Azərbaycanda aparılmış arxeoloji qazıntılar nəticəsində Xilafət dövründə tikilmiş bir sıra görkəmli maddi mədəniyyət abidələri aşkar edilmişdir. Azərbaycan şəhərlərinin əksəriyyətində müxtəlif sənət sahələrinin inkişafını əks etdirən əşyalar, sikkələr, şüşə qablar, metal məmulatlar tapılmışdır. Bu qabların və abidələrin üzərində ərəb əlifbasının kufü xətti ilə yazılmış yazılar onların yarandığı dövrü və sənətkarı dəqiqləşdirir.

Azərbaycanda İslamın qərarlaşması memarlığın və şəhərsalmanın yeni inkişaf istiqamətini müəyyən etmişdir. Tikinti və abadlıq sahəsində yeni ənənələr yaranmış və demək olar ki, məscidlərin, mədrəsələrin, örtülü bazarların, karvansaraların, hamamların tikintisi yeni ənənələr əsasında aparılırdı.

İntibah dövrü Azərbaycan memarlığının ən görkəmli nümayəndəsi XII əsrdə yaşamış Əcəmi Əbubəkr oğlu Naxçıvanda hamının diqqətini cəlb edən çoxlu tarixi abidələr ucaltmışdır. Əcəmi hələ sağlığında "mühəndislər şeyxi" ləqəbi daşımış, özündən sonra Naxçıvan memarlıq məktəbi adlanan xüsusi məktəbin əsasını qoymuşdur. Əcəminin memarlıq sənəti müsəlman Şərq memarlığına güclü təsir göstərmişdir.

Heydər Əliyev Azərbaycanda çoxəsrlik İslam dövrü mədəniyyətinin olduğunu yada salaraq belə söyləmişdir:

"Azərbaycanda İslam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik İslam dövrü tariximiz zəngindir. Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycanın İslam mədəniyyəti, İslam dini ilə bağlı dahi şəxsiyyətləri-Nizami, Nəsimi, Tusi, Qətran Təb-



Sağdan: Ümumrusiya patriarxı II Aleksi, Azərbaycan Respublikasının baş naziri Artu Rasizadə, Şeyxülislam Allahşükür Paşazadə və Milli məsələlər üzrə dövlət müşaviri Hidayət Orucov.

rizi, Füzuli və başqaları dünya sivilizasiyasına böyük töhfələr vermiş, İslam mədəniyyətini zənginləşdirmişlər".

Heydər Əliyev 1996-cı ildə keçirilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyində, ayrı-ayrı elmi-mədəni simpozium və konfranslarda, ziyalılarla görüşlərindəki çıxışlarında Azərbaycan mədəniyyətinin və ədəbiyyatının min dörd yüz il ərzində İslam dünyası ilə qaynayıb-qarışdığını qürur hissi ilə vurğulamış, yalnız sovetlər zamanı 70 il ərzində burada müvəqqəti fasilə yarandığını, sonra yenə öz ənənəvi dəyərlərinə qayıtdığını söyləmişdir.

Azərbaycan Rəhbəri, haqlı olaraq, ölkəsinin çoxəsrlik İslam dövrü tarixinin zənginliyini diqqətə çatdırır. Bu zənginlik özünü elm, ədəbiyyat və mədəniyyət sahələrində daha çox göstərir.

Böyük Azərbaycan alimi-ensiklopedist Nəsirəddin Tusi riyaziyyat, həndəsə, nücum, məntiq, kəlam, fəlsəfə və başqa sahələrdə çoxlu əsərlər yazmışdır. O, əsərlərinin çoxunu ərəbcə yazmış, Evklid həndəsəsi (Təhriri-İqlidis) Ptolomeyin məhşur coğrafiya əsəri (Təhriri-Məcəsti) kimi klassik əsərlər Tusinin ərəbcə şərhində elm aləminə çatmışdır. Onun İbn Sinanın "*Əl-İşarat vət-Tənbihat*" əsərinə yazdığı şərh fəlsəfə tarixində öz əhəmiyyəti baxımından xüsusi yer tutur.

İşraq hikmətinin banisi Şihabəddin Söhrəverdi əsərlərinin çoxunu ərəbcə yazmışdır. Bu böyük alim İslam fəlsəfəsi tarixində məhşur simalardan biridir. İslam dünyasının böyük dahisi İbn Sinanın tələbəsi olmuş azərbaycanlı



Heydər Əliyevin tolerantlıq ənənələrini din xadimləri davam etdirirlər.

filosof Bəhmənyarın əsərləri hələ sağlığında bir çox dillərə tərcümə olunmuş, dünya fəlsəfi fikrinin inkişafında mühüm rol oynamışdır.

Azərbaycanda ədəbiyyat və başqa sənət əsərlərindəki zəngin İslam dəyərləri həmin əsərlərin başlıca ideya və məzmununu təşkil edir. Xəqani, Nizami, Şeyx Mahmud Şəbüstəri, Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi böyük klassiklərdən tutmuş nisbətən sonrakı dövrdə yaşayıb-yaradan Əbülqasım Nəbati, Aşıq Ələsgər və Hüseyn Cavid kimi görkəmli sənətkarların əsərləri kimi bütünlükdə klassik irsdə İslam dəyərləri geniş təmsil olunur. Azərbaycan intibah ədəbiyyatı Nizaminin yaradıcılığı ilə özünün ən yüksək zirvəsinə ucalmışdır. Nizami yaradıcılığının maya bağladığı Gəncə şəhəri bütün müsəlman Şərqində böyük elm və təhsil ocaqlarından biri olmuşdur. Mükəmməl təhsilə malik dahi mütəfəkkir yeni əsər üzərində işləməzdən əvvəl müxtəlif dillərdə yazılmış nadir mənbələri dərindən öyrənirdi. Nizaminin ölməz "*Xəmsə*"si onu dünya mədəniyyətinin dahiləri sırasına çıxardığı kimi, şairi yetirən xalqına da dünya şöhrəti gətirmişdir.

İntibah ədəbiyyatının görkəmli şairlərindən biri də Əfzələddin Xəqani olmuşdur. Xəqanidən bugünkü nəsillərə 17 min beytlik lirik şeirlər divanı, o cümlədən "*Mədain xərabələri*" qəsidəsi, "*Töhfətül-İraqeyn*" poeması və nəsrlə yazdığı məktublar yadigar qalmışdır.

XVI əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi şair və mütəfəkkir Məhəmməd Füzuli müsəlman Şərqin mühüm elm və mədəniyyət mərkəzlərindən biri olan Bağdadda böyümüş və yaşamışdır. Füzulinin ulu babaları Əmir



Kitabın müəllifi dr. Adil əl-Fəlah Şeyxüslam Allahşükür Paşazadə həzrətləri ilə.

Teymurun yürüşləri zamanı Azərbaycandan İraqa göçürülənlər olmuşlar. Klassik Şərq ədəbiyyatına dərindən bələd olan Füzuli ömrünün 40 ilindən çoxunu bədii və elmi yaradıcılığa həsr etmişdir.

Keçən əsrin 30-cu illərində kommunist-ateist təbliğatına boyun əyməyən böyük Hüseyn Cavid Sibirə sürgün edilmişdi. Onun qəbri Heydər Əliyevin təşəbbüsü ilə hələ sovetlərin qaynar ideoloji təbliğatı zamanı Sibirdən doğma Naxçıvana köçürüldü. Cavidin bir sıra əsərləri, o cümlədən "*Şeyx Sənan*" və "*Peyğəmbər*" adlı mənzum dramları məhz İslam ruhunda yazılmışdır.

Azərbaycanın şair və ədiblərinin əsərlərində İslam əqli-mənəvi dəyərləri daha çox irfan təmayüllü şairlərdə geniş təmsil olunub. Nizami, Füzuli, Şah İsmayıl Xətai, Saib Təbrizi, Əbülqasım Nəbatinin şeirlərində haqq sevgisi, ilahi məhəbbət tərənnüm edilib.

Azərbaycan memarlarının yaratdığı məscid və başqa dini komplekslər, ziyarətgahlar və pirlər, kitab sənətçilərinin yaratdığı gözəl xətt nümunələri, əlyazma kitabı səhifələrindəki bəzək-naxışlar, hətta cildlərin tərtibatı İslam ruhunun bədii-estetik təcəssümüdür.

Heydər Əliyev Azərbaycanın elm, ədəbiyyat və sənət tarixində xüsusi yer tutan, elmi-fəlsəfi və bədii-estetik dünya görüşünün ruhuna hopan İslam mənəvi dəyərlərini çox yüksək qiymətləndirirdi. O, Azərbaycan klassiklərinin yubileylərinin keçirilməsini və əsərlərinin çapını dövlət nəzarətində saxlayırdı.

Ən başlıcası isə, Azərbaycan rəhbəri Azərbaycan klassiklərinin əsərlərində

ifadə edilən yüksək qayələrin, ümumbəşəri ideალların təbliğ olunmasını, 108 həmin zəngin əxlaqi-mənəvi dəyərlər xəzinəsindən müasir tarixi dönəmdə istifadə edilməsini istəyirdi. O, dəfələrlə Azərbaycan mədəniyyətinin İslam dəyərləri ilə zənginləşdiyini önə çəkərək bununla fəxr etdiyini bildirmiş, müasir dövrün mədəni quruculuğunda və sənət əsərlərində tarixi keçmişin İslam yaddaşını yaşatmağın, yeni sənət nümunələri ilə zənginləşdirməyin zəruriliyini vurğulamışdır. Heydər Əliyev haqqında mədəniyyət xadimlərinin xatirələri bu cəhətdən mənalı faktlarla zəngindir. Ulu rəhbər yaxşı bilirdi ki, xalqın milli-mənəvi kökləri mədəniyyətin əsas yolları olan elm, ədəbiyyat və incəsənət kimi sahələrdən daha dərindən qaynaqlanır. Ona görə də Azərbaycanın Ümummilli Lideri ölkənin müasir inkişaf yolunda və yeni dünyaya qovuşmasında öz milli-mənəvi simasını saxlamasını ən önəmli şərt hesab edirdi. Bu işdə isə İslam dəyərlərini ən güclü amil kimi dəyərləndirirdi. Heydər Əliyev cənablarına görə, VII əsrdən başlayaraq Azərbaycan xalqının mədəniyyətinin təşəkkül və təkamül prosesi böyük İslam sivilizasiya məkanında baş vermiş, bu mədəniyyət həmin nəhəng sivilizasiyanın tərkib hissəsi kimi mövcud olmuşdur. Azərbaycan milli mədəniyyətini ümumislam və ümumbəşəri sivilizasiyadan təcrid olunmuş şəkildə təsəvvür etmək olmaz.



Doktor ADİL ABDULLA ƏL-FƏLAH

1953-cü ildə Küveyt dövlətində anadan olmuşdur. 1997-ci ildə Küveyt Universitetinin Ədəbiyyat fakultəsini Psixologiya və Sosialogiya üzrə bitirmiş və Lisans dərəcəsi almışdır. 1982-ci ildə Səudiyyə Ərəbistanı Krallığının İmam Məhəmməd bin Səud adına İslam Universitetinin magistraturasını İslam informasiyası Televiziya ixtisası üzrə bitirmişdir. Küveyt dövlətində müxtəlif hökümət vəzifələrində, ictimai təşkilatlarda və tədris müəssələrində, habelə dini qurumlarda çalışmışdır. 1992-ci ildən Küveytin Vəqflər və İslam İşləri nazirinin müavinidir.
İslam informasiya vasitələri sahəsində çoxsaylı elmi əsər və məqalələrin müəllifidir. Asiya Müsəlmanları Komitəsinin sədridir. Komitənin Bakı bürosu uzun illərdir ki, Azərbaycanda fəaliyyət göstərir, qaçqın və köçkünlərə, yetim uşaqları olan ailələrə humanitar yardımlar göstərir. Doktor Adil əl-Fəlah öz ölkəsinin Ermәni Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanı dəstəkləyən mövqe tutmasında böyük rol oynamışdır.
Evlidir, on uşağı var.